Xalqın qəzeti!

# Xalq qəzeti

№ 87 (31056) 19 may 2026-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# Dünya qlobal şəhərsalmanın gələcəyinə Bakıdan baxır

## Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının təntənəli açılış mərasimi

*Prezident İlham Əliyev tədbirdə çıxış edib*




**Mayın 18-də Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) açılış mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax sessiyada iştirak edən dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşıladılar.

Qarşılanma mərasimindən sonra birgə foto çəkdirildi.

Sonra BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) tərəfindən hazırlanmış, WUF13-ün açılışına həsr olunmuş videoçarx nümayiş etdirildi və mədəni proqram təqdim olundu.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

*(ardı 2-ci səhifədə)*

## Danışır WUF13 iştirakçıları

Səhifə ⇨ 10

## “Xilaskar Rusiya” və Ermənistan üçün türk düşmənçiliyi mifi



*Platoşkinlər daşnaklarla Paşinyan iqtidarını eyniləşdirirlərsə...*

**Rusiyadakı müəyyən qüvvələrin Baş nazir Nikol Paşinyan iqtidarını hakimiyyətdən uzaqlaşdırmaq istəkləri şübhəsizdir. Bu qüvvələrin Ermənistandakı revanşist və şovinist kəsim üzərinə siyasi sərmayə yatırdıqları da diqqətdən yayınmır. Ən maraqlısı isə həmin qüvvələrin təmsilçilərindən bəzilərinin tarixdə eşələnmələridir. Belələrindən biri də Nikolay Platoşkindir. Onun barəsində məlumat verəcək, nə dediyini aydınlaşdıracağıq. Hələlik isə...**

*(ardı 8-ci səhifədə)*

## WUF13-ün beynəlxalq önəmi və Bakıdan verilən mesajlar




Səhifə ⇨ 8

## Qlobal şəhərsalma marafonunun 13-cü ünvanı Bakıdır




Səhifə ⇨ 9

### Azərbaycanın şəhərsalma təcrübəsi qlobal önəm daşıyır



Səhifə ⇨ 7

### WUF13-də “Xalq qəzeti”nin dialoq masası



Səhifə ⇨ 7

### WUF13 dünya mediasının gündəmində



Səhifə ⇨ 9

### Qlobal istiləşmənin Azərbaycanda təzahürləri



Səhifə ⇨ 11

### Davamlı yağışların fəsadları aradan qaldırıldı



Səhifə ⇨ 11

### Serbiya ölkəmizin önəmli tərəfdaşına çevrilir



Səhifə ⇨ 12

### Yaxın Şərq münaqişəsi qlobal əmtəə bazarlarında təlatüm yaradıb



Səhifə ⇨ 12

### Böyük Britaniya niyə “dağılır”?



Səhifə ⇨ 15

# Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının təntənəli açılış mərasimi

(əvvəli 1-ci səhifədə)





## Prezident İlham Əliyevin çıxışı

– Zati-aliləri, xanımlar və cənablar, əziz qonaqlar.

Əvvəlcə mən Ümumdünya Şəhərsalma Forumunun bütün iştirakçılarını Bakıda salamlamaq və foruma uğurlar arzulamaq istərdim. Biz yəqin ki, qeydiyyatdan keçmiş iştirakçıların rekord sayına nail olduq. Bu səhər mənə verilən məlumata görə, 182 ölkədən 45 mindən artıq qeydiyyata alınmış iştirakçımız var. Bununla belə, bu, ilyarım əvvəl Azərbaycanda keçirilmiş COP29-dan sonra ikinci ən böyük beynəlxalq tədbirdir və ümid edirəm ki, Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının nəticəsi COP29 qədər uğurlu olacaq. Düşünürəm ki, Bakıda bu günlər ərzində, ilk dəfə ölkəmizə səfər edən qonaqların əksər hissəsi ölkəmizi və şəhərimizi daha yaxşı tanımaq, şəhərsalmanın inkişafı sahəsində Azərbaycanda görülən işləri öz gözləri ilə görmək imkanını qazanacaqlar.

Azərbaycan Avropa ilə Asiya arasında yerləşir və hər zaman Şərqin Qərb ilə qovuşduğu məkan olub. Bu, həmçinin ölkəmizin memarlığında əks olunub. Beləliklə, əgər siz Bakıda İçərişəhərin qədim divarları arasında gəzsəniz, sonra bircə küçəni keçsəniz, özünüzü tamamilə müasir mühitdə hiss edəcəksiniz - vaxtilə üç kilometr olmuş Bakı Bulvarı hazırda 15 kilometrdən artıq tanınmış dənizkənarı məkandır.

Daha sonra isə Avropa memarları tərəfindən layihələndirilmiş və tikilmiş XIX əsrə aid binalar var. Bir sözlə, Bakıda, qədimliklə yenilik, tarixi irsimizin qorunması ilə şəhərsalmanın planlaşdırılması və müasirləşdirilməsi zəruriliyi arasında təbii vəhdət mövcuddur. Bu, həqiqətən əcdadlarımızın istedadının bariz nümunəsi, tarixi və memarlıq irsimizi necə qoruduğumuzun təzahürüdür. Şəhərsalma nəinki Bakı, o cümlədən Azərbaycanın bir çox şəhərləri üçün gündəlik əsaslarla işlədiyimiz məsələdir.

Bu il mənim sərəncamıma əsasən "Şəhərsalma və Memarlıq İli" elan edilmişdir. Mən bu tədbirin təşkilinə verilən dəstəyə, əməkdaşlığa və forumun 13-cü Sessiyasına ev sahibliyi etmək üçün bu cür çox məsuliyyətli vəzifənin bizə həvalə edildiyinə görə təşəkkürümü bildirmək istəyirəm. 2022-ci ildən etibarən biz BMT-nin Məskunlaşma Proqramı ilə Azərbaycanda, uzun illər işğal altında olmuş şəhərlərdə – Ağdamda, Zəngilanda və Xankəndidə üç milli şəhərsalma forumlarını keçirmişik.

Bu gün qlobal toplantını təşkil edərək, biz şəhərsalmaya, onun inkişafına, insanların həyatını yaxşılaşdırmaq gündəliyinə və onların özlərini rahat hiss etmələri üçün əhalimizin bütün lazımi şəraitlərlə təmin olunmasına güclü sadiqliyimizi bir daha nümayiş etdiririk. Nəinki Bakı, o cümlədən Azərbaycanın bir çox qədim şəhərləri öz memarlığı ilə fərəhlənə bilər. Mən onlardan bəzilərini qeyd edəcəyəm. Vaxtilə Şirvanşahlar dövlətinin paytaxtı olan və XIV əsrdə yazıb-yaratmış dahi Azərbaycan şairi Nəsiminin doğulduğu yerdə - Şamaxıda 743-cü ildə tikilmiş dünyanın ən qədim məscidlərindən biri var. Bir vaxtlar Atabəylər dövlətinin paytaxtı olan, dahi memar Əcəmi Naxçıvaninin vətəni Naxçıvanda onun tikdiyi XII əsrə aid Möminə xatun türbəsi var. Dünyanın ən qədim şəhərlərindən biri olan, XII əsrdə yaşayıb-yaratmış digər dahi Azərbaycan şairi Nizami Gəncəvinin vətəni Gəncə bu gün Bakı kimi inkişaf edir və tarixi simasını qoruyur. Qafqaz Albaniyası dövlətinin paytaxtı Qəbələdə və əsas şəhərlərdən biri olan Şəkidə çoxsaylı tarixi abidələr var. Şəki şəhərinin yaxınlığında yerləşən Kiş kəndindəki kilsə ola bilsin, dünyadakı ən qədim kilsələrdən biridir. Əcdadlarımızın istedadını nümayiş etdirən digər bir misal Lahıc kəndidir. On beş əsr bundan əvvəl kənd yaradılanda insanlar bu gün də işləyən kanalizasiya sistemini və su xəttini çəkmişlər. Demək olar ki, 30 il ərzində işğal altında qalan Qarabağın tacı Şuşa indi sıfırdan yenidən qurulur və onun zədələnmiş qalası bərpa edilib.





Bizim əcdadlarımız tərəfindən tikilənlər təkcə mənim qeyd etdiyim abidələr deyil. Əlbəttə ki, VI əsrə aid Qız qalası ilə Bakı, işğala, dağıntılara və talana məruz qalan abidələr müxtəlif nəsillərə aid azərbaycanlılar tərəfindən yenidən tikilib və bərpa olunub, eyni zamanda, qorunaraq bu günədək saxlanılıb. Qeyd etdiyim bütün bu abidələri hər kəs ziyarət edərək görə bilər, onların içərisinə daxil olaraq onlara toxuna bilər. Hesab edirəm ki, bu, bizim tarixi irsimizə, mirasımıza münasibətimizin ən yaxşı göstəricisidir. Biz bununla fəxr edirik. Biz təkcə musiqimizdə və şeirlərimizdə deyil, eyni zamanda, memarlıqda öz əksini tapan qədim tariximizlə qürur duyuruq. Bizim vəzifəmiz bunları növbəti nəsillər üçün qoruyub saxlamaqdır və mən əminəm ki, növbəti nəsil də eyni cür edəcək.

Bu gün xüsusilə paytaxt şəhərlərində şəhər inkişafına olan bu zərurəti tam anlayışla qəbul edərək cəsarətli və ehtiyatlı olmalıyıq. Mən bunu bəzən Bakıdakı Formula 1 yarışı ilə müqayisə edirəm. Yeri gəlmişkən, Bakı Qran-Prisi şəhər halqasında keçirilən çox azsaylı yarışlardandır. Ən sürətli əsas yolda sürət saatda 300 kilometrdən çox olur, sonra isə pilotlar əyləcə basaraq bolidlərini eni yeddi metr olan küçəyə sığışdırmalıdırlar və bunu da qədim qala divarlarından bir metr məsafədə etməlidirlər. Beləliklə, pilotlar liderlər, qərar qəbul edənlər və inkişaf gündəliyini irəli aparanlar kimi cəsur və ehtiyatlı olmalıdırlar. Biz inkişafda, insanlarımız üçün daha yaxşı şəraitin yaradılmasında, müasirləşmədə cəsur olmalıyıq. Lakin eyni zamanda, tarixi irsimizin qorunmasına gəldikdə, çox ehtiyatlı olmalıyıq.

İndi hökumətimizin qarşısında duran əsas vəzifələrdən biri Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasıdır. Bu ərazi 30 il müddətində erməni işğalı altında idi və tamamilə dağıdılaraq məhv edilmişdir. Beynəlxalq müşahidəçilər və ziyarətçilər Ağdamı Xirosima ilə müqayisə edirdilər, onlar Ağdamı "Qafqazın Xirosiması" adlandırırdılar. Çünki şəhər, sadəcə, mövcud deyildi. Şəhər tamamilə yerlə-yeksan edilmişdir və o, Xirosimadan fərqli olaraq, atom bombasının atılması nəticəsində bir günə bu vəziyyətə düşməmişdir. Bu, 30 illik işğal ərzində edilmişdir və bu zaman binalar, tarixi binalar və ictimai binalar, evlər tamamilə sökülərək dağıdılmışdır.

Beləliklə, hazırda Böyük Qayıdış Proqramı həyata keçirilir, şəhər və kəndlərin Baş planları hazırlanır. Mən, əlbəttə ki, çox rəqəm gətirə bilərəm, lakin yalnız ikisini qeyd edim. Artıq 5 il ərzində çəkdiyimiz tunellərin uzunluğu 70 kilometrdir. Digər beşi də tikiləcək. 500 körpüdən 435-i inşa olunub. Bununla yanaşı, elektrik stansiyaları, su təchizatı kəmərləri, su anbarları, evlər, məktəblər, xəstəxanalar, üç beynəlxalq hava limanı tikilib, dəmir yolları çəkilib. Bütün bunlar cəmi beş il ərzində inşa olunub.

Yalnız dağıtmaq, məhv etmək və əziyyətlər vermək üçün gələnlərdən fərqli olaraq, məhz torpağın yiyələri bu cür davranırlar. Bu gün 85 mindən artıq azərbaycanlı keçmişdə işğal altında olmuş ərazilərdə yaşayır. Onlar işləyir, yaşayır, təhsil alır və onların məşğulluğu hökumətimizin ən mühüm hədəflərindən biridir.

Bununla belə, onlar üçün mənzillər və fərdi evlər, məktəb və xəstəxanalar tikmək üçün, əlbəttə, biz minalardan təmizlənməni aparmalı idik, lakin eyni zamanda, biz məşğulluq haqqında düşünməliyik. Həmin sahələrdə artıq salınmış və salınacaq çoxsaylı sənaye zonaları öz torpağında yaşamaq kimi fundamental hüququndan məhrum olmuş yüz minlərlə insanın sürətli qayıdışına birmənalı dəstək olacaq.

Bakı haqqında danışsaq, bir neçə əlavə məsələni də qeyd edim. Biz ətraf mühit sahəsində çox işləri görməli olduq. Bakı hələ 1846-cı ildə dünyada ilk dəfə neft hasil etmiş şəhər olub və sonra 180 il ərzində demək olar ki, bütün illərdə ətraf mühitin qorunmasına sıfır dərəcə riayət edilib. Beləliklə, Bakı çox çirklənib və Bakının Qara şəhər, Bibiheybət və Böyükşor kimi bəzi hissələri qeyd etsəm, ola bilsin, əcnəbilər üçün bu, bir məna kəsb etmir. Lakin əgər vaxt tapıb həmin yerləri ziyarət etsəniz, bəzi videomateriallara və ya şəkillərə baxsanız, onların 20 il öncə və indi necə göründüyünü başa düşərsiniz və Bakıda ətraf mühitə uyğun məkanın yaradılması üçün görülmüş işləri təsəvvür edərsiniz. Çox çirklənmiş Qara şəhər əvəzinə bu gün şəhərsalmanın nümunəsi olan Ağ şəhəri görə bilərsiniz. Yeri gəlmişkən, o, çirkləndiyinə görə Qara şəhər adlanırdı. Bu, şəhər daxilində bir şəhər idi. Şəhərsalmanın digər təzahürü "Sea Breeze" istirahət məkanıdır və mən müsafirlərimizə, xüsusən də soyuq suda üzməyi sevənlərə oraya getməyi çox tövsiyə edirəm.

Onlardan bəzilərinin burada zalda əyləşdiyini görürəm və bu müasir şəhərsalmanın digər misalını gedib görmək olar. Son 20 il ərzində biz Bakıda 100 park və ictimai yer, bağlar yaratmışıq. Onların 19-u tam yenilənib. İctimai nəqliyyata, mikromobilliyə, metro və elektrik enerjisi ilə işləyən müasir avtobuslara sürətli çıxışı olan və ətraf mühitə uyğun şəhərlər paytaxt və nəinki paytaxt üçün, bütöv konsepsiyanın tərkib hissələri kimi icra olunur.

Söylədiyim kimi, Azərbaycanın bir çox yerlərində şəhərsalma çox sürətli inkişaf edir. Birmənalı olaraq, bu cür mühüm toplantı və BMT-dən olan dostlarımızın, səfərə gələn çoxsaylı qonaqların ekspert bacarıqları bizə daha çox öyrənmək, bir-birimizdən əldə etmək, müsbət təcrübə ilə tanışlıq üçün və həmçinin səhvlərimiz haqqında danışmaqda yardımçı olacaq. Şəhərsalma prosesində çox səhvlər olub və düşünürəm ki, həmin dövr artıq keçmişdə qaldı. Mən vaxtınızı çox almaq istəmirəm.

Mən, həmçinin Bakının bələdçisi kimi danışa bilərəm, lakin düşünürəm ki, sizin üçün onları öz gözünüzlə görsəniz daha yaxşı olar. Mən Bakıda bütün qonaqlara xoş səfər arzu edirəm, Ümumdünya Şəhərsalma Foruma uğurlar diləyirəm. Sağ olun.

*

Sonra BMT-nin Baş katibi Antonio Quterreşin və BMT Baş Assambleyasının prezidenti Annalena Berbokun açılış mərasiminə ünvanladıqları videomüraciətləri nümayiş etdirildi.

BMT-nin Baş katibi müraciətində Ümumdünya Şəhərsalma Forumunun məqsədləri reallığa çevirmək üçün bir təkan olacağını vurğuladı.

BMT Baş Assambleyasının prezidenti Annalena Berbok isə dedi: "Bu tədbir, həmçinin mənzil böhranı ilə bağlı fəaliyyətləri gücləndirmək üçün də imkan yaradır".

*

Daha sonra BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) Assambleyasının prezidenti **Nqa Kor Minq** çıxış edərək dedi:

– Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev.

Zati-aliləri, hörmətli dövlət və hökumət başçıları, hörmətli xanım icraçı direktor, hörmətli nazirlər, merlər və hörmətli nümayəndələr, xanımlar və cənablar.

Mən böyük şərəf hissi ilə tarixi Bakı şəhərində sizin qarşınızda dayanmışam. Burada - qədim İpək Yolunun üzərində və Xəzər dənizinin sahilində yerləşən şəhərdə sizin qarşınızda çıxış edirəm. Mən səmimi salamlarımı Azərbaycan hökumətinə və Azərbaycan xalqına çatdırıram. Bizə göstərilmiş səmimi qonaqpərvərliyə və bu tədbirin keçirilməsinə görə təşəkkürümü bildirirəm.

Mən, həmçinin burada BMT-nin Baş katibi cənab Antonio Quterreş və BMT Baş Assambleyasının prezidenti xanım Annalena Berbokun bizə verdikləri mesajı alqışlayıram. Nəzərə almalıyıq ki, qlobal şəhərsalma gündəliyi heç zaman çoxtərəfli əməkdaşlıq üçün bu qədər mühüm bir əsas kimi götürülməmişdir.

Zati-aliləri, Bakı Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası dövründə dünyanın paytaxtına çevrilir. Bir daha fundamental bir vədi qeyd etməliyik ki, əgər biz şəhərsalmanı inkişaf etdirməsək, öz vədimizi övladlarımız qarşısında yerinə yetirməmiş olacağıq. Beləliklə, bu forumun mövzusu sadəcə bir şüar deyil, bu, bizi tədbirlərin görülməsinə səsləyən bir çağırışdır. Amma icazə verin, bir daha xatırladım, bu



çağırış, tədbirlərin görülməsi real dünyaya və real iqtisadiyyata söykənməlidir. Bu baxımdan biz bütün dünya üçün bu məsələni həll etməliyik və okeanları, dənizləri qət edərək siyasi iradəmizi göstərməliyik. Düzgün siyasət yürütməliyik və bütün vətəndaşlar üçün yaşayış yerlərinin qurulmasına çalışmalıyıq.

BMT-nin Məskunlaşma Proqramının göstəricilərinə görə, qlobal ev şəraitləri böhranı ilə üzləşən insanların sayı 2,9 milyarddır və onlar qeyri-rəsmi yaşayış yerlərində məskunlaşırlar. İki milyard şəhər sakini 2040-cı ilə qədər 0,5 Selsi dərəcəsindən əziyyət çəkəcəklər. Bu, nəinki qeyri-adekvat yaşayış yerləridir, o cümlədən mühüm rəqəmlərdir və onlar bu gün həyat mübarizəsi aparırlar. BMT-nin Məskunlaşma Proqramı Assambleyasının prezidenti kimi mən qeyd edirəm ki, nazirlərin dünən keçirilən görüşündə qeyd olundu ki, Nyu-Yorkda Yeni Şəhərsalma Gündəliyinin orta səviyyədə nəzərdən keçirilməsi üçün yüksəksəviyyəli qeyri-rəsmi görüşə hazırlaşır və onlar da eyni istiqamətdə addımlayaraq oxşar çətinliklərlə üzləşirlər. Bu, bizim ümumi məqsədimizdir və biz ona nail olmalıyıq.

Mən burada sizə söyləməliyəm ki, biz bu mübarizədə tək deyilik. Gəlin, öz səylərimizi iki dəfə artıraq ki, Yeni Şəhərsalma Gündəliyinə və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün yerli səviyyədə işlər görək. Bildiyiniz kimi, bizim Assambleyamız hamı üçün adekvat iş yerlərinin yaradılması baxımından hökumətlərarası işçi qrupunu yaratmışdır. Bu, tarixi bir platformadır ki, çoxtərəfli əməkdaşlıq baş tutsun və qlobal siyasət ilə yerli səviyyədə görülən işlər arasında körpü salınsın.

Zati-aliləri, mən burada Assambleyanın prezidenti kimi qarşınızda çıxış edərək bildirmək istəyirəm ki, şəxsən mənim ölkəmin - Malayziyanın da bu sahədə təcrübəsi var. Malayziyanın getdiyi yol bu gün Yeni Şəhərsalma Gündəliyinə uyğundur və Malayziyanın "Madani" planına tam uyğun gəlir. Biz məhz 1,1 milyon əlçatan evin yaradılmasına, 77 faiz evə sahib olma dərəcəsinə nail olmuşuq. 150 milyon ağac əkərək yaşıllıq hədəflərinə nail olmuşuq və yerli hakimiyyət orqanları könüllü şəkildə yerli səviyyədə 60 faizdən çox tədbirlər görmüşdür. Bu da Dayanıqlı İnkişaf Məqsədlərinə doğru həyata keçirdiyimiz siyasətin müsbət təsirini göstərir.

(ardı 3-cü səhifədə)

# Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının təntənəli açılış mərasimi

*(əvvəli 2-ci səhifədə)*










Zati-aliləri, bu gün mən xüsusi vurğulayıram ki, əgər biz şəhərlərin xəritəsinə baxsaq, ona sırf elə yol və zonalardan ibarət ərazi kimi baxmalı deyilik. Biz burada simaları görürük. Əgər biz görürüksə ki, gənc sahibkar xarabalıqda öz biznesinə başlamaq istəyirsə, dənizin çəkilməsi nəticəsində sahilyanı yerlərdə ailələr risklərlə üzləşirsə, onda hamımız bu öhdəliyi öz üzərimizə götürməli, insanlar üçün doğru şəhərsalmanı həyata keçirməliyik və məhz illik 5,4 trilyon dollar maliyyə boşluğu üzə çıxır. Mən növbəti il Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə bu mandatımı verdiyim zaman sizi dəvət edirəm ki, biz tədbirlər planının həyata keçirilməsinə başlayaq. Bu, iddialı və çox hərtərəfli bir proqram olacaqdır.

Zati-aliləri, hörmətli hökumət başçıları, Azərbaycan ev sahibi olaraq anlayır ki, evin olması əsl dəyərdir və bu, çox mühüm bir məfhumdur. Burada gözəl bir kəlam var: "Hər kəsin öz evi öz qibləsidir". Əsrlər boyu belə olubdur. Özünü evdə hiss etmək – bu, olduqca vacibdir. Bir halda ki, dünya qeyri-sabit vəziyyətlə üzləşir və görürük ki, təsisatlar öz səlahiyyətlərini yerinə yetirmir, yetirə bilmir, texnologiyalar bizim cəmiyyətimizi dəyişir - bu anlarda yadda saxlayın ki, gələcək onu proqnozlaşdıranlara yox, onu quranlara, onu inşa edənlərə məxsusdur və bizim vəzifəmiz gələcək şəhərsalmanın memarlarına kömək etməkdir.

Azərbaycanın daha bir gözəl kəlamı var və bu, bizim işimizə aiddir: "Dama-dama göl olar, axa-axa sel olar". Bir daha gəlin, Azərbaycanın bu müdrik kəlamını özümüz üçün təlimat kimi götürək. Bir halda ki, hər hansı bir siyasət müzakirə oluna bilər, hər hansı bir tərəfdaşlıq formalaşa bilər və hər hansı bir öhdəlik Bakıda formalaşa bilər, bu, ümid çırağıdır. Gəlin, birgə olaraq tədbirləri formalaşdıraq və o, bizi gələcəyə doğru aparacaq, heç kəs və heç bir yer diqqətdən kənarda qalmayacaq.

Mən sizin hamınıza çox məhsuldar və səmərəli forum arzu edirəm. Çox sağ olun.

*

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru **Anaklaudia Rossbax** çıxış edərək dedi:

– Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev.

Zati-aliləri, BMT-nin Məskunlaşma Proqramı Assambleyasının prezidenti Nqa Kor Minq.

Zati-aliləri, hörmətli nazirlər, öz dövlətlərinin və yerli hakimiyyət orqanlarının hörmətli nümayəndələri.

Hörmətli həmkarlar və qonaqlar.

Bütün protokol qaydalarına riayət edirəm. Mən əvvəlcə səmimi-qəlbdən öz fikrimi ifadə edirəm ki, Bakıda çox gözəl bir hava şəraiti yaranıb və biz bundan çox məmnunuq.

Zati-aliləri, biz gələcəyin nə gətirəcəyini bilməyə bilərik, lakin insanların bu gün qarşılaşdığı reallıqları yaxşı bilirik - iqlim böhranı, məcburi köçkünlük, münaqişələr və dağıntılar. Bu çətinliklər fonunda 1 milyarddan çox insan hələ də qeyri-sabit şəraitdə yaşayır - suya, kanalizasiyaya, elektrik enerjisinə, layiqli işə və təhsilə etibarlı çıxışı olmadan, xəstəliklərin yayıldığı və ən çox uşaqların sağlamlıq baxımından əziyyət çəkdiyi əlverişsiz mühitdədir. Bu, insanların böyük əksəriyyətinin yaxın gələcəkdə şəhərlərdə yaşayacağı bir dünyadır. Elə şəhərlər ki, burada bir çox gənclər, yaşlı insanlar, miqrantlar və yeni gələn şəxslər yaşamağa maddi imkan tapa bilməyəcəklər. Elə şəhərlər ki, burada daha çox insan məcbur olub küçələrə və qeyri-rəsmi yaşayış məntəqələrinə çıxacaq. Getdikcə daha çox olanlar və olmayanlar arasında bölünən şəhərlər üzə çıxacaq.

Zati-aliləri, hörmətli həmkarlar. Dünyanın müxtəlif icmalarından və yüksəksəviyyəli liderlərindən ibarət on minlərlə insanın burada - Bakıda bir araya gəlməsi təsadüfi deyil. Məqsədimiz bir mühüm suala cavab tapmaqdır: qeyri-müəyyənlik, qeyri-sabitlik və dağıntılar dövründə hər kəs üçün adekvat mənzili necə təmin etmək olar?

Son günlər Azərbaycanın bəzi bölgələrinə təsir edən güclü yağış və tufanlara baxmayaraq, - Zati-aliləri də bunu xatırlatdı, - biz burada, Bakıda dözümlülük, - biz bunu şəhərə aid edirik, - qətiyyət və ortaq məqsəd hissi ilə bir araya gəlmişik. Bu, reallıqdır, bu gün bir çox şəhərlərdə görünür.

Biz burada komanda halında işi, sürətli reaksiyanı görürük və bizim hamımızı bu gözəl bir məkana topladığınıza görə sizə təşəkkürümüzü bildiririk. Maraq səviyyəsi və iştirak burada müstəsnadır. Bu xarakterli heç bir forum indiyədək bu qədər geniş və müxtəlif qlobal auditoriyanı bir araya gətirməmişdir. Bu isə mənzil və dayanıqlı şəhər inkişafının ortaq gələcəyimizin mərkəzində dayanmasını bizə daha da yaxşı şəkildə göstərir və beləliklə, gəlin, özümüzə xatırladaq ki, biz birlikdə bu yolda sıfırdan başlamırıq.

Bütün regionlarda mənzil məsələsi iqtisadi artım, sosial inklüzivlik və iqlim dayanıqlığı ilə əlaqəli əsas siyasət prioritetinə çevrilir. Afrika boyunca hökumətlər əlçatan mənzil layihələrini, qeyri-rəsmi yaşayış məntəqələrinin yenilənməsini və infrastruktur investisiyalarını inkişaf etdirirlər. Asiya və Sakit okean regionunda bir sıra ölkələr şəhərin yenilənməsi, əlçatanlıq və genişmiqyaslı mənzil tikintisi proqramlarını həyata keçirir. Latın Amerikasında sosial proqramlar var, Yaxın Şərqdə mənzil siyasəti getdikcə daha çox iqtisadi şaxələndirmə və demoqrafik dəyişikliklərlə əlaqələndirilir. Avropada və Şimali Amerikada isə hökumətlər artan şəhər təzyiqlərinə cavab olaraq əlçatan mənzil siyasəti həyata keçirirlər.

Dostlar, dünya diqqətini mənzil məsələsinə yönəltdiyi bir vaxtda artıq paylaşdığımız ortaq prinsipləri və baxışları da özümüzə xatırladırıq. Biz qəbul edirik ki, mənzil böhranı həm də bərabərlik, dayanıqlılıq və insan hüquqları böhranıdır. Şəhərlərimizin gələcəyi istisna üzərində deyil, inklüzivlik üzərində qurulacaqdır. Mənzil sistemləri uğursuz olduqda şəhərlər inkişaf edə bilməz. Biz bilirik ki, insanlar evlərini itirdikdə onlar, sadəcə, divarları və damı deyil, təhlükəsizliyini, dolanışıq imkanlarını və aidiyyət hisslərini də itirirlər. Mənzil hüququnun iqlim dəyişikliyi səbəbindən getdikcə daha çox təhdid altında olduğunu qəbul edərək biz, həmçinin ortaq bir fikri paylaşırıq: iqlim fəaliyyəti və mənzil siyasəti artıq ayrı-ayrı müzakirələr mövzusu ola bilməz. Bərpa mənzildən başlayır, dayanıqlılıq elə evin özündən başlayır. Bu gün tikdiyimiz evlər sabahın iqlim reallıqlarına davam gətirməlidir. Buna görə də biz inanırıq ki, mənzil siyasətdən kənarda deyil, qlobal fəaliyyətin mərkəzində yer almalıdır.

Mənzilin iqtisadi və maliyyə aspektlərini araşdırarkən biz birlikdə qəbul edirik ki, mənzil yalnız sosial zərurət deyil, həm də güclü iqtisadi mühərrikdir. Mənzilin sosial və iqtisadi potensialını reallaşdırmaq üçün möhtəkirliyə deyil, evləri maliyyələşdirən maliyyə sistemlərinə ehtiyac var.

Yeni Şəhərsalma Gündəliyinin aralıq icmalı həm bugünkü şəhər problemlərinin aktuallığını, həm də Kitoda verilmiş öhdəliklərin davamlı əhəmiyyətini təsdiqləməlidir. WUF13 praktiki fəaliyyət, tərəfdaşlıq və investisiyalar vasitəsilə icranı sürətləndirmək üçün bir fürsətdir. Artıq diqqəti həll yollarına yönəltməyin vaxtıdır. Hamı üçün adekvat mənzilə nail olmağın yolları hansılardır? Biz harada səhv etmişik və irəliləyişə nail olmaq üçün nəyin fərqini nəzərə almalıyıq? BMT-nin Məskunlaşma Proqramı qlobal mənzil böhranının həllinə malikdirmi? Qeyri-adekvat mənzil şəraitində yaşayan təxminən 3 milyard insan üçün bütün cavablarımız varmı? Gecəqondularda və qeyri-rəsmi yaşayış məntəqələrində yaşayan 1 milyarddan çox insan üçün nə edə bilərik? Yaxud evsiz vəziyyətdə olan təxminən 300 milyon insan üçün nə edə bilərik? Mən bunu iddia etməyəcəyəm, lakin bunu əlavə etməyə icazə verin. Burada məhz kollektiv səylər onu göstərir. Biz əlbəttə ki, burada bir araya gəlməyimizin vaxtını, xərcini əlavə etməyə cəsarət ediriksə, iqlimə təsiri əsla yüngül qiymətləndirməməliyik. Biz bir-birimizi dinləməli, təcrübəni bölüşməli və addımlar atmalıyıq. Bakı bu ilin iyul ayında keçiriləcək Baş Assambleyanın yüksəksəviyyəli toplantısına aydın bir mesaj göndərmişdir. Biz mənzil böhranını sadəcə tanımaqdan çıxaraq, Dayanıqlı İnkişaf Məqsədlərinə konkret siyasətlər və investisiyalar yatırmalıyıq. Ümid edirəm ki, biz Bakıdan bu inamla ayrılacağıq: bugünkü qlobal çağırışlara baxmayaraq, adekvat mənzil hər kəs üçün istisnasız olaraq əlçatan ola bilər.

Sonda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına ev sahibliyi etdiyinə görə Azərbaycan hökumətinə təşəkkürümü bildirmək istəyirəm.

İndi isə mən məmnuniyyətlə sessiyanı rəsmi olaraq açıq elan edirəm. Sağ olun.

*

Sonra Azərbaycanla bağlı videoçarx nümayiş olundu.

*

Bununla da rəsmi açılış mərasimi başa çatdı.

# Prezident İlham Əliyev BMT-nin Məskunlaşma Proqramının icraçı direktorunu qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbaxı qəbul edib.**



Anaklaudia Rossbax Bakıda BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası ilə bağlı gördüyü işlərin onda dərin təəssürat hissi yaratdığını deyərək, bu mötəbər tədbirin təşkili ilə əlaqədar ölkəmizin tətbiq etdiyi innovativ yanaşmaları alqışladığını vurğuladı, onların sessiyanın daha məzmunlu keçirilməsinə zəmin yaratdığını qeyd etdi. Bütün bunlara görə Azərbaycan tərəfinə minnətdarlıq edən qonaq ölkəmizin bu tədbirə möhtəşəm ev sahibliyi edəcəyinə əminliyini bildirdi.

Anaklaudia Rossbax COP29-un Azərbaycanda yüksək səviyyədə keçirildiyini xatırladaraq, bunun ardınca ölkəmizdə WUF13 kimi tədbirin təşkilinin önəminə toxundu. O, COP və WUF-un BMT sistemində ən böyük tədbirlər hesab olunduğunu deyərək vurğuladı ki, mahiyyəti etibarilə Azərbaycan bu tədbirlər arasında əlaqə yaradıb.

Qonaq ölkəmizin BMT-nin Məskunlaşma Proqramının fəaliyyətinə verdiyi könüllü maliyyə töhfələrini yüksək qiymətləndirdi, Azərbaycan-UN-Habitat əməkdaşlığını, o cümlədən respublikamızda keçirilən Milli Şəhərsalma forumları ənənəsini təqdir etdiyini dedi. O, bundan sonra da əməkdaşlığın uğurla davam edəcəyinə ümidvarlığını bildirdi.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən dövlətimizin başçısı vurğuladı ki, ölkəmiz tərəfindən tədbirin yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri addımlar atılıb. Prezident İlham Əliyev bir neçə gün əvvəl Bakı Olimpiya Stadionunun ərazisində WUF13 ilə bağlı görülən işlərlə yerində tanış olduğunu xatırlatdı, bu tədbirin nəticəyönümlü olacağına ümidvarlığını ifadə etdi.

Dövlətimizin başçısı Azərbaycanın Ümumdünya Şəhərsalma Forumu təcrübəsinin, həmçinin ölkəmizdə şəhərsalma sahəsində tətbiq olunan innovativ yanaşmaların, işğaldan azad edilmiş ərazilərimizdə postmünaqişə şəraitində genişmiqyaslı bərpa və quruculuq işlərinin aparılmasının digər ölkələr üçün də nümunəvi xarakter daşıdığını bildirdi və ölkəmizin bu təcrübəni bölüşməyə hazır olduğunu dedi.

Söhbət zamanı Azərbaycanın BMT-nin Məskunlaşma Proqramının fəaliyyətini dəstəklədiyi məmnunluqla vurğulandı, ölkəmizlə bu qurum arasında əməkdaşlığın perspektivləri ilə bağlı müzakirələr aparıldı.

Görüşdən sonra Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) arasında WUF13 Bakı standartlarına əsasən gələcəkdə keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun sessiyalarına ev sahibliyi üzrə əməliyyat təlimatının birgə hazırlanmasında əməkdaşlıq etmək məqsədilə Niyyət Məktubu imzalandı. Gələcək sessiyalara ev sahibliyi edəcək tərəflərə qərarqəbuletmə prosesinə dəstək olmaq üçün nəzərdə tutulan sənəd Bakıda keçirilən WUF13-ün uğurlu hazırlıq mərhələsinə əsaslanmaqla, növbəti tədbirlərin operativ səmərəliliyini artırmağı hədəfləyir.

# Azərbaycan liderinin Pakistanın Pəncab əyalətinin Baş naziri ilə dialoqu



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Pakistan İslam Respublikasının Pəncab əyalətinin Baş naziri Məryəm Nəvaz Şərifin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Məryəm Nəvaz Şərif atasının - Məhəmməd Nəvaz Şərifin və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Pakistanın Baş nazirinə və Məhəmməd Nəvaz Şərifə çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevlə Məhəmməd Nəvaz Şərif arasındakı dostluq münasibətlərini xatırladı.

WUF13-də iştirak etməkdən məmnun olduğunu söyləyən qonaq buna görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi, tədbirin yüksək səviyyədə təşkil edildiyini və Bakıda şəhərsalma ilə bağlı qlobal məsələlərin müzakirə olunacağını vurğuladı.

Bakının gözəlliyinin onu valeh etdiyini deyən Məryəm Nəvaz Şərif paytaxtımızın mədəniyyət və müasir şəhərsalmanın vəhdətinin gözəl nümunəsi olduğunu qeyd etdi.

Qonaq Bakıya səfəri çərçivəsində müasir Azərbaycanın qurucusu, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdiyini, onun xatirəsini hörmət və ehtiramla andığını dedi.

Söhbət zamanı Azərbaycan ilə Pakistan arasında qardaşlıq münasibətlərinin və strateji əlaqələrin inkişafından məmnunluq ifadə edildi, siyasi, iqtisadi, diplomatik, müdafiə və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu, regionlararası əməkdaşlığın inkişaf etdiyi vurğulandı, ticarət əlaqələrinin daha da genişləndirilməsi üçün böyük perspektivlərin olduğu bildirildi. Azərbaycanın "ASAN xidmət" təcrübəsinə əsasən Pakistanda da mərkəzlərin yaradıldığı qeyd edildi.

Dövlətimizin başçısı bu gün Azərbaycan-Pakistan əlaqələrinin üçtərəfli - Azərbaycan-Türkiyə-Pakistan formatında da inkişaf etdiyini diqqətə çatdırdı.

# Türkmənistanın Arkadağ şəhərinin Tikinti üzrə Dövlət Komitəsinin sədri ilə söhbət



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Türkmənistan Prezidentinin yanında Arkadağ şəhərinin Tikinti üzrə Dövlət Komitəsinin sədri Deryageldi Orazovu qəbul edib.**

Deryageldi Orazov Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkmənistan Xalq Məsləhətinin Sədrinə və Türkmənistan Prezidentinə çatdırmağı xahiş etdi.

Qonaq Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Azərbaycanda keçirilməsi ilə əlaqədar təbriklərini çatdırdı.

Dövlətimizin başçısı Füzulidə Türkmənistan tərəfindən məscidin tikilməsi təşəbbüsünə görə bir daha təşəkkürünü bildirdi və hazırda tikintinin davam etdiyini dedi.

İşğal dövründə həmin ərazilərimizin Ermənistan tərəfindən darmadağın edildiyi, şəhərlərin viran qoyulduğu vurğulandı. Hazırda isə orada genişmiqyaslı bərpa işlərinin aparıldığı bildirildi.

Deryageldi Orazov işğaldan azad edilmiş ərazilərimizə yenidən səfər edəcəyini və layihələrlə yerində tanış olacağını dedi.

# Prezident İlham Əliyev BƏƏ nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Al Mazroueini qəbul edib.**

Qonaq, ilk növbədə, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın və Vitse-prezident, Baş nazir və Dubayın Əmiri Şeyx Məhəmməd bin Rəşid Al Məktumun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şeyx Məhəmməd bin Zayed Al Nəhyana və Şeyx Məhəmməd bin Rəşid Al Məktuma çatdırmağı xahiş etdi.

Suhail Al Mazrouei BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Bakıda keçirilməsi münasibətilə təbriklərini çatdırdı, burada qlobal şəhərsalma gündəliyi ilə bağlı vacib məsələlərin müzakirəsi üçün yaxşı imkanların olduğunu dedi.

Söhbət zamanı strateji tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlərimizin genişləndiyi məmnunluqla qeyd edildi, əməkdaşlığın müxtəlif istiqamətlərdə, həmçinin siyasi, iqtisadi, enerji, o cümlədən bərpaolunan enerji və digər sahələr üzrə inkişafı vurğulandı.

# Dövlət başçısı Esvatini heyəti ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Esvatini Kralı Əlahəzrət III Msvatinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Esvatini Kralı BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında iştiraka dəvətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev 180-dən çox ölkənin nümayəndəsinin iştirak etdiyi bu tədbirin dünyada şəhərsalma sahəsində aktual olan müxtəlif mövzuları müzakirə etmək, həmçinin təcrübə mübadiləsi aparmaq üçün çox yaxşı fürsət olduğunu dedi.

Görüşdə Azərbaycan ilə Esvatini arasında ikitərəfli əlaqələrin inkişafı, o cümlədən enerji, mədən sənayesi və digər sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan və Keniya prezidentlərinin görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Keniya Respublikasının Prezidenti Uillyam Samoei Rutonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Azərbaycana ilk dəfə səfər etdiyini deyən Keniya Prezidenti WUF13-ə dəvətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Uillyam Samoei Ruto WUF-un ilk dəfə Keniyada keçirildiyini deyərək, ölkəsinin BMT-nin Məskunlaşma Proqramına (UN-Habitat) da ev sahibliyi etdiyini vurğuladı. Qonaq Keniyada yaşayış məskənlərinin yaradılması üzrə böyük miqyasda layihələrin həyata keçirildiyini qeyd etdi.

Əlaqələrimizin dinamik surətdə inkişafından məmnunluğunu bildirən Uillyam Samoei Ruto Azərbaycan Prezidentini Keniyaya rəsmi səfərə dəvət etdi.

Dəvəti məmnunluqla qəbul edən dövlətimizin başçısı öz növbəsində Keniya Prezidentini ölkəmizə rəsmi səfərə dəvət etdi.

Keniya Prezidenti Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasında dövlətimizin başçısının nümayiş etdirdiyi liderliyə görə təbriklərini çatdırdı.

Təbriklərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev sülh gündəliyinin daha da gücləndirilməsi və regionda davamlı sülhün yaradılması istiqamətində Azərbaycanın səyləri davam etdirdiyini vurğuladı.

Görüşdə Azərbaycan ilə Keniya arasında enerji, müdafiə sənayesi, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün böyük perspektivlərin olduğu bildirildi, son dövrlərdə müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin həyata keçirilməsinin əlaqələrimizin inkişafında müsbət rolu qeyd edildi.

# Azərbaycan və Serbiya prezidentlərinin əməkdaşlıq müzakirəsi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçlə görüşüb.**

Aleksandar Vuçiç BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının əhəmiyyətini vurğulayaraq, bu tədbirin Bakıda keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi.

Söhbət zamanı Azərbaycan Prezidentinin bu ilin fevralında Serbiyaya rəsmi səfəri məmnunluqla xatırlandı, bu səfər zamanı müzakirə olunmuş məsələlərin həyata keçirilməsi istiqamətində addımların atıldığı vurğulandı.

Dövlət başçılarının səfərlərinin, həmçinin müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin əməkdaşlığımızın genişləndirilməsi işində önəminə toxunuldu.

Siyasi əlaqələrimizin yüksək səviyyədə olduğu bildirilərək, iqtisadi, enerji, investisiyalar, birgə layihələrin icrası və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi üçün yaxşı imkanların mövcudluğu qeyd edildi.

Görüşdə xalqlarımızın yaxınlaşdırılması və turizm potensialımızın möhkəmləndirilməsi baxımından Serbiyanın "Airserbia" şirkətinin Belqrad-Bakı marşrutu üzrə birbaşa uçuşlar həyata keçirməsinin əhəmiyyətinə toxunuldu.

Dövlət başçıları qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi apardılar.

# Azərbaycan və Bolqarıstan prezidentlərinin görüşü



**Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstan Respublikasının Prezidenti İliyana Yotova ilə görüşüb.**

Ali qonaq bu ilin fevralında Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Prezidenti ilə görüşünü və görüş əsnasında aparılmış müzakirələri məmnunluqla xatırladı.

Bolqarıstan Prezidenti hazırda dünyada müharibələrin və münaqişələrin olduğu bir şəraitdə aktual mövzuya həsr olunmuş Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Azərbaycanda keçirilməsini böyük hadisə kimi qiymətləndirdi. Vurğuladı ki, Bolqarıstan bu tədbirdə dövlət başçısı, eyni zamanda, bu ölkənin 10-dan artıq müxtəlif bələdiyyələrinin rəhbərləri, həmçinin Şuşa şəhəri ilə qardaşlaşmış Veliko Tırnovo şəhərinin meri səviyyəsində təmsil olunur.

Qonaq Ümumdünya Şəhərsalma Forumunun sessiyasının dünyada bu sahə ilə bağlı aktual mövzuların müzakirə edildiyi mühüm platforma olduğunu deyərək, tədbirin ölkəmizdə təşkil edilməsi münasibətilə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Prezident İliyana Yotova Azərbaycanla Bolqarıstan arasında enerji sahəsində əməkdaşlığın əhəmiyyətini vurğuladı, bu xüsusda "Həmrəylik Halqası" layihəsinin önəmini qeyd etdi. Mədəni və humanitar əlaqələrə toxunan Bolqarıstan Prezidenti Azərbaycanda bolqar dilinin tədrisini yüksək qiymətləndirdi. O, həmçinin Heydər Əliyev Fondunun Bolqarıstanda həyata keçirdiyi humanitar layihələri, Veliko Tırnovo ilə Şuşa şəhərinin qardaşlaşmasını və bu xüsusda orada Şuşa parkının salındığını qeyd etdi.

İliyana Yotova Heydər Əliyev Fondunun Bolqarıstanda "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun bərpasına göstərdiyi dəstəyə görə bir daha minnətdarlığını bildirdi.

Söhbət zamanı ölkələrimiz arasında səmərəli əməkdaşlığın qarşılıqlı hörmət və etimad əsasında möhkəmləndiyi vurğulandı, enerji, həmçinin elektrik enerjisinin ixracı, kənd təsərrüfatı, turizm və digər sahələrdə əlaqələrin perspektivləri müzakirə olundu.

Azərbaycanla Bolqarıstanın beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığına toxunuldu.

Dövlət başçıları ikitərəfli gündəlikdə duran məsələlərə dair fikir mübadiləsi apardılar.

# Prezident İlham Əliyev Gürcüstanın Baş naziri ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 18-də Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşü olub.**

Dövlətimizin başçısı bu ilin aprelində Gürcüstana dövlət səfərini məmnunluqla xatırladı, bu səfərin münasibətlərimizin möhkəmlənməsi işinə verdiyi töhfəni qeyd etdi. Prezident İlham Əliyev bu gün imzalanacaq sənədlərin əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətinə toxundu.

Qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirən qonaq Azərbaycanda olmaqdan xüsusi məmnunluq hissi keçirdiyini dedi.

Prezident İlham Əliyevə Gürcüstana dövlət səfəri etdiyinə görə minnətdarlığını bildirən İrakli Kobaxidze bu səfərin hər kəsdə dərin təəssüratlar oyatdığını vurğuladı.

Qonaq Azərbaycan ilə Gürcüstanın bir çox ölkələr üçün bağlantılar baxımından vacib rol oynadığını qeyd etdi və gələcəkdə bu istiqamətdə əməkdaşlığın daha da dərinləşdirilməsinin önəminə toxundu.

BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Bakıda keçirilməsi ilə əlaqədar Azərbaycan Prezidentini təbrik edən İrakli Kobaxidze tədbirin dünya şəhərsalma gündəliyini müzakirə etmək üçün yaxşı platforma olduğunu dedi.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

Görüşdə ölkələrimiz arasında mehriban qonşuluq və dostluğa əsaslanan münasibətlərin bir çox istiqamət üzrə dinamik inkişafına toxunuldu, ikitərəfli gündəliyimizin çox geniş olduğu qeyd edildi. Siyasi, iqtisadi-ticari, enerji, nəqliyyat, logistika, sərmayələr və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu bildirildi. Müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin əlaqələrin möhkəmlənməsində rolu vurğulandı.

Sonra Prezident İlham Əliyevin və Baş nazir İrakli Kobaxidzenin iştirakı ilə Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında təbii qazın Gürcüstana təchizatı barədə Saziş, Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında Gürcüstana elektrik enerjisinin təchizatı və elektrik enerjisinin Gürcüstan ərazisi vasitəsilə tranziti barədə Saziş və "Bakı–Tbilisi–Qars" yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda–Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin reabilitasiyası, rekonstruksiyası, inşası üzrə Koordinasiya Şurasının 41-ci iclasının Protokolu imzalandı.

# Dövlət başçısı Çin Dövlət Şurasının Baş nazirinin müavinini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Çin Xalq Respublikası Dövlət Şurasının Baş nazirinin müavini Can Quoçini qəbul edib.**

Qonaq, ilk növbədə, Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını Azərbaycan Prezidentinə çatdırdı. O qeyd etdi ki, Si Cinpin Prezident İlham Əliyevi Çinin dostu kimi dəyərləndirir.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Si Cinpinə çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev dedi ki, Çin Xalq Respublikasının Sədrinin onu Çinin daimi dostu adlandırmasını yüksək qiymətləndirir.

Can Quoçin BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında qlobal urbanizasiya gündəliyi ilə bağlı aktual mövzuların müzakirə edildiyini bildirdi, tədbirdə iştirak etməkdən şərəf hissi duyduğunu dedi və ölkəsində bu foruma mühüm əhəmiyyət verildiyini vurğuladı. O, ölkəmizin belə bir mötəbər tədbirə ev sahibliyi etməsi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. Qonaq, həmçinin forumun açılış mərasimində Azərbaycan Prezidentinin çıxışının çox məzmunlu olduğunu dedi.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Çinin bu tədbirdə yüksəksəviyyəli nümayəndə heyəti ilə təmsil olunmasını Azərbaycana hörmət və dostluq əlaməti kimi qiymətləndirdi.

Azərbaycan-Çin əlaqələrində sürətli artımı məmnunluqla qeyd edən qonaq dövlət başçılarının görüşlərini xatırladı, münasibətlərimizin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə çatdığını dedi.

O, Çinin Tayvan regionu ilə əlaqədar Azərbaycanın qətiyyətli mövqeyinə görə təşəkkürünü bildirdi. Çinin də Azərbaycanın müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü daim dəstəklədiyini vurğuladı.

Can Quoçin qeyd etdi ki, Çin Azərbaycanın xalqın maraqları əsasında seçdiyi inkişaf yolunu dəstəkləyir.

Prezident İlham Əliyev Çinə dövlət səfərini məmnunluqla xatırladı və göstərilmiş qonaqpərvərliyə görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı bu səfər zamanı imzalanmış hərtərəfli strateji tərəfdaşlıq sənədinin önəmini qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın vaxtilə separatizmdən əziyyət çəkən ölkə kimi separatizmin bütün forma və təzahürlərini pislədiyini vurğuladı. Dövlətimizin başçısı qeyd etdi ki, ölkəmiz Çinin Tayvan regionunda keçirilmiş qanunsuz seçkiləri nəinki tanımayıb, hətta onun pislənilməsi bəyanatı ilə çıxış edən yeganə dövlətlərdən biri olub. Prezident İlham Əliyev bu xüsusda vurğuladı ki, Azərbaycan "vahid Çin" siyasətini daim dəstəkləyir.

Söhbət zamanı müxtəlif sahələri əhatə edən Azərbaycan-Çin münasibətlərinin uğurlu inkişafı vurğulandı.

Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyası arasında əlaqələr qeyd olundu, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdiyi vurğulandı. Azərbaycanla Çin arasında iqtisadi-ticari əlaqələrin genişlənməsindən məmnunluq ifadə olundu, siyasi, iqtisadi, tranzit, nəqliyyat, yükdaşımalar, hərbi-texniki tərəfdaşlıq və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyevin Özbəkistan Prezidenti Şavkat Mirziyoyevlə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşüb.**

Dövlətimizin başçısı Şavkat Mirziyoyevə Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında iştirak etdiyinə görə minnətdarlığını bildirdi və qeyd etdi ki, Özbəkistan Prezidentinin burada olması dövlətlərimiz və xalqlarımız arasında qardaşlıq və dostluq əlaqələrinin göstəricisidir.

Şavkat Mirziyoyevlə görüşlərini xatırladan Prezident İlham Əliyev bu görüşlər əsnasında müzakirə olunmuş layihələrin həyata keçirildiyini dedi.

Dövlətimizin başçısı Bakıda Özbəkistan parkının inşasını da qeyd etdi.

Dost və qardaş Azərbaycanda olmaqdan məmnunluğunu bildirən Şavkat Mirziyoyev BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Bakıda keçirilməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi, bu tədbirin şəhərsalma mövzusuna həsr olunan mühüm qlobal məsələlərin müzakirəsinə imkan yaratdığını vurğuladı və dəvətə görə təşəkkür etdi.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Ölkəmizə hər səfərində inkişafın şahidi olduğu deyən Özbəkistan Prezidenti Azərbaycanın Qarabağda yeni şəhərlər və kəndlər saldığını məmnunluqla vurğuladı və bunu Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılmış uğurlar kimi qiymətləndirdi.

Şavkat Mirziyoyev dedi ki, dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizin qazandığı uğurlar, Vətən müharibəsində qazanılan Qələbə Prezident İlham Əliyevin səylərinin və Vətənə, xalqa sevgisinin nəticəsidir.

Xoş sözlərə görə təşəkkür edən dövlətimizin başçısı Qarabağın bərpasında Özbəkistan Prezidentinin göstərdiyi dəstəyi qeyd etdi. Bu xüsusda vurğulandı ki, Füzulidə Özbəkistan tərəfindən inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb Qarabağın bərpası prosesində ilk hədiyyə olub. Prezident İlham Əliyev bunu qardaşlığın, dəstəyin və həmrəyliyin təcəssümü kimi qiymətləndirdi.

Söhbət zamanı Azərbaycan Prezidentinin Özbəkistana, Özbəkistan Prezidentinin isə ölkəmizə səfərləri, həmçinin görüşləri məmnunluqla xatırlandı.

Dövlət başçılarının verdikləri tapşırıqlara uyğun olaraq iki ölkə arasında həyata keçirilən iqtisadi layihələr bir daha nəzərdən keçirildi, onların icrasından məmnunluq ifadə olundu. Bu xüsusda energetika, mədən sənayesi, kənd təsərrüfatı, maşınqayırma sənayesi, əczaçılıq və digər sahələrdə olan layihələrə toxunuldu.

Ölkələrimiz arasında əlaqələrin strateji müttəfiqlik xarakteri daşıdığı vurğulanaraq, bütün sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyi məmnunluqla qeyd olundu.

***AZƏRTAC***

# Azərbaycan və Qazaxıstan liderlərinin telefon danışığı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə zəng edib.**

Dövlətimizin başçısı Prezident Kasım-Jomart Tokayevi ad günü münasibətilə təbrik edib, ona möhkəm cansağlığı, fəaliyyətində uğurlar, qardaş Qazaxıstan xalqına daim rifah və tərəqqi arzulayıb.

Qazaxıstan Prezidenti göstərilən diqqətə və səmimi təbriklərə görə minnətdarlığını bildirib.

Telefon danışığı zamanı Azərbaycan ilə Qazaxıstan arasında dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi vurğulanıb, əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Dövlət başçıları, həmçinin mayın 15-də qədim Türküstan şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünü məmnunluqla xatırlayıb, həmin tədbirin Türk dünyasında həmrəyliyin və çoxtərəfli əməkdaşlığın gücləndirilməsi baxımından önəmini qeyd ediblər.

***Prezidentin Mətbuat Xidməti***

# Qazaxıstanın Xalq yazıçısı Oljas Süleymenova

**Hörmətli Oljas Süleymenov!**

Sizi – müasir ədəbi fikrin görkəmli nümayəndəsini və tanınmış ictimai xadimi 90 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Sizə möhkəm cansağlığı və çoxşaxəli fəaliyyətinizdə uğurlar arzulayıram.

Böyük şair, publisist, ədəbiyyatşünas və tədqiqatçı olaraq Siz türk dünyasının fitri bədii istedada malik qüdrətli simalarındansınız. Yüksək vətəndaşlıq amalı özünün ənənələrə bağlılığı və dərin koloriti ilə seçilən yaradıcılığınızı geniş oxucu auditoriyasına daim sevdirmişdir. Planetar düşüncənin məhz milli dəyərlər əsasında formalaşdığına inanaraq meydana gətirdiyiniz hər yeni əsər mədəniyyət hadisəsinə çevrilmişdir. Parlaq ədəbi şəxsiyyət kimi zəngin ömür yolunuz vətənə və xalqa təmənnasız xidmətin nümunəsidir.

Ötən əsrin 80-ci illərindən etibarən ictimai-siyasi həyat meydanındakı coşqun fəaliyyətinizi həmişə məmnunluqla xatırlayırıq. Azərbaycanın haqq işini hər addımda ürəkdən dəstəkləməyiniz və Qələbəmizi bütün türk dünyasının tarixi nailiyyəti hesab etməyiniz bizə mənəvi güc verir.

Türk xalqları arasında həmrəyliyin möhkəmləndirilməsinə və qarşılıqlı humanitar əlaqələrin genişləndirilməsinə töhfələriniz danılmazdır. Ölkəmizə münasibətiniz bizim üçün dostluq və qardaşlığın həqiqi meyarıdır.

Əminəm ki, yaratdığınız irs gələcək nəsillərin ortaq keçmişimizə və mədəni-mənəvi sərvətlərimizə ehtiram ruhunda tərbiyəsi baxımından bundan sonra da xüsusi əhəmiyyət kəsb edəcəkdir.

Ən xoş arzularla,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 may 2026-cı il**

# WUF13-də iştirak edən dövlət başçılarının və nümayəndə heyətlərinin şərəfinə rəsmi ziyafət verilib



**Mayın 18-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında iştirak edən dövlət başçılarının və nümayəndə heyətlərinin şərəfinə rəsmi ziyafət verilib.**

# Baş nazir Əli Əsədov WUF13-ün açılış mərasimi çərçivəsində bir sıra görüşlər keçirib















**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 18-də Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) açılış mərasimi çərçivəsində Esvatini Kralı Əlahəzrət III Msvati, Mavriki Respublikasının Prezidenti Daramber Qoxul, Gürcüstanın Baş naziri İrakli Kobaxidze, Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenov, Zimbabve Respublikasının Vitse-prezidenti Konstantino Çivenqa, Ukrayna Baş nazirinin müavini Oleksiy Kuleba və Slovakiya Respublikası Baş nazirinin müavini Tomaş Taraba ilə ikitərəfli görüşlər keçirib.**

**Bu barədə Nazirlər Kabinetindən məlumat verilib.**

***XQ***

# Vilayət Eyvazov gürcüstanlı həmkarı ilə görüşüb

**Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun dəvəti ilə Gürcüstanın daxili işlər naziri Sulxan Tamazaşvili və onun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.**



Mayın 18-də Sulxan Tamazaşvili və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla anıblar. Dost ölkənin təmsilçiləri Şəhidlər xiyabanını da ziyarət edib, "Əbədi məşəl" kompleksinin önünə əklil qoyaraq şəhidlərə ehtiramlarını bildiriblər.

Həmin gün Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov gürcüstanlı həmkarı və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Qonaqları salamlayan V.Eyvazov daxili işlər naziri vəzifəsinə təyin olunması münasibətilə S.Tamazaşvilini təbrik edib, dəvətini qəbul edərək rəsmi səfərə gəldiyinə görə təşəkkürünü bildirib.

O, iki ölkənin Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığın yüksək səviyyədə olduğunu məmnunluqla vurğulayıb, ötən illər ərzində imzalanmış sənədlərin işgüzar mühitin formalaşmasına əlverişli şərait yaratdığı, bunun informasiya mübadiləsində özünü göstərdiyi, transmilli cinayətkarlığın bütün növləri, o cümlədən kibercinayətkarlıqla mübarizə sahəsində səmərəli əməkdaşlığın xalqlarımızın mənafelərinə, bölgədə təhlükəsizliyə xidmət etdiyi qeyd olunub.

Qonaq səmimi qəbula, ətraflı məlumata və göstərilən qonaqpərvərliyə görə təşəkkür edib, Azərbaycanın sürətli inkişafından, ölkəmizdə mövcud sabitlikdən, Bakının dünyanın təhlükəsiz şəhərlərindən biri olmasından məmnunluğunu ifadə edib.

Səfər çərçivəsində qonaqlar DİN-in Daxili Qoşunlarının Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsinə baş çəkərək fəaliyyəti ilə tanış olublar.

***XQ***

# Serbiya Prezidenti: WUF13 Prezident İlham Əliyevin ideya və həll yollarını dinləmək üçün yaxşı imkandır

**Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) dayanıqlı şəhərlərin gələcəyinin formalaşdırılmasında mühüm rol oynadığını bəyan edib.**



Prezident Aleksandar Vuçiç AZƏRTAC-a eksklüziv açıqlamasında bildirib ki, WUF13-ün əhəmiyyəti yalnız tədbirin özündə deyil, həm də müxtəlif ölkələrdən liderlərin bir araya gələrək fikir mübadiləsi aparmasındadır.

"Azərbaycan bu tədbirə ev sahibliyi edir və bu, Prezident İlham Əliyevin ideya və həll yollarını dinləmək üçün yaxşı imkandır. Eyni zamanda, digər Prezident və Baş nazirlərlə də müxtəlif təcrübə və baxışların mübadiləsi aparılır", - deyə Prezident Aleksandar Vuçiç bildirib.

Serbiya Prezidenti Azərbaycan Prezidenti İlham Əliyevlə bu gün keçirdiyi görüşdən məmnun qaldığını və WUF13 çərçivəsində yeni təcrübələr əldə edəcəklərinə inandığını vurğulayıb.

"Düşünürəm ki, burada öyrənəcəyimiz bir çox məsələləri Serbiyada tətbiq edə və insanlarımız üçün faydalı nəticələr əldə edə biləcəyik", – deyə Aleksandar Vuçiç əlavə edib.

# WUF13-ün ilk günü nazirlər görüşü, bayraq qaldırma mərasimi və Assambleya sessiyaları ilə yadda qalıb



**Mayın 17-də Bakı şəhərində təşkil olunan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) işə başlayıb.**

WUF13-ün ilk günündə Azərbaycanın sədrliyi ilə keçirilən və yeni təşəbbüs kimi irəli sürülən Yeni Şəhərsalma Gündəliyinə həsr olunmuş nazirlər səviyyəsində keçirilən görüşdə 100-dən çox ölkənin nümayəndələri iştirak edib.

Spikerlər Azərbaycan hökumətinə göstərilən səmimi qonaqpərvərliyə, həmçinin 182 ölkədən 40 mindən artıq iştirakçını bir araya gətirən WUF13-ün Bakıda yüksək səviyyədə təşkilinə görə minnətdarlıqlarını ifadə ediblər. Eyni zamanda, onlar layiqli mənzil təminatı və dayanıqlı şəhərsalma sahəsində beynəlxalq əməkdaşlığın təşviqi məqsədilə bu mühüm platformanın yaradılmasında Prezident İlham Əliyevin rəhbərliyini, eləcə də UN-Habitat və təşkilatın icraçı direktoru Anaklaudia Rossbaxın səylərini yüksək qiymətləndiriblər.

Spikerlər müharibə, münaqişə və fəlakətlərin şəhərlərə, mənzil fonduna, infrastruktura və əsas xidmətlərə təsirini, eləcə də bunun yaratdığı məcburi köçkünlük və humanitar problemləri diqqətə çatdırıblar. Azərbaycanın postmünaqişə bərpa təcrübəsi müsbət nümunə kimi dəyərləndirilib və oxşar vəziyyətlərdə tətbiq oluna biləcək model kimi qeyd edilib.

Bu günün ən diqqətçəkən və simvolik hadisələrindən biri Birləşmiş Millətlər Təşkilatının və Azərbaycan Respublikasının dövlət bayraqlarının qaldırılması mərasimi olub. Mərasimdə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri və WUF13-ün milli koordinatoru Anar Quliyev və BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax iştirak ediblər.

Forumun ilk günü, həmçinin fərqli mövzularda keçirilən assambleyaların birgə açılış sessiyaları ilə yadda qalıb. Sözügedən Assambleya sessiyaları sırasında Qadınlar Assambleyası, Yerli və regional hökumətlərin ümumdünya Assambleyası, İcma birliklərinin və vətəndaş cəmiyyəti təşkilatlarının Assambleyası, eləcə də Biznes Assambleyası yer alıb.





Çıxışlarda əsas vurğulanan məqamlardan biri mənzil məsələsinin ayrı-ayrılıqda deyil, digər sahələrlə əlaqəli şəkildə həll olunmasının vacibliyi olub. Spikerlər mənzil siyasətinin torpaq idarəçiliyi, infrastruktur, nəqliyyat, xidmətlər, məşğulluq, ictimai məkanlar, iqlim fəaliyyəti və yerli iqtisadi inkişafla əlaqələndirilməsinin əhəmiyyətini qeyd ediblər.

Keçirilən əlavə tədbirlər sırasında BMT-nin Məskunlaşma Proqramı, Qlobal Su Operatorların Tərəfdaşlıq Alyansı (GWOPA) və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin birgə təşkil etdiyi "Global Water Operators' Partnerships Alliance" Assambleyası da yer alır. Hər iki ildən bir keçirilən GWOPA Assambleyası ilk dəfə Ümumdünya Şəhərsalma Forumu çərçivəsində təşkil olunub.

***XQ***

# Azərbaycanın şəhərsalma təcrübəsi qlobal önəm daşıyır




**Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası dünyanın müxtəlif ölkələrindən siyasiləri, şəhər rəhbərlərini, urbanizasiya üzrə ekspertləri və beynəlxalq təşkilat nümayəndələrini bir araya gətirib. Tədbirdə iştirak edən Ukraynanın Poltava vilayətinin Kremençuk şəhərinin meri Vitali Maletski XQ-yə eksklüziv müsahibəsində şəhərlərin qlobal çağırışlara adaptasiyası, beynəlxalq əməkdaşlığın vacibliyi və Bakı forumunun mükəmməl təşkili barədə danışdı.**

**– Cənab Maletski, əvvəlcə WUF13 forumu barədə ümumi fikirlərinizi bölüşərdiniz. Bu platformanın əsas əhəmiyyətini nədə görürsünüz?**

– Hesab edirəm ki, WUF13 kimi beynəlxalq platformalar müasir dövrdə çox böyük əhəmiyyət daşıyır. Çünki bu gün şəhərlər təkcə yerli problemlərlə deyil, qlobal çağırışlarla da üz-üzədir. İqlim dəyişikliyi, urbanizasiyanın sürətlənməsi, əhalinin artımı, infrastrukturun yenilənməsi və sosial xidmətlərin təkmilləşdirilməsi kimi məsələlər artıq bütün dünya şəhərləri üçün ortaq mövzulardır. Belə forumlar isə şəhər rəhbərlərinə və ekspertlərə bir masa arxasında toplaşaraq fikir mübadiləsi aparmaq imkanı yaradır. Burada müxtəlif ölkələrin təcrübələrini öyrənir, yeni yanaşmalarla tanış olur və gələcək əməkdaşlıqlar üçün əlaqələr qururuq. Mən hesab edirəm ki, şəhərlərin uğurlu inkişafı yalnız təcrübə paylaşımı və beynəlxalq əməkdaşlıq sayəsində mümkündür. Forum çərçivəsində keçirilən panel müzakirələri də çox faydalıdır və aktual problemlərin həlli istiqamətində mühüm mesajlar verir.

**– Forumda daha çox hansı mövzular diqqətinizi çəkdi?**

– Ən çox diqqətimi çəkən mövzulardan biri "ağıllı şəhər" texnologiyalarının tətbiqi oldu. Bu gün texnologiyalar şəhərlərin idarə edilməsində mühüm rol oynayır. Rəqəmsal həllər nəqliyyat sistemlərinin idarə olunmasından tutmuş kommunal xidmətlərin optimallaşdırılmasına qədər geniş imkanlar yaradır.

Digər vacib mövzu isə ekoloji dayanıqlılıq idi. Müasir şəhərlər yalnız iqtisadi deyil, ekoloji baxımdan da inkişaf etməlidir. Yaşıl zonaların artırılması, alternativ enerji mənbələrinin istifadəsi, tullantıların düzgün idarə olunması gələcəyin əsas istiqamətlərindəndir.

Sosial inklüzivlik məsələləri də forumun mühüm hissələrindən biridir. Şəhərlər bütün insanlar üçün əlçatan və rahat olmalıdır. İnsanyönümlü yanaşma şəhər idarəçiliyində əsas prinsipə çevrilməlidir.

**– Ukrayna şəhərləri hazırda hansı əsas problemlərlə qarşılaşır?**

– Hazırda əsas məqsədimiz şəhərlərin dayanıqlılığını qorumaqdır. İnfrastrukturun yenilənməsi, ictimai xidmətlərin fasiləsiz fəaliyyəti və insanların gündəlik həyat şəraitinin yaxşılaşdırılması prioritet məsələlərdir. Biz çalışırıq ki, şəhərlərimizin inkişafı dayanmasın və müasir standartlara uyğun idarəetmə sistemi qurulsun. Bununla yanaşı, rəqəmsal idarəetməyə keçid üzərində də işləyirik. Elektron xidmətlərin genişləndirilməsi, idarəetmədə şəffaflığın artırılması və vətəndaşlarla daha effektiv kommunikasiya qurulması bizim üçün vacib istiqamətlərdəndir.

**– Sizin fikrinizcə, gələcəyin şəhərləri necə olmalıdır?**

– Hesab edirəm ki, gələcəyin şəhərləri daha ağıllı, daha yaşıl və daha təhlükəsiz olmalıdır. İnsanlar artıq, sadəcə, böyük binalar və geniş yollar deyil, rahat və keyfiyyətli həyat istəyirlər. Buna görə də şəhərsalma siyasəti insan mərkəzli olmalıdır. Gələcəyin şəhərlərində "yaşıl enerji" layihələri geniş tətbiq olunacaq. Günəş və külək enerjisindən istifadə artacaq, ictimai nəqliyyat sistemləri daha ekoloji olacaq. Eyni zamanda, rəqəmsal texnologiyalar gündəlik idarəetmənin əsas hissəsinə çevriləcək.

"Ağıllı şəhər" konsepsiyası gələcəyin əsas modeli olacaq. Bu konsepsiya çərçivəsində nəqliyyat axınının idarə olunması, təhlükəsizlik sistemləri, enerji istifadəsi və digər sahələr texnologiyalar vasitəsilə optimallaşdırılacaq.

**– Bakının WUF13 forumuna ev sahibliyini necə qiymətləndirirsiniz?**

– Azərbaycan forumu çox yüksək səviyyədə təşkil edib. Bakı müasir və sürətlə inkişaf edən şəhər təsiri bağışlayır. Şəhərin infrastrukturu, nəqliyyat sistemi və ümumi şəhər mühiti çox müsbət təəssürat yaradır. Tədbirin təşkilati səviyyəsi də olduqca peşəkardır. Forum iştirakçıları üçün hərtərəfli şərait yaradılıb. Bu, Azərbaycanın beynəlxalq tədbirlərə ev sahibliyi sahəsində böyük təcrübəyə malik olduğunu göstərir.

Mən xüsusilə qeyd etmək istəyirəm ki, burada qonaqlara göstərilən münasibət və qonaqpərvərlik yüksək səviyyədədir. Bu da ölkə haqqında müsbət fikir formalaşdırır. Burada çox səmimi münasibət gördük. Bakı çox gözəl şəhərdir və forum yüksək səviyyədə təşkil olunub. İnanıram ki, WUF13 şəhərlərin gələcəyi ilə bağlı mühüm qərarların və əməkdaşlıqların başlanğıcı olacaq.

**– Beynəlxalq əməkdaşlığın şəhərlərin inkişafında rolu barədə nə deyə bilərsiniz?**

– Müasir dünyada heç bir şəhər təkbaşına bütün problemləri həll edə bilməz. Əməkdaşlıq vacibdir. Şəhərlər bir-birinin təcrübəsindən faydalanmalıdır. Məsələn, hansısa ölkədə uğurla tətbiq olunan bir layihə digər şəhərlər üçün də nümunə ola bilər.

Beynəlxalq platformalar yeni tərəfdaşlıqlar qurmaq üçün də imkan yaradır. Bu, həm iqtisadi, həm sosial, həm də texnoloji inkişaf baxımından böyük üstünlükdür. Mən hesab edirəm ki, gələcəyin inkişaf modeli məhz əməkdaşlıq üzərində qurulacaq.

# WUF13-də "Xalq qəzeti"nin dialoq masası

*Ümumdünya Şəhərsalma Forumu çərçivəsində redaksiyamız yerli idarəetmə və şəhər inkişafı mövzularına həsr olunmuş dialoq masası təşkil edib*

**Müzakirədə Pakistanın müxtəlif bölgələrini təmsil edən bələdiyyə və yerli idarəetmə nümayəndələri iştirak ediblər. Badin Bələdiyyə Komitəsinin meri Pir Muhammed Saleh Qureşi, Bəlucistan Yerli Şuralar Assosiasiyasının prezidenti Mir Abid Hussain Lehri, Sind əyalətinin Sanghar Rayon Şurasının nümayəndəsi Syed Riaz Hussain Shah və Karaçinin Şərq rayonunda yerləşən "Çanesar Town Municipal Corporation"un sədri Farhan Ghani iştirak ediblər.**




Görüşdə müasir dünyada şəhərlərin dayanıqlı inkişafı, rəqəmsal idarəetmə mexanizmləri və "ağıllı şəhər" konsepsiyalarının tətbiqi ətrafında geniş fikir mübadiləsi aparılıb. Qonaqlar sürətlə urbanizasiya edən regionlarda kommunal xidmətlərin idarə olunması, nəqliyyat sistemlərinin modernləşdirilməsi və ekoloji çağırışların həlli istiqamətində təcrübələrini bölüşüblər.

Müzakirələrdə Bakının beynəlxalq tədbirlərə uğurlu ev sahibliyi etməsi xüsusi vurğulanıb. Dialoq masasının iştirakçıları Azərbaycan paytaxtında son illər həyata keçirilən infrastruktur layihələrinin, rəqəmsal xidmətlərin və şəhər planlaşdırılması sahəsində tətbiq olunan innovativ yanaşmaların region ölkələri üçün nümunə sayıldığını bildiriblər. Onlar qeyd ediblər ki, Bakı artıq təkcə regional deyil, beynəlxalq miqyasda da müasir şəhər idarəçiliyi modeli kimi diqqət çəkir.

Dialoq çərçivəsində, həmçinin "World Urban Forum 13" platformasının şəhərlər arasında əməkdaşlığın genişlənməsi baxımından mühüm əhəmiyyət daşıdığı vurğulanıb. İştirakçılar gələcəkdə Azərbaycan və Pakistanın yerli idarəetmə qurumları arasında təcrübə mübadiləsinin artırılması, birgə layihələrin hazırlanması və urbanistika sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində təşəbbüslərin vacibliyini qeyd ediblər.

Görüş qarşılıqlı fikir mübadiləsi və gələcək əməkdaşlıq perspektivlərinin müzakirəsi ilə yekunlaşıb.

***Yusif ŞƏRİFZADƏ,***
***Rauf İBRAHİMOV (foto)***
***XQ***

# Şanxay mükafatı WUF13 sessiyasında təqdim olunacaq

**Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası zamanı BMT-Habitat və Şanxay Xalq Hökumətinin birgə təsis etdiyi "Şəhərlərin dayanıqlı inkişafı üzrə qlobal mükafat (Şanxay mükafatı)" Bakıda ilk dəfə "paralel tədbir + sərgi" formatında təqdim ediləcək. Bu isə dünya şəhərlərinin dayanıqlı inkişaf sahəsində əldə etdikləri praktiki nəticələri, beynəlxalq əməkdaşlığın perspektivlərini yığcam və əyani formada nümayiş etdirməyə imkan yaradacaq.**

## Bakıda ilk təqdimat

Şanxay mükafatının təsis olunmasında məqsəd dayanıqlı inkişaf sahəsində mühüm nailiyyətlər əldə etmiş qabaqcıl şəhərləri mükafatlandırmaq, şəhərlərarası əlaqələri, təcrübə mübadiləsini və çoxtərəfli əməkdaşlığı gücləndirmək, getdikcə daha çox şəhəri Dayanıqlı İnkişaf Məqsədlərinin və Yeni Şəhər Gündəliyinin həyata keçirilməsinə töhfə verən praktiki addımlar atmağa təşviq etmədir.

Mayın 19-da Bakı Olimpiya Stadionunda Ümumdünya Şəhərlər Gününə, eləcə də Şanxay mükafatının təqdimatına həsr olunmuş paralel mərasimlər keçiriləcək. Hər iki məclisin mövzusu "Xoşbəxt və təminatlı həyat: dayanıqlı şəhər gələcəyinin birgə formalaşdırılması" və "Yetərli mənzildən yaşayış üçün rahat icmalara doğru: Şanxay mükafatı laureatı olmuş şəhərlərin dayanıqlı şəhər gələcəyinin təşviqində ən yaxşı təcrübələri" kimi müəyyən olunub. Təqdimatlarda BMT-Habitatın, Çinin Mənzil, Şəhər və Kənd İnşaatı Nazirliyinin rəhbər şəxsləri, eyni zamanda Şanxay, Fuçjou və Şaosin də daxil olmaqla Çin şəhərlərinin nümayəndələri iştirak edəcəklər.



Əvvəlki illərdə mükafata layiq görülmüş şəhərlərin, o cümlədən Kolumbiyanın Boqota, Mərakeşin Aqadir və Koreya Respublikasının İnçxon şəhərlərinin nümayəndələri şəhərlərin dayanıqlı inkişafının təşviqi sahəsində qabaqcıl təcrübə və ən yaxşı praktiki nümunələri diqqət mərkəzinə çəkəcəklər. Bu məclislər qlobal şəhər idarəçiliyi məsələləri üzrə yüksək səviyyəli dialoq platforması yaratmağa, Şanxay mükafatı laureatı olmuş şəhərlərin Dayanıqlı İnkişaf Məqsədlərini konkret yerli fəaliyyətlərə çevirdiyini, təcrübəni necə bölüşdüyünü, əməkdaşlığa və dayanıqlı inkişaf baxışının reallığa çevrilməsinə töhfə verdiyini əyani surətdə nümayiş etdirməyə yönəlib.

Mayın 22-dək açıq olacaq Çin şəhər pavilyonunda Yeni Şəhər Gündəliyinin həyata keçirilməsi və dayanıqlı şəhər inkişafının təşviqi sahəsində həm ümumdövlət, həm də yerli səviyyədə əldə edilmiş təcrübə sistemli şəkildə təqdim olunacaq. Ekspozisiyanın mərkəzində Ümumdünya Şəhərlər Günü, həm də Şanxay mükafatı, "Şanxay təlimatı" və Şanxay indeksi kimi beynəlxalq ictimai məhsullar yer alacaq. Eyni zamanda, Şanxay, Fuçjou, Şaosin və digər şəhərlərin modernləşmə sahəsində nailiyyətləri nümayiş etdiriləcək.

Şanxay mükafatı tematik mübadilələr, konkret keys nümunələrinin təqdimatı və sərgi ekspozisiyaları vasitəsilə Çin şəhərlərinin dayanıqlı inkişafın təşviqi sahəsində apardığı praktiki axtarışları, qlobal əməkdaşlığın nəticələrini beynəlxalq ictimaiyyətə daha geniş şəkildə nümayiş etdirə, öz beynəlxalq təsir imkanlarını genişləndirə və qlobal iştirak səviyyəsini yüksəldə biləcək. Müvafiq tədbirlərdə müxtəlif ölkələrin şəhərləri, beynəlxalq təşkilatlar və fərqli dairələrin nümayəndələri iştirak edərək birgə təcrübə mübadiləsi aparmaq, əməkdaşlığı dərinləşdirmək imkanı əldə etmiş olacaqlar.

## "Dördillik" yekun

Artıq Şanxay mükafatının təsis edilməsindən 4 il ötür. Bu müddət ərzində mükafatın qlobal təsir dairəsi ardıcıl surətdə genişlənmiş, tədbirlərin formatları davamlı olaraq təkmilləşdirilmişdir. 2025-ci ildə ilk dəfə "mükafatlandırma mərasimi + tematik tədbirlər" formatında mexanizm təsis olunmuşdur. Mükafatlandırma mərasimi Ümumdünya Şəhərlər Gününün əsas tədbirinin açılış mərasimi çərçivəsində keçirilmiş, mərasimdə BMT-Habitatın icraçı direktoru, Ümumdünya Şəhərlər Gününün qlobal əsas tədbirinə ev sahibliyi edən ölkənin rəhbərliyinin nümayəndəsi, həmçinin Çin tərəfinin nümayəndələri iştirak etmişlər.

Eyni zamanda, laureat və qısa siyahıya daxil edilmiş şəhərlərin tanınma səviyyəsini artırmaq məqsədilə Ümumdünya Şəhərlər Gününün qlobal əsas tədbiri dövründə Şanxay mükafatı üzrə təşkil olunmuş xüsusi tematik mübadilələr, dayanıqlı şəhər inkişafı praktikasının dərin müzakirəsi üçün dünyanın müxtəlif şəhərlərindən, beynəlxalq təşkilatlardan və işgüzar dairələrdən yüzdən artıq nümayəndəni bir araya gətirmişdir.

## Mükafatın "qlobal" dəyəri

2022-ci il martın 30-da BMT-Habitat İcraiyyə Şurasının birinci sessiyasında Şanxay mükafatının təsis edildiyi rəsmi şəkildə elan olunmuşdur. Həmin andan etibarən Şanxay mükafatının qlobal dostlar dairəsi sürətlə genişlənməyə başlamışdır. Birinci mükafata 16 ölkədən 54 şəhər müraciət etmişdisə, üçüncü dövrə qədər müraciətlərin sayı 33 ölkədən 85 şəhərə qədər yüksəlmişdir. Ümumilikdə, müraciət prosesində artıq 45 ölkədən 160-dan çox şəhər iştirak etmiş, Asiya, Afrika, Latın Amerikası, Avropa və Okeaniyaya qədər geniş coğrafiya əhatə olunmuşdur.

2023-cü ildə birinci Şanxay mükafatının nəticələri Ümumdünya Şəhərlər Gününün Çin üzrə əsas tədbiri çərçivəsində Şanxayda elan edilmişdir. Laureatlar Brisben (Avstraliya), Fuçjou (Çin), Kampala (Uqanda), Penanq adasındakı Corctaun (Malayziya) və Salvador (Braziliya) şəhərləri olmuşdur. 2024-cü ildə ikinci Şanxay mükafatı Ümumdünya Şəhərlər Gününün qlobal əsas tədbiri çərçivəsində İsgəndəriyyədə (Misir) təqdim edilmişdir. Mükafatlara 5 şəhər layiq görülmüşdür: Aqadir (Mərakeş), Trivandrum (Hindistan), Doha (Qətər), İstapalapa (Meksika) və Melburn (Avstraliya). 2025-ci ildə üçüncü Şanxay mükafatının nəticələri Ümumdünya Şəhərlər Gününün qlobal əsas tədbiri çərçivəsində Boqotada (Kolumbiya) yekunlaşmışdır.

Qaliblər sırasında Boqota (Kolumbiya), Əlcəzair (Əlcəzair), İnçxon (Koreya Respublikası), Mədinə (Səudiyyə Ərəbistanı) və Espoo (Finlandiya) xüsusi seçilmişdir. Bu şəhərin yetərli mənzil təminatı, şəhər icmalarının yenilənməsi və iqlim dayanıqlığı sahələri üzrə apardıqları axtarışlar və praktiki işlənmələr dünya şəhərləri üçün real tətbiqi istiqamətlər və mühüm siyasi tövsiyələr təqdim etmişdir.

Xatırladaq ki, BMT-Habitat 4-cü Şanxay mükafatına müraciətlərin qəbuluna bu il martın 17-də rəsmən start vermişdir. Materialların təqdim edilməsi üçün iyunun 12-si son tarixdir. Dayanıqlı İnkişaf Məqsədlərinin təşviqi sahəsində yoxlanıla biləcək nəticələrə malik olan istənilən şəhər müvafiq materialları BMT-Habitatın rəsmi saytı vasitəsilə təqdim edə bilər. Qalib və qısa siyahıya daxil edilmiş şəhərlərin nümayəndələri cari ildə Ümumdünya Şəhərlər Gününün qlobal əsas tədbirinin keçiriləcəyi şəhərə - Fuçjouya gələcəklər.

Oktyabrın 31-də keçiriləcək qlobal əsas mərasim çərçivəsində kuboklar və sertifikatlar təqdim olunacaq. Onların dayanıqlı inkişaf sahəsində qabaqcıl təcrübələri və əldə etdikləri uğurlu təcrübələr, həmçinin Yeni Şəhər Gündəliyi üzrə ən yaxşı təcrübələr bazası və "Şanxay təlimatı" da daxil olmaqla beynəlxalq platformalara daxil ediləcək. Dünya şəhərləri 4-cü Şanxay mükafatında iştirak üçün fəal şəkildə müraciət edə və dayanıqlı gələcəyə ünvanlanmış bu "qlobal dəvətə" birlikdə qoşula bilər.

Gələcəkdə Şanxay mükafatı qlobal tərəfdaşlar dairəsini genişləndirməyə davam edəcək, "Bir kəmər, bir yol" təşəbbüsünün və digər qlobal təşəbbüslərin tərəfdaşı olan ölkələrin şəhərlərinə xüsusi diqqət yetirəcək. Məqsəd dayanıqlı inkişaf konsepsiyalar müstəvisindən praktiki fəaliyyət sahəsinə keçirmək, dünya şəhərlərinin dayanıqlı inkişaf yolunda bir-birindən öyrənməsinə, qarşılıqlı şəkildə təcrübəni zənginləşdirməsinə və birlikdə irəliyə doğru hərəkət etməsinə töhfə verməkdir.

***M.ƏLİYEVA***
***XQ***

# WUF13-ün beynəlxalq önəmi və Bakıdan verilən mesajlar

## *Dünya Şəhərsalma Forumu bəşəriyyətin diqqətini Azərbaycanın memarlıq təşəbbüslərinə yönəldib*

**BMT-nin İnsan Məskunlaşmaları Proqramı tərəfindən təşkil olunan WUF qlobal şəhərsalma gündəliyin formalaşdırıldığı ən nüfuzlu beynəlxalq platformalardan biri hesab olunur. Forumun Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq legitimlik, regional liderlik və yumşaq güc strategiyası baxımından diqqətəlayiq geosiyasi hadisəyə çevrilib.**

XXI əsrin beynəlxalq münasibətlər sistemi getdikcə "şəhərləşən dünya siyasəti" modelinə doğru transformasiya olunur. Çünki iqtisadiyyatın, texnologiyanın, maliyyə axınlarının, innovasiyaların və demoqrafik dinamikanın əsas hissəsi artıq iri şəhərlərdə cəmləşir. Məhz buna görə urbanizasiya milli təhlükəsizlik və qlobal idarəetmə məsələsi kimi qəbul olunur. BMT-nin proqnozlarına əsasən, 2050-ci ilə qədər dünya əhalisinin təxminən 70 faizi şəhərlərdə yaşayacaq. Bu isə beynəlxalq siyasətin gələcək trayektoriyasını dəyişdirir. Mövcud tendensiya dövlətlərin təhlükəsizlik konsepsiyalarına birbaşa təsir göstərir. Çünki gələcəyin əsas siyasi riskləri məhz şəhərlərdə formalaşacaq. Su qıtlığı, enerji çatışmazlığı, iqlim miqrasiyası, sosial bərabərsizlik, rəqəmsal nəzarət, kiberhücumlar və infrastruktur böhranları artıq şəhərlərin idarəolunması məsələsini geosiyasi təhlükəsizlik probleminə çevirir.

Bakıda keçirilən forumun vacib siyasi xüsusiyyətlərindən biri Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi yenidənqurma siyasətini qlobal gündəliklə strateji şəkildə əlaqələndirmək cəhdidir. Burada diqqətçəkən əsas məqam ondan ibarətdir ki, rəsmi Bakı postmünaqişə rekonstruksiyasını beynəlxalq legitimlik, texnoloji modernləşmə və yeni regional düzənin formalaşdırılması kontekstində qlobal model kimi təqdim etməyə çalışır. Əslində, müasir beynəlxalq münasibətlər sistemində müharibədən sonrakı dövr artıq hərbi qələbənin özü qədər əhəmiyyətlidir. "Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının forum çərçivəsində ön plana çıxarılması ilə Bakı postmünaqişə rekonstruksiyasını ənənəvi tikinti və bərpa modelindən çıxarıb texnologiya əsaslı idarəetmə modeli kimi təqdim edir.




Burada xüsusi diqqətçəkən məqamlardan biri Qarabağın beynəlxalq siyasi diskursda təqdimat formasının dəyişdirilməsidir. Uzun illər Qarabağ əsasən münaqişə, işğal və təhlükəsizlik problemi kontekstində müzakirə olunurdu. Bakı isə WUF kimi platformalar vasitəsilə bu narrativi dəyişməyə çalışır. Yeni yanaşmada Qarabağ "münaqişə zonası" deyil, yaşıl enerji, ağıllı urbanizasiya və innovativ idarəetmə məkanı kimi təqdim edilir.

Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin legitimliyi getdikcə daha çox "idarəetmə qabiliyyəti" üzərindən ölçülür. Yəni hansısa ərazidə suverenlik iddiası həmin ərazidə effektiv inkişaf modeli qurmaq bacarığı ilə möhkəmlənir. Forum çərçivəsində verilən əsas mesajlardan biri də odur ki, Azərbaycan postmünaqişə rekonstruksiyasını regional əməkdaşlıq və iqtisadi inteqrasiya platforması kimi görür. Qarabağın nəqliyyat, logistika və yaşıl enerji xəritəsində yeni funksional rol qazanması ideyası məhz bu strategiyanın tərkib hissəsidir.

Qlobal sistemin əvvəlki kimi vahid siyasi mərkəz ətrafında formalaşmaması, böyük güclər arasında rəqabətin sərtləşməsi və beynəlxalq institutların təsir imkanlarının nisbi zəifləməsi yeni diplomatik manevr imkanları yaradıb. Məhz bu şəraitdə Azərbaycan xarici siyasətdə "balanslaşdırıcı diplomatiya" modelini daha açıq şəkildə ön plana çıxarır. Maraqlı odur ki, Azərbaycanın paralel şəkildə həm Qərb institutları, həm də inkişaf etməkdə olan ölkələrlə münasibətləri dərinləşdirir. Bir tərəfdən Bakı BMT strukturları, beynəlxalq maliyyə institutları və Qərb yönümlü iqtisadi layihələrlə əməkdaşlığı davam etdirir, digər tərəfdən isə Qlobal Cənub ölkələri ilə siyasi və iqtisadi əlaqələrini genişləndirir. Belə ikili xətt, əslində, Azərbaycanın dəyişən dünya düzənində özünə çevik geosiyasi mövqe formalaşdırmaq cəhdidir.

Qlobal Şimal ilə Qlobal Cənub arasındakı münasibətlər son illər daha mürəkkəb xarakter almağa başlayıb. İqlim dəyişiklikləri, enerji təhlükəsizliyi, texnologiya bərabərsizliyi və beynəlxalq maliyyə sistemi ətrafında yaranan fikir ayrılıqları inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər arasında siyasi məsafəni artırır. Azərbaycanın bu siyasətində coğrafi mövqeyi də mühüm rol oynayır. Bakı uzun müddətdir ki, özünü "Şərqlə Qərb", "Şimalla Cənub" arasında geosiyasi körpü kimi təqdim edir. Müasir beynəlxalq münasibətlərdə orta güclər birbaşa hərbi rəqabət aparmaq əvəzinə, çoxtərəfli platformalar və diplomatik vasitəçilik üzərindən təsir imkanlarını artırırlar. Azərbaycan da WUF kimi forumlardan istifadə edərək qlobal məsələlərin müzakirə olunduğu siyasi məkan kimi təqdim edir.

XXI əsrdə inkişaf modelləri, texnoloji modernləşmə və dayanıqlı şəhər siyasəti beynəlxalq nüfuzun mühüm elementinə çevrilməyə başlayıb. Çünki qloballaşmanın yeni mərhələsində şəhərlər siyasi identiklik, innovasiya və beynəlxalq legitimlik istehsal edən məkanlara çevriliblər. Ənənəvi olaraq Azərbaycanın yumşaq güc siyasəti daha çox enerji diplomatiyası, multikulturalizm narrativi, beynəlxalq humanitar forumlar və idman tədbirləri üzərində qurulurdu. Xüsusilə "Bakı prosesi", İslam Həmrəyliyi Oyunları, beynəlxalq humanitar forumlar və mədəniyyət diplomatiyası Azərbaycanın beynəlxalq imic siyasətində mühüm rol oynayır.

Şəhərsalma diplomatiyasının əsas mahiyyəti ondan ibarətdir ki, şəhərlər dövlətlərin beynəlxalq münasibətlərinin aktiv aktoruna çevrilirlər. Bu gün London maliyyə və siyasi təsir mərkəzi, Dubay qlobal logistika və innovasiya platforması, Sinqapur texnoloji idarəetmə modeli, Seul rəqəmsal urbanizm nümunəsi, Doha isə diplomatik kommunikasiya məkanı kimi beynəlxalq sistemdə xüsusi status qazanıb. Görünən odur ki, Bakı da məhz bu istiqamətdə yeni mərhələyə daxil olur. WUF vasitəsilə Azərbaycan Bakı şəhərini beynəlxalq urban mərkəz kimi təqdim etməyə çalışır. Əsas məqsəd Bakının qlobal müzakirələrin keçirildiyi siyasi platforma kimi tanınmasına nail olmaqdır. Burada rəqəmsal dövlət idarəçiliyi məsələsi xüsusi diqqət çəkir. Son illər Azərbaycanda dövlət xidmətlərinin rəqəmsallaşdırılması, elektron hökumət sistemlərinin genişləndirilməsi və texnologiya əsaslı idarəetmə mexanizmlərinin tətbiqi istiqamətində aktiv siyasət həyata keçirir. Şəhərsalma diplomatiyasının digər mühüm elementi regional əməkdaşlıq platformalarının formalaşdırılmasıdır. Azərbaycan coğrafi mövqeyindən istifadə edərək "yaşıl enerji", nəqliyyat və rəqəmsal transformasiya, eləcə də şəhərsalma sahələrində regional koordinasiya mərkəzi rolunu gücləndirmək istəyir.

Bakıda keçirilən forum Azərbaycanın enerji siyasətində baş verən strateji transformasiyanın beynəlxalq səviyyədə təqdimatı baxımından xüsusi əhəmiyyət daşıyır. Uzun illər Azərbaycan beynəlxalq sistemdə əsasən neft və qaz ixracatçısı kimi tanınıb və ölkənin geosiyasi çəkisi böyük ölçüdə enerji resursları üzərində formalaşıb. Lakin qlobal enerji bazarında dəyişən tendensiyalar, iqlim siyasətinin beynəlxalq gündəliyin mərkəzinə çıxması və yaşıl



transformasiya prosesinin sürətlənməsi Bakı üçün yeni strateji adaptasiya zərurəti yaradıb. Məhz bu səbəbdən Azərbaycan son illərdə özünü "yaşıl enerji" keçidinin regional iştirakçısı kimi təqdim etməyə çalışır. Dövlətlərin beynəlxalq nüfuzu getdikcə daha çox onların yaşıl texnologiyalara uyğunlaşma səviyyəsi, karbon emissiyalarının azaldılması siyasəti və dayanıqlı inkişaf strategiyası ilə əlaqələndirilir.

Son olaraq qeyd edək ki, Bakı Dünya Şəhərsalma Forumu Azərbaycanın post-neft dövründə diplomatiya, yaşıl transformasiya və çoxtərəfli geosiyasi kommunikasiya vasitəsilə beynəlxalq sistemdə yeni strateji status və identiklik formalaşdırmaq cəhdinin siyasi təzahürü kimi çıxış edir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

---

# "Xilaskar Rusiya" və Ermənistan üçün türk düşmənçiliyi mifi

**(əvvəli 1-ci səhifədə)**

Deməli, Rusiya ictimai rəyində ruslar Ermənistanın, bir növ, xilas bələdçisi kimi təqdim olunur. Platoşkinin bu baxımdan irəli sürdüyü formul təxminən belədir: tarix boyu Qərb ölkələri erməniləri satıblar, yaxud Qərb hayları Türkiyəyə satıb. O Türkiyəyə ki, "erməni qanına susayıb, əlinə düşən ilk fürsətdəcə onlara qarşı soyqırımı reallaşdırıb". Bu sayaq deyimlər Paşinyan iqtidarının Ankara ilə münasibətləri normallaşdırmaq kursunu heçə endirməyə hesablanıb. Politoloq, tarixçi və diplomat Platoşkin isə vəziyyəti bir qədər də dramatikləşdirir.

Haşiyə çıxaq ki, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunu olmuş N.Platoşkin Rusiyanın, belə demək mümkünsə, intellektual imperializm təfəkkürünün daşıyıcıdır. O, 2018-ci ildən aktiv siyasətə qoşulub və "Yeni Sosializm Uğrunda" sol-patriotik hərəkat yaradıb. Bu hərəkat daxilindəki baxışları onu deməyə əsas verir ki, cənab Platoşkin Rusiyada SSRİ-nin dağılmasını mənfi hadisə kimi dəyərləndirənlərin sırasında öndə dayanır.

Əlqərəz, N.Platoşkin tarixə baş vuraraq bildirib ki, bəs 1920-ci ildə bolşevik Rusiyası olmasaydı, Mustafa Kamal Türkiyəsi ermənilərin soyunu qurudacaq, 1915-ci ildə Osmanlı imperiyasındakı "soyqırımı" təkrarlayacaqdı. Sən demə, həmin il daşnaklar Türkiyə ilə yaxınlaşmaq kursu seçib, sonradan peşman olublarmış. Platoşkin o dövrlə indiki zaman arasında paralel aparıb və vurğulayıb ki, hazırda Paşinyan iqtidarı vaxtilə yol verilmiş səhvi təkrarlayır. Yəni, sən demə, daşnaklar hazırkı erməni iqtidarı ilə eyni yolu tutubmuşlar və bunun faciəsini yaşayıblar. Elə isə bəzi məqamları xatırladaq.

* * *

Birincisi, əgər türklərdə ənənəvi hay düşmənçiliyi xətti var idisə, nə üçün 1918-ci ildə Osmanlı Ermənistan Respublikası adlı dövlətin yaranmasına etiraz etməmişdi? Halbuki buna qarşı çıxa bilərdi. Çıxmadı və həmin il imzalanmış Batum müqaviləsi ilə Ermənistanın müstəqilliyini tanıdı. İkincisi, Platoşkin bildirir ki, 1918-1920-ci illərdə heç bir Qərb dövləti Ermənistanın müstəqilliyini tanımamışdı. Onun bu yanaşması qüsurludur. Məsələ ondadır ki, həmin illərdə Qərbin Cənubi Qafqaza, müəyyən mənada, vahid münasibəti olmuşdu. Konkret olaraq, 1920-ci il yanvarın 19-da Parisdə Antanta Ali Şurası tərəfindən Ermənistanın de-fakto tanınması barədə qərar qəbul edilmişdi. Bu qərar Azərbaycan və Gürcüstan üçün də keçərli olmuşdu. Görəsən, niyə de-fakto? Çünki sərhədlər müəyyənləşdirilməmiş, dövlətlərin uzunmüddətli beynəlxalq hüquqi statusu tam formalaşmamışdı. Sonradan isə nə sərhədlər dəqiqləşdi, nə də hüquqi status. Buna rus işğalı imkan vermədi. O işğal ki, çarizm müstəmləkəçiliyinin fərqli şəkildə davamı idi. Görəsən, Platoşkin bunu bilmir? Çox yaxşı bilir, amma ona Rusiyanı təcavüzkar qismində göstərmək sərfəli deyil... Üçüncüsü, 1918-1920-ci illər Ermənistanının Türkiyə ilə yaxınlaşmaq istəməsi qədər absurd tezis ola bilməz. Axı daşnakların antitürk təmayülü qədər aydın heç nə yoxdur. Əlbəttə, həmin daşnaklar da indikilər kimi, böyük torpaqlar iddiasında idilər. Ancaq haqqında söz açdığımız Batum müqaviləsinə əsasən, yalnız kiçik ərazi ilə kifayətlənmək məcburiyyətində qaldılar ki, bu onlarda hiddət doğurdu.



1918-ci ilin sonlarında Osmanlı I Dünya müharibəsində məğlub olandan sonra Ermənistan rəhbərliyi özünün avantürizmini Qərb musiqisinin notlarına köklədi, diqqəti Fransa, Böyük Britaniya, ABŞ kimi Antanta dövlətlərinin təxtibatçı direktivlərinə yönəltdi. Ermənistan Paris Sülh Konfransında "Böyük Ermənistan" layihəsini müdafiə etdi ki, belə bir avantüra özündə Şərqi Anadoluya ərazi iddialarını daşıdı. Elə bu faktın özü Türkiyə ilə uzunmüddətli siyasi yaxınlaşma modelinə uyğun gələ bilməzdi.

Ümumən, 1919–1920-ci illərdə Mustafa Kamal Atatürkün rəhbərliyindəki türk milli hərəkatı ilə Ermənistan arasında münasibətlər qarşıdurma həddinə çatdı. Daşnaklar "Böyük Ermənistan"ı hərbi yolla gerçəkləşdirmək istədilər və ağır məğlubiyyətə uğradılar ki, rüsvayçılıq 1920-ci ilin dekabrında imzalanmış Gümrü (Aleksandropol) müqaviləsində əksini tapdı. Amma özünü həm də tarixçi adlandıran Platoşkin bu məqama fərqli yanaşır. Əvvəldə vurğuladığımız kimi, sən demə, həmin vaxt ruslar olmasaymış, türklər erməniləri məhv edəcəkmiş.

Reallıq isə budur ki, sovet hakimiyyətini qəbul etməyən daşnakların müqavimətinin qırılmasının Türkiyənin əli ilə olması sovet Rusiyasına sərfəli idi. Axı Ermənistanda kommunizmin qurulması nəzərdə tutulurdu. Daşnaklar buna qarşı idilər və onların ərazi hərisliyinin baha başa gəlməsi məhz belə bir şəraitdə baş vermişdi. Nəticədə Aleksandrapol müqaviləsi ilə Ermənistan Qars, Ərdəhan, İğdır və ətraf bölgələr üzərində iddialardan, habelə "Vilson Ermənistanı" layihəsindən imtina etdi. Bu, Ermənistanın Şərqi Anadoluda geniş ərazi iddialarından da geri çəkilməsi demək idi. Üstəlik, sözügedən müqaviləyə əsasən, Ermənistan ordusunun sayı ciddi şəkildə məhdudlaşdırılırdı, onun ağır silahlara sahib olması, ümumən ölkənin Türkiyəyə qarşı düşmənçilik xətti qadağan edildi.

Maraqlı və mühüm məqam budur ki, Aleksandrapol, yəni Gümrü müqaviləsi imzalandıqdan dərhal sonra Ermənistan sovetləşdirildi. Bu səbəbdən sənəd tam ratifikasiya edilmədi, sonradan Moskva və Qars müqavilələri regional sərhədlərin əsas hüquqi bazasına çevrildi. Vurğuladıqlarımız xüsusunda Platoşkinin, guya hazırkı Ermənistanın ikinci ən böyük şəhəri olan Gümrünün türklərdən azad edilməsi iddiası cəfəngiyyatdan başqa bir şey deyil. Çünki Ermənistan Qərbin təhriki ilə Türkiyəyə qarşı müharibə başlatmış, eyni vaxtda rus işğalı ilə üzləşmişdi.

Bəli, güclü tərəf olan Türkiyə Kazım Qarabəkir Paşanın rəhbərliyi altında Gümrüyə daxil olmuş və türk ordusunun İrəvanadək irəliləmək, düşməni mənzilinədək qovmaq məqsədi prioritet seçilmişdi. Bu məqsəd həm də ona görə leqal idi ki, Türkiyə qədim türk yurdu olan İrəvanı azad edir və beləliklə, Osmanlının Batum müqaviləsi ilə yol verdiyi səhvi aradan qaldırırdı. Amma...

"Əmması" dövrün başqa tələblərinin mövcudluğunda idi. Yeni yaranmış sovet Rusiyası ilə Türkiyə məcburi şəkildə xarici qüvvələrə qarşı birləşmişdilər. Belə bir durumda onlar arasında nifaq yarana bilməzdi. Məhz buna görə də Cənubi Qafqazda sovetləşmə tam gücü ilə davam etdi. Sovet Rusiyası, sonra isə SSRİ-nin formalaşması ilə azğın daşnakların yerini hay bolşeviklər tutdular. Bolşevik ermənilər daşnakların mənfur kursunu davam etdirdilər. Birincilərin SSRİ-nin ali rəhbərliyinə təsiri nəticəsində 1969-cu ilin mayınadək Azərbaycan SSR torpaqlarından Ermənistan SSR-ə ərazi hədiyyələri edildi. Yalnız ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərliyə gəlişi ilə bunun qarşısı alındı. Təsadüfi deyil ki, 1988-ci ildə erməni millətçilərinin Qarabağ avantürasına başlamaları da Heydər Əliyevin SSRİ-dəki hakimiyyət olimpindən uzaqlaşdırılmasından sonra yaşandı.

* * *

Əslində, rus imperializmi Qərblə birgə "erməni kartı"nın işə düşməsinə şərait yaratdı ki, bunun zərərini Azərbaycan xalqı ödədi, ölkəmizin torpaqları işğala məruz qaldı, təcavüz 30 ilə yaxın sürdü. Ümumiləşdirmə apararaq isə deyə bilərik ki, Platoşkin kimi imperialist intellektuallar niyəsə 1830-cu ildən sonra ermənilərin Qafqaza köçürülmələrinin məhz çarizmin türk arealını bölmək siyasətinin nəticəsi olduğunu nəzərə almırlar. Heç nədən 1918-ci ildə Ermənistan Respublikası adlı qurama dövlətin yaranmasını da. O dövlət ki, mövcudiyyəti ərzində Azərbaycan Xalq Cümhuriyyətinə qarşı çıxdı. Qərbin erməni planı ilə azğınlaşmış daşnakların Türkiyə tərəfindən sarsıdıcı məğlubiyyət almalarından sonra Ermənistanın sovetləşməsi nəticəsində isə sözügedən plan, sadəcə, əl dəyişdirdi, daşnaklar, faktiki olaraq, bolşevik libasına bürünərək, mənfur xislətlərini davam etdirməyə başladılar. Qarabağ avantürası da eyni ssenarinin tərkib hissəsi oldu.

Sonda bir vacib məqamı da vurğulayaq. 1920-ci ilin Aleksandrapol müqaviləsinə əsasən Türkiyə və Ermənistan diplomatik münasibətlər qurmalı, nəqliyyat və kommunikasiya xətlərini açmalı idilər. Yəni başları əzilmiş daşnaklar məcburən düz yola gəlirdilər. Lakin Qərbin üstünlüyü itirməsi ilə təşəbbüsə yiyələnmiş ruslar buna imkan vermədilər, beləliklə, hayların türk düşmənçiliyi xətti qorundu. Ötən il avqustun 8-də Azərbaycan və Ermənistan arasında Birgə Bəyannamə imzalandı və həmin sənəddə Bakı-İrəvan sülh sazişinin paraflandığı əksini tapdı. Bu gün Qərb nə qədər erməni avantürizmini saxlamağa çalışsa da, onun üçün sülh prioriteti əsasdır. O cümlədən, İrəvanın Ankara ilə münasibətlərinin bərpası.

Amma Rusiyanın Platoşkin kimi tarixçiləri və diplomatları sifətlərinə ağıllı görkəm verib ortaya düşür və var gücləri ilə çalışırlar ki, Ermənistanda türk düşmənçiliyi xəttini seçən revanşist və şovinistlər hakimiyyətə yiyələnsinlər. Yəni həm də Gümrü müqaviləsində vaxtilə nəzərdə tutulmuş kommunikasiyaların açılması müddəası reallaşmasın. Hazırkı Rusiyada sovet Rusiyasının yolunu getmək istəyənlər və Ermənistan cəbhəsində hərəkətə keçənləri unutduqları isə budur: nə Azərbaycan 1918-1920-ci illərdəki Azərbaycandır, nə də indiki Türkiyə o dönəmin Türkiyəsidir.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

# Qlobal şəhərsalma marafonunun 13-cü ünvanı Bakıdır

## *Ümumdünya Forumunun yaranması və inkişaf mərhələləri*

**Birləşmiş Millətlər Təşkilatının (BMT) Məskunlaşma Proqramının (UN-Habitat) 2001-ci ildə təsis etdiyi Ümumdünya Şəhərsalma Forumunun (WUF) ilk konfransı 2002-ci ilin aprel-may aylarında Keniyanın paytaxtı Nayrobidə keçirilib. BMT-nin qlobal urbanizasiya problemlərinə və dayanıqlı inkişafa həsr olunan bu ən nüfuzlu toplantı sonrakı vaxtlarda Barselona (İspaniya), Vankuver (Kanada), Nankin (Çin), Rio-de-Janeyro (Braziliya), Neapol (İtaliya), Medellin (Kolumbiya), Kuala-Lumpur (Malayziya), Əbu-Dabi (BƏƏ), Katovitse (Polşa) və Qahirə (Misir) şəhərlərində təşkil olunub.**

### Dayanıqlı şəhərsalma sahəsində beynəlxalq əməkdaşlıq

Qlobal urbanizasiyanın artdığı şəraitdə şəhərlərin dayanıqlı, inklüziv və təhlükəsiz inkişafını təmin etmək BMT-yə üzv dövlətlərin əsas hədəfinə çevrilib. Ötən illərdə Azərbaycan bu sahədə BMT-nin aparıcı təsisatı olan UN-Habitat Proqramı ilə sıx əməkdaşlıq edərək, qeyd olunan hədəfin reallaşmasına mühüm dəstək göstərib. İşğaldan azad edilmiş ərazilərdə müasir şəhər quruculuğu və bərpa işlərinin BMT-nin "Dayanıqlı inkişaf məqsədləri" təşəbbüsünün prinsipləri əsasında həyata keçirilməsi də sözügedən strategiyanın diqqət mərkəzində saxlanılmasını şərtləndirib.

Prezident İlham Əliyevin BMT-nin UN-Habitat Proqramına vəsait ayrılması haqqında 30 sentyabr 2023-cü il tarixli sərəncamı da mövcud sahədə beynəlxalq siyasətin formalaşdırılmasına mühüm töhfə verib. Bu sənəd, eyni zamanda, hazırda Bakıda keçirilən WUF-un 13-cü Sessiyasında dayanıqlı şəhərsalma ilə bağlı qlobal məsələlərin müzakirəsi və yerli icmaların fikirlərinin nəzərə alınması üçün geniş imkanlar yaradıb.

"Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr olunan bu beynəlxalq konfransın məhz respublikamızda reallaşdırılması ölkəmizin beynəlxalq nüfuzunun güclənməsi, qlobal proseslərdə fəal iştirak etməsi və xüsusilə şəhərsalmanın inkişafı ilə bağlı siyasətin diqqət mərkəzində saxlanılması beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Eyni zamanda, forumun regionda ilk dəfə olaraq Azərbaycanda gerçəkləşdirilməsi ölkəmizin beynəlxalq əməkdaşlıq və müasir şəhərsalma gündəliyində artan rolunun bariz ifadəsidir.

Xatırladaq ki, şəhərlərin davamlı inkişafını əlaqələndirən əsas beynəlxalq platforma olan UN-Habitat BMT sistemində şəhərsalma və yaşayış məskənlərinin inkişafı sahəsində əlaqələndirici mərkəz funksiyasını yerinə yetirir. Təşkilat BMT Baş Assambleyasının 1977-ci il 19 dekabr tarixli qətnaməsi əsasında fəaliyyət göstərir. Baş Assambleyanın 2001-ci il 21 dekabr tarixli qətnaməsi ilə bu qurumun institusional statusu genişləndirilərək proqrama çevrilməsi isə dünyada sosial və ekoloji baxımdan dayanıqlı yaşayış məskənlərinin yaradılması, yoxsulluğun, ayrı-seçkiliyin və bərabərsizliyin azaldılması üçün təhlükəsiz şəhərlərin qurulmasını qarşıya önəmli vəzifə kimi qoyur.

WUF dünya üzrə şəhərsalma sahəsində ən nüfuzlu genişmiqyaslı iştirakçılığa malik platforma hesab olunur. Belə ki, məzmun və əhatə dairəsinə görə bu forum BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransından – COP-dan sonra adıçəkilən nüfuzlu qurumun ikinci ən böyük və ən mühüm beynəlxalq tədbiri sayılır. Qlobal urbanizasiya çağırışlarının müzakirə edildiyi WUF platformasında şəhərlərin gələcəyi, iqlim dəyişiklikləri, yaşayış məskənlərinin inkişafı, "ağıllı şəhər"lər və digər aktual məsələlər əsas müzakirə mövzusuna çevrilir.




BMT-nin UN-Habitat Proqramı ilə respublikamız arasında əməkdaşlıq xüsusilə işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərindən sonra yeni inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycanın düşməndən təmizlənən Qarabağ bölgəsinə səfər edən BMT-nin ilk yüksəksəviyyəli nümayəndəsi xanım Maimuna Mohd Şərif ölkəmizin postmünaqişə dövründə həyata keçirdiyi genişmiqyaslı yenidənqurma və şəhərsalma fəaliyyətini yüksək qiymətləndirib.

Onu da xatırladaq ki, Azərbaycanın son illər UN-Habitat Proqramı çərçivəsində bir sıra mühüm təşəbbüsləri – 2022-ci ildə Bakı və Ağdam şəhərlərində 1-ci, 2023-cü ildə Bakıda və Zəngilanda 2-ci, 2025-ci ildə isə Xankəndi və Bakı şəhərlərində 3-cü milli şəhərsalma forumlarını və Ümumdünya Məskunlaşma Gününü həyata keçirməsi respublikamızı şəhərsalma sahəsində topladığı təcrübənin, tətbiq etdiyi innovativ yanaşmaların və dayanıqlı inkişaf modelinin beynəlxalq platformasına çevirib. Regionda ilk dəfə təşkil edilən bu forumlar şəhərsalma ilə bağlı dolğun və geniş müzakirələrin aparıldığı beynəlxalq platforma kimi yüksək qiymətləndirilib.

Azərbaycan hazırda UN-Habitat Proqramı ilə birgə geniş fəaliyyət strategiyasını – "ağıllı şəhər" konsepsiyasını gerçəkləşdirir. Yeri gəlmişkən, UN-Habitat Assambleyasının 2023-cü il iyunun 5-8-də keçirilən ikinci sessiyasında "BMT-nin "ağıllı şəhər"lər üzrə beynəlxalq təlimat" sənədinin hazırlanması ilə bağlı qəbul edilən qətnamə də qarşıya qoyulan vəzifənin sürətlə reallaşmasına mühüm təsir göstərir.

Qeyd edək ki, adıçəkilən təlimatın hazırlanması məqsədilə yaradılan beynəlxalq ekspertlər qrupuna 24 ölkədən daxil edilən 31 ekspertin ikisi Azərbaycan təmsilçisi – biri Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin nümayəndəsi, digəri isə ADA Universitetinin professoru olub. Həmin beynəlxalq sənədin layihəsi artıq Keniyanın paytaxtı Nayrobi şəhərində keçirilən UN-Habitat Assambleyasının iclasında üzv dövlətlərə təqdim edilib. Belə bir fakt isə Azərbaycanın qlobal şəhərsalma siyasətinin formalaşdırılmasında fəal iştirakı kimi qiymətləndirilib.

Azərbaycanın beynəlxalq şəhərsalma gündəliyində artan rolunun daha bir mühüm göstəricisi ölkəmizin 2025-ci ilin may ayında ilk dəfə UN-Habitat-ın İcraiyyə Şurasına üzv seçilməsi olub. 2025-2029-cu illəri əhatə edən bu üzvlük sayəsində respublikamızın beynəlxalq şəhərsalma siyasətinin formalaşdırılmasında və dayanıqlı inkişaf üzrə qlobal qərarların qəbulunda daha fəal iştirak imkanı yaradılıb. UN-Habitat-ın ali orqanı olan BMT Məskunlaşma Assambleyasının sessiyalararası dövrdə fəaliyyət göstərən əsas qərarverici qurumu sayılan İcraiyyə Şurasında Azərbaycanın təmsil olunması isə beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə göstərilən yüksək etimadın və artan nüfuzun mühüm göstəricisi kimi dəyərləndirilib.

### Bakı təsadüfi seçilməyib

Ötən il oktyabrın 23-də UN-Habitatın Keniyanın Nayrobidə şəhərində yerləşən qərargahında "Hər kəs üçün münasib mənzil" qətnaməsi əsasında yaradılan Açıq Hökumətlərarası İşçi Qrupun ikinci sessiyası keçirilib. Sessiya çərçivəsində ölkəmiz həmin İşçi Qrupun bürosunun 2025-2026-cı illər üzrə həmsədri seçilib. Büronun digər həmsədri isə Somali olub.

Açıq Hökumətlərarası İşçi Qrup təhlükəsiz, dayanıqlı və əlçatan mənzil siyasətinin qlobal səviyyədə təşviqi məqsədilə fəaliyyət göstərir. Qrup, eyni zamanda, UN-Habitat Assambleyasının katibliyi funksiyasını yerinə yetirir, tövsiyələr hazırlayır və üzv dövlətlərin fəaliyyətinin əlaqələndirilməsini gerçəkləşdirir. Azərbaycanın bu platformada həmsədr seçilməsi isə ölkəmizin dayanıqlı şəhərsalma və sosial inkişaf sahəsində qazandığı nüfuzun növbəti göstəricisidir.

Müasir dövrdə şəhərsalma və ətraf mühit gündəlikləri bir-biri ilə sıx bağlı olduğundan, şəhərlərin iqlim dəyişikliklərinə uyğunlaşdırılması, eləcə də bu istiqamətdə dayanıqlı inkişaf məsələləri beynəlxalq müzakirələrin əsas mövzularından birinə çevrilib. Bu səbəbdən COP platformalarında şəhərsalma mövzularına maraq və diqqət ildən-ilə güclənib, həm mərkəzi, həm də yerli hökumətlərdə bu sahədə əməkdaşlığa diqqət artırılıb.

Məhz bu yanaşmanın nəticəsidir ki, UN-Habitatın təşəbbüsü ilə artıq bir neçə ildir ki, COP çərçivəsində xüsusi "Şəhərsalma günü" fəaliyyətə başlayıb. Bu istiqamətdə ilk yüksək səviyyəli nazirlər görüşü COP27 çərçivəsində Misirin Şarm əl-Şeyx şəhərində keçirilib və toplantıda şəhərsalma ilə iqlim siyasətinin əlaqələndirilməsi məsələləri geniş müzakirə olunub. Belə bir əməkdaşlıq xətti COP29 zamanı da davam etdirilib. Azərbaycan tərəfi və UN-Habitat Proqramı rəhbərliyinin tərəfdaşlığı ilə 2024-cü il noyabrın 20-də şəhərsalma və iqlim tədbirlərinin inteqrasiyasına həsr olunmuş nazirlər görüşü reallaşdırılıb.

Yeri gəlmişkən, 2023-cü il dekabrın 22-də Azərbaycan Hökuməti ilə BMT arasında Bakının 2026-cı ildə WUF13-ə ev sahibliyi etməsinə dair saziş imzalanıb. Bu qərar Azərbaycanın beynəlxalq səviyyədə artan nüfuzunun, qlobal təşəbbüslərdə fəal iştirakının və şəhərsalma sahəsində həyata keçirilən siyasətin beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməsinin növbəti təsdiqi kimi dəyərləndirilib.

Azərbaycan artıq COP29 kimi mötəbər beynəlxalq tədbirə uğurla ev sahibliyi edib. Belə tədbirlərin ardıcıl olaraq ölkəmizdə keçirilməsi respublikamızın beynəlxalq aləmdə etibarlı tərəfdaş, dialoq və əməkdaşlıq məkanı olduğunu bir daha nümayiş etdirir. Yüksək səviyyəli beynəlxalq tədbirlərin təşkili sahəsində böyük təcrübəyə malik Azərbaycan bu gün WUF13-ü də ən yüksək səviyyədə gerçəkləşdirir.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Emin QƏRİBLİ,**
**Azərbaycan Dövlət İqtisad Universiteti iqtisadiyyat kafedrasının dosenti, fəlsəfə doktoru**

BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının Bakıda keçirilməsi urbanizasiya, davamlı inkişaf və şəhərlərin rəqəmsal transformasiyası ilə bağlı qlobal problemlərin müzakirəsi üçün əlamətdar tarixi hadisədir. Belə bir miqyaslı beynəlxalq toplantının gerçəkləşdirilməsi Azərbaycanın qlobal səviyyədə mövqeyini gücləndirir və mövcud qlobal proseslərin müzakirəsi üçün platforma kimi ölkəmizə marağı artırır.

Bu gün dünya yeni sənaye inqilabına mühüm keçid dövrünü yaşayır. Rəqəmsallaşma prosesləri sürətlə inkişaf edir, süni intellekt texnologiyaları tətbiq olunur. Bu fonda müasir şəhərsalma və dayanıqlı inkişaf məsələləri xüsusilə aktuallaşır. Eyni zamanda dünyanın bir çox şəhər və yaşayış yerləri artıq müasir tələblərə cavab vermir və bu da şəhər mühitinin modernləşdirilməsi, yeni texnologiyaların tətbiqi və əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılması kimi məsələləri ön plana çıxarır.

Xatırladım ki, ölkəmizdə şəhərsalma fəaliyyəti Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" çərçivəsində dayanıqlı inkişafın əsas strateji istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Ötən müddətdə paytaxt Bakı və ölkənin digər şəhərlərində bu istiqamətdə ardıcıl və məqsədyönlü layihələrin həyata keçirilməsinə daha çox önəm verilib, şəhərsalma sahəsində müasir standartların tətbiqi diqqətdə saxlanılıb.

Bu gün Azərbaycanın şəhərsalma sahəsində ən diqqətçəkən layihələri işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında reallaşdırılır. Həmin ərazilərdə həcminə, keyfiyyətinə və icra sürətinə görə dünya miqyasında presedentsiz hesab olunan kompleks yenidənqurma işləri gerçəkləşdirilir və bununla da dünyaya regionda dayanıqlı şəhərsalma mədəniyyətinin yeni nümunələri təqdim edilir.

Beləliklə, hazırda Bakı təkcə növbəti beynəlxalq tədbirə ev sahibliyi etmir, həm də qlobal şəhərsalma gündəliyinin əsas müzakirə platformasına çevrilir. WUF13 çərçivəsində dayanıqlı şəhərlərin gələcəyi, iqlim dəyişikliklərinin yaratdığı çağırışlar, inklüziv və təhlükəsiz urbanizasiya, müasir şəhər idarəçiliyi, eləcə də yaşayış məskənlərinin inkişafı kimi mühüm mövzular geniş şəkildə müzakirə olunur. Bu müzakirələrlə qlobal şəhərsalma siyasətinin yeni istiqamətlərinin formalaşması daha da sürətlənir. Bu sessiya, eyni zamanda, Azərbaycanın beynəlxalq mövqeyinin daha da möhkəmlənməsi, şəhərsalma sahəsində qazandığı uğurların dünya ictimaiyyətinə təqdim olunması və ölkəmizin dayanıqlı inkişaf gündəliyinə verdiyi töhfənin daha geniş şəkildə nümayiş etdirilməsi baxımından mühüm önəm daşıyır.

**Ümumdünya Şəhərsalma Forumu (World Urban Forum/WUF) şəhərsalma məsələləri üzrə dünyanın önəmli konfransıdır. Belə mühüm tədbir, heç şübhəsiz ki, dünya mediasının da diqqət mərkəzindədir. Beynəlxalq media orqanlarının forumla bağlı yayımladıqları materiallarda ölkəmizin bu mötəbər tədbirə yüksək səviyyədə ev sahibliyi etdiyi vurğulanıb, tədbirin iştirakçı ölkələrin bu sahədə atdıqları addımların təqdim olunması, eləcə də əməkdaşlıqların qurulması və dərinləşdirilməsi baxımından mühüm platforma olduğu qeyd edilib.**

# WUF13 dünya mediasının gündəmində

## *Beynəlxalq ictimaiyyət Bakı Forumunu maraqla izləyir*

**Türkiyənin informasiya agentlikləri, televiziya kanalları, çap mediası və xəbər saytları** WUF13-ü geniş işıqlandırırlar. Qardaş ölkənin media orqanları müzakirələrin əhəmiyyəti barədə çoxmilyonlu auditoriyaya məlumat veriblər. "WUF13 bütün dünyanı Azərbaycanda bir araya gətirib. Bakıda şəhərlərin gələcəyi formalaşır", – deyə Türkiyə mediasında yer alan sərlövhələrdə bildirilir.




Reportaj və məqalələrdə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyevin forumun gündəliyinin və məqsədlərinin təşviqinə ölkənin mümkün töhfəni verməyə hazır olduğunu vurğulayan fikirlərinə yer verilib. Qeyd olunur ki, WUF13 işğaldan azad edilmiş Azərbaycan ərazilərində həyata keçirilən "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasını dünyaya nümayiş etdirmək üçün də imkan yaradır. Xəbər materiallarında bildirilir ki, WUF13 həm də Azərbaycanın təşkilatçılıq imkanlarını dünyaya nümayiş etdirməyə şərait yaradacaq. Eyni zamanda, iki il əvvəl Bakıda BMT-nin digər qlobal tədbiri olan COP29 iqlim sammitinin uğurla keçirildiyi xatırladılır.

Digər qardaş ölkə – Pakistanın **DND informasiya agentliyində, "The Nation", "Daily Times" və "The News"** nəşrlərində dərc olunan məqalələrdə ölkənin WUF13-də nazirlər və digər yüksəkvəzifəli rəsmilərdən ibarət geniş nümayəndə heyəti ilə təmsil olunduğu bildirilib. Xəbərlərdə Pakistanın Pəncab əyalətinin Baş naziri Məryəm Nəvaz Şərifin Pəncabın əlçatan mənzil layihəsini beynəlxalq auditoriyaya təqdim edəcəyi diqqətə çatdırılıb. Eyni zamanda, materiallarda WUF13-ün beynəlxalq əhəmiyyətli platforma olduğu, forumun dünya liderlərini, investorları və şəhərsalma ekspertlərini bir araya gətirdiyi vurğulanıb. Bundan başqa, Azərbaycanın bu mötəbər tədbirə uğurla ev sahibliyi etdiyi, Pakistan nümayəndə heyətinin Bakıda yüksək qonaqpərvərliklə qarşılandığı məmnunluqla bildirilib.

Özbəkistanın **"Kun.uz", "Podrobno.uz", "UzDaily", "UZA", "Gazeta.uz", "Zamin.uz"** nəşrlərində dərc olunan materiallarda WUF13 qlobal urbanizasiya çağırışları, dayanıqlı inkişaf, sosial həyat və mənzil təminatı üzrə mühüm məsələlərin müzakirə edildiyi nüfuzlu beynəlxalq platforma olması əksini tapıb. Eyni zamanda,




Bakının yüksək səviyyədə ev sahibliyi etdiyi bu tədbirin BMT çərçivəsində əməkdaşlıq və şəhərsalma həllərinin müzakirəsi üçün mühüm qlobal dialoq platforması olduğu vurğulanıb. Xəbərlərdə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Bakıya işgüzar səfəri və tədbirdə iştirakı Özbəkistanın beynəlxalq şəhərsalma gündəmində fəal mövqeyini nümayiş etdirən mühüm hadisə kimi qiymətləndirilir.

Çinin **"Sinxua"** agentliyi də WUF13 barədə silsilə məqalələr yayımlayıb. Məqalələrdə WUF13-ün şəhərsalma, əlçatan mənzil və dayanıqlı şəhər inkişafı üzrə mühüm qlobal platforma olduğu qeyd edilib, Bakının müasir infrastruktur, yaşıl məkanlar və tarixi-mədəni irsin harmoniyası fonunda tədbirə yüksək səviyyədə hazırlaşdığı vurğulanıb, Azərbaycanın dayanıqlı şəhərsalma sahəsində uğurlu model formalaşdırdığı oxucuların diqqətinə çatdırılıb. Eyni zamanda, çinli ekspertlərin fikirlərinə yer verilərək, Çinin urbanizasiya və əlçatan mənzil sahəsində təcrübəsinin Azərbaycan və inkişaf etməkdə olan digər ölkələr üçün faydalı nümunə olduğu, WUF13-ün isə Bakı üçün uzunmüddətli şəhər yenilənməsi və beynəlxalq əməkdaşlığın gücləndirilməsi baxımından əhəmiyyət daşıdığı bildirilib.

Rusdilli nəşrlərdə də WUF13 barədə silsilə məqalələr dərc olunub. **"Moscow-baku.ru", "Vestnik Kavkaza"** və digər portallarda dərc olunan yazılarda Azərbaycan hökuməti və UN-Habitat tərəfindən birgə təşkil olunan tədbirdə 180-dən çox ölkədən 40 mindən çox iştirakçının qeydə alındığı vurğulanıb. İlk dəfə olaraq Sessiya çərçivəsində nazirlər görüşü və Liderlər Sammiti seqmentlərinin də təşkil edildiyi diqqətə çatdırılıb. Bakıdakı müzakirələrin əsasən əlçatan mənzil, davamlı urbanizasiya, iqlim dayanıqlığı və "ağıllı şəhər" modellərinə həsr olunduğu, Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurdakı yenidənqurma və yaşıl enerji zonası layihələrini beynəlxalq ictimaiyyətə təqdim etdiyi qeyd olunub.

Fransızdilli **"Lagazetteaz.fr"** nəşrində BMT-Habitatın icraçı direktoru Anaklaudia Rosbaxın WUF13 barədə fikirləri öz əksini tapıb. Məqalədə bu tədbirin şəhərsalma gündəliyi üzrə mühüm beynəlxalq platforma rolunu oynadığı bildirilib. Yazıda, həmçinin Bakının yüksək səviyyədə qəbul etdiyi tədbirin şəhərsalma, dayanıqlı inkişaf və "Hamı üçün mənzil" mövzusu ətrafında dünya miqyasında müzakirələr




üçün əsas məkan olduğu vurğulanıb. Eyni zamanda, WUF13 çərçivəsində nazirlər görüşü və digər formatlar vasitəsilə "Yeni Şəhər Gündəliyi" üzrə siyasi konsensusun formalaşdırılması və gələcək onillik üçün prioritetlərin müəyyənləşdirilməsinin hədəfləndiyi diqqətə çatdırılıb.

Misir mətbuatı da WUF13-ə geniş diqqət ayırıb. Ölkənin **"The Egyptian Gazette", "Youm7", "El Balad", "Vetogate", "Al Dostor", "Al-Usbua", "Al Qarar Al Arabi", "Business News Egypt", "Anbaa Alyoum", "Nile.eg"** və digər nəşrlərində yayımlanan materiallarda Azərbaycanın və BMT-Habitatın birgə təşkil etdiyi WUF13-ün şəhərsalma, dayanıqlı inkişaf və əlçatan mənzil sahəsində qlobal müzakirələr üçün əsas platforma olduğu vurğulanıb. Bakının yüksək səviyyədə ev sahibliyi etdiyi bu mühüm tədbirin "Yeni Şəhər Gündəliyi" ətrafında qlobal siyasi və strateji müzakirələr üçün mühüm beynəlxalq dialoq məkanı olduğu qeyd edilib. Xəbərlərdə Misirin sessiyada öz şəhərsalma təcrübəsini, xüsusilə əlçatan mənzil sahəsindəki nailiyyətlərini beynəlxalq auditoriya ilə bölüşdüyü bildirilib.

Malayziyanın **"Bernama"** agentliyinin, eləcə də **"The Sun"** və **"SABA News"** nəşrlərinin materiallarında qlobal urbanizasiya və dayanıqlı şəhər inkişafı üzrə əsas platforma olan WUF13-ün beynəlxalq şəhərsalma gündəliyinin formalaşmasında mühüm dialoq platforması kimi çıxış etməsinə diqqət çəkilib. Malayziyanın bu sahədə əməkdaşlığın genişləndirilməsinə və sessiyada şəhərsalma sahəsində qlobal təşəbbüslərə dəstək verdiyi vurğulanıb.

Keniyanın **"Saccoreview", "People Daily", "The-star.co.ke", "Capitalfm", "Kenyans.co.ke", "Kenyafrontline.com", "Standardmedia.co.ke"** media qurumları tərəfindən yayımlanan xəbərlərdə ölkə Prezidenti Uillyam Samoei Rutonun bu ölkənin əlçatan mənzil və davamlı şəhər inkişafı sahəsində uğurlarına görə WUF13-ə dəvət olunduğu bildirilib. Qeyd olunub ki, Prezident Ruto WUF13 zamanı Keniya hökumətinin əlçatan mənzil proqramını təqdim etməklə və şəhərsalma layihələri üçün yeni beynəlxalq tərəfdaşlar və investorlar cəlb etməyə çalışacaq. Xəbərlərdə Keniyanın dövlət başçısının Azərbaycan Prezidenti ilə görüşünə də yer verilib.

WUF13 barədə xəbərlər Səudiyyə Ərəbistanı, BƏƏ, Qazaxıstan, Moldova, Tacikistan, Hindistan, İordaniya, İraq, Mozambik və digər ölkələrin media orqanları tərəfindən də geniş işıqlandırılıb.

***Səxavət HƏMİD***
***XQ***

# Danışır WUF13 iştirakçıları

**“Agalarov Development” şirkətinin prezidenti Emin Ağalarov mediaya bildirib ki, Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) COP29-dan sonra Azərbaycan üçün ən əhəmiyyətli beynəlxalq tədbirlərdəndir:**



– Forumda dünyanın hər yerindən on minlərlə iştirakçı, o cümlədən dövlət başçıları, beynəlxalq təşkilatların nümayəndələri və şəhər mütəxəssisləri iştirak edirlər.

Forum şəhərlərin inkişafına və dayanıqlı şəhər mühitinə müasir yanaşmaları nümayiş etdirmək üçün vacib platforma olduğunu sübut edir.

Bizim “Sea Breeze” layihəmiz isə ekoloji cəhətdən təmiz və rahat şəhərlərin necə yaradıldığının parlaq nümunəsidir. Forumda layihəni geniş beynəlxalq auditoriyaya təqdim etmək, baş planı, modelləri və inkişaf konsepsiyasını nümayiş etdirmək imkanı əldə etmişik.

Layihə çərçivəsində artıq bir neçə milyon kvadratmetr daşınmaz əmlak tikilib istifadəyə verilib. 4 milyon kvadratmetr ərazi isə tikilir.

Biz aparıcı beynəlxalq memarlarla işləməyə davam edirik və “Sea Breeze”in gələcək sakinlərinin və qonaqlarının həyatının maksimum dərəcədə rahat olmasını təmin etməyə diqqət yetiririk.

Bir çox liderlər, dövlət başçıları və həmin ölkələrin tikinti sahiblərinin həftə ərzində “Sea Breeze”ə səfəri gözlənilir. Biz onlarla fikir mübadiləsi aparacaq və planlarımız barədə məlumat verəcəyik.

Şirkətimiz yay mövsümü ərəfəsində “Sea Breeze” gəzinti sahələrini genişləndirərək yaşıl məkanların, üzgüçülük hovuzlarının və infrastruktur obyektlərinin sayını artırıb. İnsanların burada özlərini rahat hiss etmələri, yüksəksəviyyəli xidmət almaları, ekoloji cəhətdən təmiz və yaxşı dizayn edilmiş bir mühitdə olmaları bizim üçün çox önəmlidir.



**COP31-in sədri və Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri Murat Kurum:**

– Azərbaycanda keçirilən WUF13 yüksək səviyyədə təşkil olunub. Burada müxtəlif ölkələrin pavilyonlarını gəzdim və məmnun qaldım. Birləşmiş Ərəb Əmirlikləri ilə şəhərsalma sahəsində bir sıra danışıqlar apardıq və görüşlər faydalı keçdi. WUF13-də atılacaq addımları da COP31 çərçivəsində bir daha müzakirə edəcəyik.

Prezidentlərimizin qəbul etdiyi tarixi qərarlar hər iki ölkəni önəmli inkişafa aparır. Güclərimizi daha da artırmağı və birləşdirməyi hədəfləmişik. Eyni zamanda, Azərbaycanla Türkiyə dünyaya da tərəqqi təşəbbüsləri ünvanlayır. Dünyada hələ də elektrik enerjisinə çıxışı olmayan insanlar yaşayır. Bu məsələdə də ortaq bir iradə və mövqe nümayiş etdiririk. İnanırıq ki, Türkiyə və Azərbaycan Türk dünyasının da səsini ucaltmağa və dünyaya duyurmağa çalışır.

COP31-də 196 ölkədən 100 mindən çox qonağın iştirakı gözlənilir.

COP31-in əsas mövzularından biri dayanıqlı və davamlı şəhərlərin inkişafı olacaq. Bu sahədə Azərbaycanın təcrübəsindən yararlanacaq, Bakıda qəbul edilən qərarların COP31 çərçivəsində də tətbiq olunmasına çalışacağıq.

Ölkələrimiz adından COP31 çərçivəsində bu mövzuları daha geniş şəkildə müzakirə edəcəyik. Ən mühüm hədəflərdən biri təmiz enerjidir. Mövcud qlobal böhranlar bu prosesin nə qədər çətin olduğunu göstərir. Bu mənada Azərbaycanın dəstəyi çox əhəmiyyətlidir.

Biz istəyirik ki, COP qərarları sözlərdə qalmasın, davamlı həyata keçirilsin. Dünyada baş verən müəyyən iqlim dəyişmələrinə müsbət təsirimiz olsun.

**Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində keçirilən assambleyalarda səsləndirilən əsas çağırışlar “Bakı Fəaliyyət Çağırışı” sənədinin hazırlanması üçün məsləhətçi qrupa təqdim olunacaq.**



**BMT-nin İnsan Məskənləri Proqramının (UN-Habitat) Azərbaycandakı ofisinin rəhbəri Anna Soave forumun sessiyasında bildirib:** “Assambleyaların yekunları və əsas tezisləri UN-Habitat tərəfindən birbaşa maraqlı tərəflərin rəhbərlik etdiyi məsləhətçi qrupa ötürüləcək. Bu, həlledici əhəmiyyət daşıyır. “Bakı Fəaliyyət Çağırışı” sənədinin ilkin layihəsi artıq UN-Habitatın saytında yerləşdirilib və iştirakçılar öz rəy və təkliflərini təqdim edə bilərlər”.

O vurğulayıb ki, forum çərçivəsində uzun müddət davam edən müzakirə və məsləhətləşmələrin nəticəsi olan assambleyalar WUF13 üçün böyük gözləntilər formalaşdırıb:

“Şəhərlər urbanizasiya və iqlim çağırışlarının ön xəttində yerləşir və bu problemlərin həlli üçün yerli hakimiyyət orqanları, vətəndaş cəmiyyəti, özəl sektor və digər tərəflər arasında daha güclü tərəfdaşlıqlar qurulmalıdır.

Bəzi şəhərlərdə əhali yaşlandığı halda, digərlərində gənclərin payı daha çox olur. Bu isə infrastruktur və xidmətlərə fərqli yanaşmalar tətbiq edilməsini zəruri hala salır. Bütün şəhərlər üçün eyni həll yolu mövcud deyil. Bizə müxtəlif idarəetmə modelləri və urban həllər toplusu lazımdır”.

**WUF13 sessiyası çərçivəsində dayanıqlı və ekoloji məsuliyyətli mənzil sektorunun inkişafı və rəqəmsal texnologiyaların bu sahədə rolu müzakirə edilib.**

**GSMA-nın (Global System for Mobile Communications Association) iqlim texnologiyaları və rəqəmsal kommunal xidmətlər üzrə baş təşviqat rəhbəri Leyla Quiçi bildirib:**



– Forum çərçivəsində bütün panellərdə rəqəmsal texnologiyaların müzakirəyə çıxarılması ümidverici haldır. Rəqəmsal texnologiyalar tikinti materiallarının hazırlanmasından enerji, su və tullantı idarəçiliyinə qədər bütün mərhələlərdə istifadə oluna bilər. Rəqəmsallaşma artıq buradadır. Əsas problem biznes modelinin olmaması deyil, onun yanlış büdcə çərçivəsində qiymətləndirilməsidir.

**Latın Amerikasının Dözümlülük Təcrübəçiləri İcma Platforması Komissiyasının koordinatoru Maite Rodrigez isə deyib:**



– İqlim dəyişmələri şəhərlərimizdə baş verən prosesləri daha aydın şəkildə görməyə imkan verdi. Biz bu müzakirələrdə fəal iştirak etdik və müxtəlif işçi qruplarında öz töhfəmizi verməyə çalışdıq. Onlardan biri qadınlara səlahiyyət verilməsi məsələsi idi. Eyni zamanda, ehtiyatların ayrılması və bu prosesdə ədalətli yanaşmanın təmin olunması da müzakirə edildi. 3 əsas konvensiyaya əsaslanaraq əminik ki, qarşıda hələ çox iş və uzun bir proses var.

Qadınlara maliyyə baxımından səlahiyyət verilməsi, ilk növbədə, onların mülkiyyət hüquqlarının təmin olunması deməkdir.

**Avropa İttifaqının Azərbaycandakı səfiri Mariyana Kuyundziç WUF13 sessiyası ilə bağlı XQ-yə açıqlamasında bildirib:**



– Azərbaycan hökumətinə bu mühüm forumu təşkil etdiyinə görə təşəkkürümü bildirmək istəyirəm. Şəhər mənzil təminatı məsələsinə xüsusi diqqət ayırdığı üçün UN-Habitata təşəkkür edirəm. Forumun iclaslarında bildirildiyi kimi, problem olduqca mürəkkəbdir və biz onun həlli istiqamətində ciddi addımlar atmalıyıq.

Dünya ölkələrinin təmsilçiləri bu problemi müzakirə etmək və həll yolları üzərində işləmək üçün Bakıya toplaşıblar. Avropa İttifaqı da bu istiqamətdə fəal səylər göstərir. İlkin olaraq enerji və mənzil məsələləri üzrə xüsusi komissarımız fəaliyyət göstərir. Əlçatan və səmərəli mənzil təminatı ilə bağlı planımız da mövcuddur. Bu konfransın uğurlu və müsbət nəticələrlə yadda qalacağına inanırıq.

**Orna Rosenfeld, mənzil məsələləri üzrə qlobal məsləhətçi, 2021-ci ilin “Qlobal sosial təsir mükafatı” qalibi:**



– Mən mənzil investisiyası, inklüzivlik və mənzil sistemləri üzrə mütəxəssisəm. Parisdə yaşayıram və 50-dən çox hökumətlə, xüsusilə mənzil, mənzil siyasəti sahələrində çalışıram. Hazırda fəaliyyətim daha çox icraetmə prosesinə və şəhərlərlə işə yönəlib. Mənzil məsələlərinin beynəlxalq müzakirələrin mərkəzinə çıxarılmasının vaxtı çoxdan çatmışdı.

Müzakirələri yüksək səviyyədə təşkil etmək üçün Azərbaycanın seçilməsi özünü tam doğruldur. Prezident İlham Əliyevin dediyi kimi, siz Şərqlə Qərb arasında bir körpüsünüz və bunu memarlıqda da daha aydın görmək mümkündür. Bakıda hər addımda müsbət enerji hiss olunur və şəhərinizlə tanışlıq xoş təəssürat yaradır. Şəhərdə gəzərkən yüksəliş ruhu insanların öz şəhərinə sevgisindən xəbər verir.

**George Bouniccentdir, Portuqaliyanın “Ərazi Baş İdarəsi”nin rəsmisi, memar:**



– Portuqaliyada bizim fəaliyyət sahəmiz və əsas işimiz məktəblər, yaşayış binaları və buna bənzər ictimai binaların layihələndirilməsi və tikintisidir. Bu məsələ dünyada da olduqca vacibdir. Yaşayış məsələsini şəhər gündəliyinin mərkəzinə qoymaq hamımız üçün çox önəmlidir. Mənzil ailələr üçün sadəcə sığınacaq deyil, həm də birlikdə necə yaşaya bilməyimiz məsələsidir.

Buna görə düşünürəm ki, bu forum çox vacibdir. Mən birinci dəfədir ki, Bakıda oluram. İndiyə qədər gördüklərimə əsasən, siz belə problemləri həll etmək üçün düzgün istiqamətdə və yaxşı işləyirsiniz. Həftə ərzində şəhərinizi daha yaxından görüb tanıyacağam. Bu, mənim üçün yeni bir təcrübə olacaq. Mənim üçün başqa şəhərlərin və ölkələrin necə yaşadığını öyrənmək önəmlidir. Çünki dünya bizim ümumi evimizdir və bir-birimizi tanımağımız vacibdir.

## “Urban Expo” sərgisi

“Urban Expo” sərgisində dünyanın müxtəlif ölkələrini təmsil edən stendlərlə ziyarətçilər böyük maraqla tanış olurlar. Müasir şəhərsalma, innovativ texnologiyalar, “yaşıl enerji” və dayanıqlı inkişafla bağlı təqdim olunan layihələr sərgiyə xüsusi zənginlik gətirib. “Urban Expo” sərgisində iştirak edən Qırğızıstan pavilyonu ziyarətçilərin diqqətini özünəməxsus təqdimatı ilə cəlb edir. **Şəhər Tədqiqat Mərkəzinin rəhbəri Yelnar Bazyken bildirdi:**

– Stendimizdə ölkənin milli dəyərlərini, mədəniyyətini və urban inkişaf istiqamətindəki yanaşmalarını əks etdirən müxtəlif məhsullar nümayiş etdirilir. Burada həm Qırğızıstana aid ənənəvi ləzzətlər, həm də milli ornamentlərlə hazırlanmış əl işləri və müxtəlif materiallar var. Pavilyon Qırğızıstanın mədəni irsini və müasir inkişaf yolunu yaxından göstərir. WUF13 çərçivəsində əldə olunan təcrübə də bizim üçün xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın ev sahibliyi etdiyi forum və rəsmi Bakının urban inkişaf modeli iştirakçı ölkələr tərəfindən böyük diqqətlə izlənilir. Bakı son illərdə müasir şəhərsalma, infrastrukturun yenilənməsi və dayanıqlı inkişaf istiqamətində mühüm nümunə formalaşdırıb.

**İordaniyadan senator, parlament üzvü Asiya Yaqi:**



– Müasir şəhərlərin inkişafında əsas prioritetlərdən biri fiziki məhdudiyyətli şəxslər üçün əlçatan və rahat mühitin formalaşdırılmasıdır. Ölkəmizdə bu istiqamətdə geniş layihələr həyata keçirilir və şəhər infrastrukturu hər kəs üçün bərabər imkanlar yaradacaq şəkildə yenidən qurulur. Bu baxımdan Azərbaycanda da bu təcrübədən ən yaxşı şəkildə istifadə edilməsi üçün çalışırıq.

İnklüziv şəhər anlayışı yalnız pandusların və xüsusi keçidlərin yaradılması ilə məhdudlaşmır. Buraya ictimai nəqliyyatın əlçatanlığı, park və istirahət məkanlarının uyğunlaşdırılması, sosial xidmətlərə rahat çıxış imkanlarının təmin olunması, həmçinin rəqəmsal texnologiyaların tətbiqi də daxildir. Məqsəd fiziki məhdudiyyətli insanların cəmiyyət həyatında daha fəal iştirakını təmin etməkdir. Dayanıqlı şəhərlər sosial baxımdan da hər kəsi əhatə etməlidir. Bu istiqamətdə müxtəlif ölkələrin təcrübə mübadiləsi xüsusi əhəmiyyət daşıyır.

**Türkiyəli şəhər planlayıcısı, Zeynep Ongankul:**

– Ölkəmizdə bir neçə il əvvəl baş verən dağıdıcı zəlzələ dayanıqlı şəhərlərin qurulmasının nə qədər vacib olduğunu bir daha göstərdi. Təbii fəlakətin yaratdığı ağır nəticələrdən sonra şəhərsalma siyasətində təhlükəsizlik, davamlılıq və risklərin minimuma endirilməsi bizim üçün prioritet istiqamətlərdən birinə çevrilib. Hazırda



müxtəlif ölkələrin bu sahədəki təcrübəsi diqqətlə araşdırılır və xüsusilə zəlzələyə davamlı infrastrukturun qurulması istiqamətində beynəlxalq əməkdaşlığa böyük önəm veririk. Müasir şəhərlər yalnız estetik və texnoloji baxımdan deyil, eyni zamanda, fövqəladə hallara hazırlıq baxımından da güclü olmalıdır. “Urban Expo” kimi beynəlxalq platformalar ölkələrin təcrübə mübadiləsi aparması üçün mühüm imkan yaradır. Burada təqdim olunan innovativ həllər, “ağıllı şəhər” modelləri və təhlükəsizlik sistemləri gələcəkdə daha dayanıqlı urban mühitin qurulmasına töhfə verə bilər. Xüsusilə seysmik risklərin yüksək olduğu bölgələrdə infrastrukturun düzgün planlaşdırılması, tikinti standartlarının gücləndirilməsi və ictimai maarifləndirmə işlərinin artırılması əsas məsələlərdən hesab olunur. Stenddə də məhz bu istiqamətdə müxtəlif məlumatlandırıcı materiallar və təqdimatlar nümayiş etdirilir.

**Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti Baş İdarə rəisi, Tural Məmmədov:**



– “Urban Expo” sərgisində təqdim olunan stenddə gələcəyin şəhərlərinə dair innovativ yanaşmaları sərgiləyirik. Əsas məqsədimiz müasir texnologiyaların tətbiqi ilə “ağıllı şəhər” və “ağıllı bina” modellərinin qurulmasıdır. Bu yanaşma ilə biz şəhər həyatını daha təhlükəsiz, çevik və dayanıqlı hala gətirməyi hədəfləyirik. Yeni nəsil şəhərlərin qurulmasında beynəlxalq təcrübə mühüm rol oynayır. Müxtəlif ölkələrdə tətbiq edilən “ağıllı infrastruktur” modelləri, rəqəmsal idarəetmə sistemləri və enerji səmərəliliyi həlləri öyrənilərək yerli şəraitə uyğunlaşdırılır. Bu prosesdə məqsəd həm də şəhər sakinlərinin həyat keyfiyyətinin yüksəldilməsidir.

“Ağıllı şəhər” konsepsiyasının ən vacib komponentlərindən biri kibertəhlükəsizlikdir. Şəhərlərin rəqəmsallaşması artdıqca, məlumatların qorunması və kiberhücumlara qarşı dayanıqlılığın təmin olunması prioritet məsələyə çevrilir. Bu səbəbdən “ağıllı idarəetmə” sistemləri elə qurulur ki, həm təhlükəsiz, həm də fasiləsiz fəaliyyət göstərə bilsin. Burada süni intellekt əsaslı monitorinq sistemləri, məlumat şifrələmə texnologiyaları və real vaxtda risk analizi kimi həllər xüsusi əhəmiyyət daşıyır. Stendimizdə nümayiş etdirilən maketlər isə bunun əyani təqdimatıdır. Burada gələcəkdə qurulması planlaşdırılan “ağıllı şəhər” modelləri detallı şəkildə əks olunub. Ziyarətçilərə binaların necə funksionallaşacağı, enerji idarəetmə sistemlərinin necə işləyəcəyi, nəqliyyat axınının tənzimlənməsi və şəhər daxilində rəqəmsal sistemlərin necə inteqrasiya olunacağı göstərilir.

*Hazırladı:*
***Fidan ƏLİYEVA,***
***Ləman TƏHMƏZ,***
***Nurlan ABDALOV,***
***Cavid QAÇAYEV (foto)***
***XQ***



# Qlobal istiləşmənin Azərbaycanda təzahürləri

**Son illər dünyada təbii fəlakətlərin sayı artıb. Quraqlıq, leysanlar, meşə yanğınları və daşqınlar artıq təəccüblü deyil. Mütəxəssislər təbiətin şıltaqlığını planetin yeni ekoloji reallığı kimi qəbul edirlər. Atmosferdəki kəskin dəyişikliklərin əsas səbəbi isə temperaturun yüksəlməsidir. Hava isindikcə, özündə daha çox su buxarı, yəni rütubət saxlayır. Nəticədə buludlarda yığılan su qısa müddətdə normadan artıq yağış şəklində yerə tökülür. Bu vəziyyət sel və daşqın riskini artırır, şəhərləri iflic edir və milyardlarla dollar zərər vurur.**

Mövzu ilə bağlı **coğrafiya elmləri doktoru Səid Səfərov** bildirdi ki, fəlakətlərin kökündə qlobal hava axınlarının pozulması dayanır: "Normal şəraitdə Arktika üzərində formalaşan soyuq hava kütləri müəyyən xətt üzrə hərəkət edir. Elmdə "hava burulğanı" adlanan bu sis-



temlər dünyada iqlim balansını qoruyur. Lakin qlobal istiləşmə və güclü atmosfer təzyiqləri səbəbindən bu burulğanlar zəifləyir və parçalanır. İstiqamətini itirən hava axınları fərqli bölgələrə yayılır. Nəticədə müxtəlif yerlərdə qəfil temperatur dəyişmələri, güclü leysanlar və sellər yaranır". Alimin sözlərinə görə, son aylar ölkəmizdə və regionda müşahidə olunan qeyri-sabit hava şəraiti məhz qlobal proseslərin nəticəsidir. Bu, həm də havanın kəskin dəyişməsinin təsadüfi və ya yerli amillərlə bağlı deyil, arxasında böyük iqlim hərəkətlərinin dayandığını göstərir. Deməli, Azərbaycandakı intensiv yağışlar da ümumi iqlim dəyişikliyinin bir hissəsidir.

**Coğrafiya üzrə fəlsəfə doktoru Həsən Nəbiyev** iqlim ssenarilərində fərqli məqama diqqət çəkir. Alim qeyd edir ki, hazırda dünyada iqlim dəyişmələrinin əsas səbəbi kimi antropogen, yəni insan amili ön plana çəkilsə də, təbii geofiziki faktorlar da bu dəyişikliklərdə böyük rol oynayır. Onun sözlərinə görə, aparılan tədqiqatlar ekstremal hava hadisələrinin, xüsusilə mart-may aylarında artan leysan yağışlarının həm də Günəş fəallığının yüksəlməsi ilə bağlı olduğunu sübut edir. H.Nəbiyev vurğulayır ki, Günəşin növbəti aktivliyi şimal-cənub istiqamətli kəskin hava axınlarını sürətləndirir. Azərbaycanda və ətraf coğrafiyada sel, daşqın və dolu kimi fəlakətlərin tez-tez təkrarlanması məhz bu meridional hava axınlarının intensivləşməsi ilə bağlıdır. İqlimşünasın fikrincə, hazırda Azərbaycanın dağətəyi zonalarında quraqlaşma və ümumi yağıntı azalması müşahidə edilsə də, yüksək dağlıq ərazilərə doğru qalxdıqca, yağıntıların qəfil artması və anomal xarakter alması prosesi gedir ki, bu da dağ çaylarında fəlakətli sellərin yaranma mexanizmini birbaşa stimullaşdırır.

**Ekspert Sadiqə Mehdiyeva** isə hesab edir ki, Azərbaycanın iqlim siyasətində əsas prioritet adaptasiya tədbirlərinin gücləndirilməsi olmalıdır. Onun sözlərinə görə, ölkənin qlobal istixana qazı emissiyalarında payı cəmi 0,1 faiz təşkil edir və Azərbaycan əsasən özünün yaratmadığı






iqlim böhranının nəticələrini idarə etmək məcburiyyətindədir. Bu səbəbdən sosial, iqtisadi və urban planlaşdırma sahələrində iqlim risklərinin nəzərə alınması strateji zərurətə çevrilib.

*

Regional miqyasda da oxşar tendensiyalar müşahidə olunur. Rusiya Federasiyasının Dağıstan bölgəsi, Türkiyə, İran və Azərbaycan artıq eyni iqlim xəttində oxşar risklərlə üz-üzədir. İranda baş verən genişmiqyaslı daşqınlar kənd təsərrüfatı zonalarını və şəhər infrastrukturunu ciddi şəkildə zədələyib, minlərlə insan evsiz qalıb. Dağıstanda sel axınları dağlıq kəndləri və yol infrastrukturunu sıradan çıxarıb, insan itkilərinə səbəb olub. Türkiyədə isə intensiv yağışlar torpaq sürüşmələri və şəhər infrastrukturunun çökməsi ilə nəticələnib.

Azərbaycanda iqlim dəyişikliklərinin təsirləri daha sistemli şəkildə hiss olunur. Milli Hidrometeorologiya Xidmətinin məlumatlarına görə, Bakı və Abşeron yarımadasında qeydə alınan yağıntılar son illərdə rekord göstəriciləri üstələyib. Statistika son 10 ildə intensiv yağışların 6 dəfə, daşqınların isə 18 dəfə artdığını göstərir. Bu isə iqlim dəyişikliklərinin stabil deyil, struktur xarakter aldığından xəbər verir. Məsələn, mayın 17-də Bakıda və Abşeron yarımadasında sutka ərzində düşən yağıntının miqdarı 116 mm qeydə alınıb ki, bu da aylıq normanın 589 faizini təşkil edib.

2024-cü ildə təsdiqlənmiş Milli Adaptasiya Planında qeyd olunur ki, yaxın illərdə istilik dalğalarının, quraqlığın, güclü küləklərin və intensiv yağıntıların daha da artması gözlənilir. 1952, 1969, 1992, 1993 və 2026-cı illərdə Kür çayı hövzəsində daşqınlar tarixi nümunə kimi göstərilsə də, müasir dövrdə bu hadisələrin daha sıx intervalda baş verməsi vəziyyəti çətinləşdirir.

Şübhəsiz ki, Bakı və digər şəhərlərdə müşahidə edilən intensiv yağıntılar mövcud kanalizasiya və drenaj sistemlərinin layihə gücünü aşaraq subasma risklərini artırır. Bu isə urban infrastrukturun iqlim dəyişikliklərinə uyğunlaşdırılması məsələsini aktuallaşdırır.

*

Təbiət əvvəlki dayanıqlı sabitliyindən tamamilə uzaqlaşıb, proqnozlaşdırıla bilməyən və aqressiv xarakter alıb. Buna uyğun olaraq sürətli urbanizasiya və əhali sıxlığının artması fonunda şəhərsalma və infrastruktur sahəsində də köhnə standartlar öz effektivliyini itirib. Mövcud kommunikasiya, kanalizasiya və enerji sistemləri kəskin hava şəraitinə və qəfil subasmalara tab gətirmir. Bu vəziyyət şəhərlərin tamamilə "ağıllı" və ekoloji cəhətdən dözümlü modellərlə yenidən qurulmasını, memarlıqda yaşıl texnologiyaların tətbiqini qaçılmaz edir. Bakıda keçirilən BMT-nin Ümumdünya Şəhərsalma Forumu məhz bu baxımdan qlobal iqlim gündəliyində xüsusi yer tutur. Forum şəhərlərin dayanıqlılığı, iqlim risklərinin idarə olunması və ekoloji təhlükəsizlik kimi məsələlərin beynəlxalq səviyyədə müzakirəsi üçün mühüm platformadır. Bakının bu cür beynəlxalq tədbirə ev sahibliyi etməsi Azərbaycanın qlobal iqlim siyasətində aktiv rolunu və regional əməkdaşlığa verdiyi önəmi nümayiş etdirir.

Forum çərçivəsində "yaşıl şəhər" konsepsiyası, alternativ enerji mənbələrinin genişləndirilməsi, su ehtiyatlarının idarə olunması və iqlimə davamlı infrastruktur modellərinin hazırlanması kimi istiqamətlər üzrə ortaq yanaşmaların formalaşdırılması nəzərdə tutulur. Belə forumların əsas üstünlüklərindən biri də iqlim problemlərinin yalnız nəzəri müzakirə predmeti kimi deyil, konkret fəaliyyət planları və maliyyə mexanizmləri ilə birlikdə qiymətləndirilməsidir. Çünki şəhərlərin iqlim dəyişikliklərinə uyğunlaşdırılması böyük investisiya, yeni texnologiyalar və uzunmüddətli planlaşdırma tələb edir. Beynəlxalq təşkilatların, donor qurumların və müxtəlif ölkələrin eyni platformada bir araya gəlməsi isə maliyyə və idarəetmə proseslərinin koordinasiyasını gücləndirir.

Beləliklə, iqlim dəyişikliyi artıq fərziyyə və ya uzaq perspektiv deyil, bu gün dünya iqtisadiyyatını, kənd təsərrüfatını, su ehtiyatlarını və şəhər infrastrukturunu kökündən sarsıdan real qlobal böhrandır. Bu qlobal çağırışa adekvat cavab vermək, gələcək nəsillərin təhlükəsizliyini və planetin ekoloji tarazlığını qorumaq üçün yalnız texniki və ya inzibati addımlar kifayət deyil. Proses həm beynəlxalq təşkilatların, həm də cəmiyyətin bütün təbəqələrinin birgə, koordinasiyalı və uzunmüddətli fəaliyyətini tələb edir. Cəmiyyət səviyyəsində geniş maarifləndirmə işlərinin aparılması, hər bir fərdin suya qənaət, enerji səmərəliliyi və məsuliyyətli resurs istifadəsi kimi vərdişləri mənimsəməsi artıq tövsiyə xarakterli addımlardan çıxaraq, gündəlik həyat tərzinə çevrilməlidir.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Davamlı yağışların fəsadları aradan qaldırıldı

**Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, may ayının 17-si gecə saatlarından başlayaraq gün ərzində respublikanın əksər rayonlarında, o cümlədən Bakı və Abşeron yarımadasında intensiv yağıntılar müşahidə olunub. Bəzi bölgələrdə leysan xarakterli yağışlarla yanaşı, hətta qar yağıb. Paytaxtda düşən yağıntının miqdarı aylıq normadan dəfələrlə çox olub. Başqa sözlə, Bakı şəhəri bir sutka ərzində, təxminən, iki-üç aylıq yağış normasına bərabər yağıntı ilə üz-üzə qalıb.**

Bu cür ekstremal hava hadisələri son illərdə tez-tez təkrarlanır və iqlim dəyişikliklərinin yaratdığı risklərin artıq real



təhlükəyə çevrildiyini bir daha göstərir. Qısa müddət ərzində normadan dəfələrlə artıq yağışın yağması şəhər infrastrukturuna, xüsusilə kanalizasiya və yağış sularının axıdılması sistemlərinə ciddi yük salır. Bu yük isə bəzi ərazilərdə suyun yığılmasına, hərəkətin məhdudlaşmasına və müəyyən çətinliklərin yaranmasına səbəb olur.

Bakı şəhərində müşahidə olunan intensiv yağışlar nəticəsində yaranmış çətinliklərin aradan qaldırılması istiqamətində dərhal operativ tədbirlər görülüb. Bakı Şəhər İcra Hakimiyyəti, paytaxtın rayon icra hakimiyyəti başçıları, onların aparatları və aidiyyəti təsərrüfat strukturları gücləndirilmiş iş rejimində fəaliyyət göstəriblər. Şəhər təsərrüfatına cavabdeh olan qurumların əməkdaşları sutka ərzində fasiləsiz işləyərək su basmış ərazilərin təmizlənməsi və nəqliyyatın hərəkətinin bərpası üçün tədbirlər həyata keçiriblər.

Bakı Şəhər İcra Hakimiyyətinin mətbuat xidmətinin məlumatına görə, yağış nəticəsində bəzi ərazilərdə normanı dəfələrlə üstələyən yağıntının kollektorlar vasitəsilə kənarlaşdırılmasında müəyyən gecikmələr müşahidə edilib. Bu da təbii olaraq bəzi küçə və prospektlərdə su yığılması hallarına səbəb olub. Bununla belə, monitorinq qrupları tərəfindən riskli və problemli ərazilər müəyyənləşdirilərək aidiyyəti üzrə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə təqdim edilib və nəticədə həmin nöqtələrdə suyun çəkilməsi, drenaj xətlərinin açılması və kollektorların təmizlənməsi istiqamətində tədbirlər reallaşdırılıb.

Bundan başqa, şəhər üzrə yağış sularının normal axınının təmin edilməsi məqsədilə yağış barmaqlıqları, kanalizasiya şəbəkələri və drenaj xətlərinin təmizlənməsi işləri genişləndirilib. Aidiyyəti qurumlar tərəfindən suyun sürətlə kənarlaşdırılması üçün əlavə su nasosları və xüsusi texniki vasitələr də səfərbər olunub.

Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğından Mühafizə, Xüsusi Riskli Xilasetmə, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət xidmətləri, Mülki müdafiə qoşunları və Bakı Regional Mərkəzi tərəfindən Bakı şəhərinin müxtəlif istiqamətlərində, Sumqayıt şəhərində və Abşeron rayonunda su basmış ərazilərdən suyun çəkilərək kənarlaşdırılması, köməyə ehtiyacı olan vətəndaşların təxliyəsi, eləcə də digər zəruri təhlükəsizlik tədbirləri həyata keçirilib.

FHN-nin məlumatına əsasən, qurumun qüvvələri tərəfindən intensiv yağışlarla əlaqədar yaranan fəsadların aradan qaldırılması işləri gün ərzində fasiləsiz şəkildə davam etdirilib. Bildirilib ki, Bakı şəhərinin Nizami, Sabunçu, Xəzər, Suraxanı, Binəqədi, Qaradağ və Səbail rayonlarında, eləcə də Abşeron, Siyəzən, Şabran, Xaçmaz rayonlarında və Bakı-Sumqayıt yolunda müvafiq təhlükəsizlik tədbirləri görülüb, suçəkmə və təmizləmə işləri həyata keçirilib.

Binəqədi rayonunun bəzi qəsəbələrində xüsusi texniki qurğuların cəlb olunması ilə işlər daha intensiv formada aparılıb. Biləcəri qəsəbəsi, İpək yolu və Sənan Zamanov küçələrində, M.Ə.Rəsulzadə qəsəbəsinin Zəngəzur küçəsində, Xocəsən qəsəbəsinin Ulduz və Şollar küçələrində zəruri işlər görülüb. Ərazilərə su nasosları, xüsusi texniki qurğular və ehtiyac yaranan yerlərə ağır texnika cəlb olunub. Nizami rayonunun Keşlə qəsəbəsi ərazisində də intensiv yağışların yaratdığı fəsadlar qısa müddətdə aradan qaldırılıb.

Səbail rayonunda isə xüsusilə yağış sularının normal axınının təmin edilməsi üçün su barmaqlıqları və drenaj xətləri operativ şəkildə təmizlənərək açılıb. Operativ müdaxilələr nəticəsində Şəhidlər xiyabanı yağış sularından tam təmizlənib, eyni zamanda, məhəllələrarası yaranmış problemlər də qısa müddət ərzində aradan qaldırılıb. Qeyd olunub ki, suyun küçələrdən çəkilməsi üçün əlavə tədbirlər görülərək, nəqliyyatın və piyadaların hərəkətində yaranan çətinliklər mərhələli şəkildə qaydaya salınıb.

Mütəxəssislərin fikrincə, Bakı kimi iri şəhərlərdə leysan xarakterli yağıntıların yaratdığı risklər təkcə mövsümi problem deyil. Bu, artıq şəhər infrastrukturu və təhlükəsizlik baxımından ciddi strateji məsələ kimi qiymətləndirilməlidir. Yağıntı sularının axıdılması sistemlərinin genişləndirilməsi, kanalizasiya şəbəkələrinin yenilənməsi, yeni kollektorların tikilməsi və subasma ehtimalı yüksək olan ərazilərdə qabaqlayıcı tədbirlərin görülməsi zəruridir.

Yeri gəlmişkən, Azərbaycan hökuməti ötən ayın sonlarında da intensiv xarakterli yağışların törətdiyi fəsadların aradan qaldırılması üçün dərhal tədbirlər görmüş, su basmış evlərdə qalan sakinlər təxliyə olunmuş, küçə və prospektlər sudan təmizlənmişdi. Həmin hadisələr zamanı da müxtəlif qurumlar birgə koordinasiya şəraitində fəaliyyət göstərərək təhlükəsizlik tədbirlərini vaxtında təmin




etmişdi. Bu fakt bir daha göstərdi ki, fövqəladə hava hadisələrinə çevik reaksiya mexanizmi formalaşıb və zəruri hallarda dövlət qurumları qısa müddətdə səfərbər olur.

Aprelin 28-də Prezident İlham Əliyev sel və daşqınların təhlükəli və zərərli təsirlərinə qarşı mübarizə ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalamışdı. Dövlət başçısının imzaladığı sənəd, həm mövcud problemlərin operativ şəkildə aradan qaldırılması, həm də gələcəkdə analoji təbii hadisələrin fəsadlarının minimuma endirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Sərəncama əsasən, Bakı şəhərində və Azərbaycanın müxtəlif bölgələrində güclü leysan yağışları və yaranan sel suları nəticəsində dəymiş zərərin fəsadlarının aradan qaldırılması istiqamətində görülən işlərin davamlılığının təmin edilməsi, habelə gələcəkdə oxşar halların təkrarlanmaması məqsədilə 85 milyon 869 min 260 manat vəsait ayrılıb. Bu maliyyə vəsaiti bir sıra mühüm infrastruktur layihələrinin icrasına, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsinə yönəldilib.

Eyni zamanda, dövlətimizin başçısının müvafiq sərəncamı ilə təsdiqlənən, Bakı şəhərində və Azərbaycanın müxtəlif bölgələrində güclü yağıntılar nəticəsində dəymiş zərərin aradan qaldırılması ilə bağlı görüləcək işlərin siyahısı da açıqlanıb. Həmin siyahıda yol infrastrukturunun bərpası, suötürücü xətlərin genişləndirilməsi, drenaj sistemlərinin təkmilləşdirilməsi, kanalizasiya şəbəkələrinin yenilənməsi, eləcə də təhlükəli zonalarda əlavə mühafizə tədbirlərinin görülməsi nəzərdə tutulur.

Mütəxəssislər bildirirlər ki, belə tədbirlər yalnız cari problemlərin həlli deyil, həm də şəhərlərin iqlim risklərinə qarşı davamlılığının artırılması baxımından vacibdir. Çünki son illərdə müşahidə olunan ekstremal hava hadisələri göstərir ki, güclü yağışlar və sel hadisələri gələcəkdə daha tez-tez baş verə bilər. Bu səbəbdən də ölkədə infrastrukturun modernləşdirilməsi, xüsusilə yağış sularının idarə olunması sistemlərinin yenilənməsi və qabaqlayıcı tədbirlərin gücləndirilməsi strateji əhəmiyyət kəsb edir.

Beləliklə, həyata keçirilən tədbirlər, bir tərəfdən, əhalinin təhlükəsizliyinin gerçəkləşdirilməsinə, digər tərəfdən isə şəhər təsərrüfatının daha dayanıqlı və çevik formada qurulmasına xidmət edir. İcra qurumlarının bu istiqamətdə ardıcıl addımlar atması isə təbii fəlakətlərin mümkün fəsadlarının minimuma endirilməsi baxımından mühüm zəmin yaradır.

*V.BİNYATOĞLU*
*XQ*

# Serbiya ölkəmizin önəmli tərəfdaşına çevrilir

**Ölkəmizin mühüm enerji tərəfdaşlarından olan Serbiya ilə iqtisadi əlaqələr yüksələn xətlə inkişaf edir. İki ölkə arasında iqtisadi əlaqələrin əsası isə 2010-cu ilin mart ayında "Azərbaycan Respublikası Hökuməti və Serbiya Respublikası Hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında Saziş"in imzalanması ilə qoyulub. 2011-ci ilin iyun ayında Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya yaradılıb. Ötən müddətdə bu qurum ölkələrimiz arasında iqtisadi layihələrin idarə edilməsi istiqamətində mühüm rol oynayıb.**




Son illər Azərbaycan–Serbiya iqtisadi əməkdaşlığının genişlənməsi fonunda iki ölkə arasında ticarət dövriyyəsi xeyli artıb. Müqayisə üçün qeyd edək ki, 2005-ci ildə ölkələrimiz arasında cəmi 39,1 min dollar həcmində idxal-ixrac əməliyyatları həyata keçirilmişdisə, ticarət və iqtisadi əməkdaşlıq haqqında sazişin icrası nəticəsində 2010-cu ildə bu rəqəm 1 milyon 784,4 min, bir il sonra isə 2 milyon 772,4 min dollara çatıb. Uğurlu iqtisadi əməkdaşlığın nəticəsi olaraq ötən il Azərbaycanla Serbiya 135 milyon dollar həcmində idxal-ixrac əməliyyatları həyata keçiriblər.

Bununla belə, iki ölkə arasında iqtisadi əlaqələrin daha da genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması üçün imkanlar çoxdur. Təsadüfi deyil ki, bugünlərdə Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasında (WUF-13) iştirak etmək üçün Azərbaycana səfərə gəlmiş Serbiya Prezidenti Aleksandar Vuçiç yerli sahibkarlarla işgüzar görüşü zamanı ölkələrimiz arasında əməkdaşlıq üçün yeni sahələrin tapılacağına əminliyini bildirib. O deyib: "Ölkələrimiz arasında dostluğun sərhədi olmadığı kimi, iqtisadi əməkdaşlığımızın da sərhədi olmamalıdır. Hesab edirəm ki, ticarət dövriyyəmiz bugünkü səviyyədən beş dəfə çox olmalıdır və düşünürəm ki, biz buna nail ola bilərik".

Ümumilikdə isə, son illər ölkələrimiz arasında iqtisadi əməkdaşlıq ticarət, investisiya, infrastruktur layihələri, enerji, sənaye, nəqliyyat və kənd təsərrüfatı istiqamətində uğurla davam edir. Enerji sahəsində əməkdaşlıq isə iqtisadi əlaqələrin əsasını təşkil edir. Elə ölkəmizin hazırda Serbiyanın enerji təhlükəsizliyinin gücləndirilməsinə töhfə verən etibarlı tərəfdaşa çevrilməsi də bunun bariz nümunəsidir. Bu istiqamətdə əməkdaşlığın əsası 2023-cü ildə qoyulub.

Xatırladaq ki, həmin il noyabrın 15-də SOCAR və "Srbijagas" şirkəti arasında Azərbaycan qazının Serbiyaya tədarükü haqqında saziş imzalanıb. Müqavilə 2024-2026-cı illərdə ölkəmizdən Serbiyaya 2027-ci ildən tədarük həcminin artırılması imkanı ilə ildə 400 milyon kubmetrədək qaz tədarükünü nəzərdə tutur. Azərbaycan qazının Serbiyaya ixracı isə 2024-cü ilin fevralında başlayıb. Həmin il Serbiyaya 12 milyon 984 ABŞ dolları dəyərində 35 milyon 352 min kubmetr qaz tədarük edilib.

İki ölkənin maliyyə nazirliklərinin, Serbiyanın İnkişaf Agentliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO-nun təşkilatçılığı ilə keçirilən görüşdə rəsmi şəxslər, yerli müəssisə, şirkət və assosiasiyaların nümayəndələri iştirak ediblər. Görüşdə çıxış edən maliyyə naziri, Azərbaycan–Serbiya ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədri Sahil Babayev iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını, əməkdaşlığın dövlət başçılarının güclü siyasi iradəsi və dialoqu əsasında dinamik şəkildə inkişaf etdiyini bildirib.

Nazir daha sonra deyib ki, 2024-cü ilin yanvarından Azərbaycanın Serbiyaya təbii qaz ixracına başlaması və Niş şəhərində birgə qazla işləyən elektrik stansiyası layihəsinin icrası enerji əməkdaşlığının artıq real nəticələr mərhələsinə keçdiyini nümayiş etdirir. Azərbaycan–Serbiya iqtisadi əməkdaşlığı təkcə enerji sahəsi ilə məhdudlaşmır, ölkələr arasında yaranmış qarşılıqlı etimad və yüksək səviyyəli siyasi dialoq nəticəsində infrastruktur, tikinti, nəqliyyat, kənd təsərrüfatı, turizm və investisiya kimi sahələrdə geniş və real əməkdaşlıq imkanları formalaşıb.

Görüşdə Azərbaycanın əlverişli investisiya mühiti, makroiqtisadi sabitliyi, strateji coğrafi mövqeyi və müasir nəqliyyat-enerji infrastrukturu sayəsində regionda mühüm ticarət və investisiya mərkəzi kimi mövqeyini daha da gücləndirdiyi dədiqqətə çatdırılıb. Qeyd olunub ki, "AzVirt"in Serbiyada həyata keçirdiyi iri infrastruktur layihələri Azərbaycan şirkətlərinin beynəlxalq bazarlarda iştirakını nümayiş etdirən mühüm nümunələrdəndir.

Bundan əlavə, hazırda Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə həyata keçirilən birgə layihələr, "yaşıl" enerji, infrastrukturun inkişafı və sənaye sahələrində əməkdaşlıq imkanlarının müzakirə olunduğu diqqətə çatdırılıb. Nazir əlavə edib ki, turizm sahəsi tərəflər arasında yeni əməkdaşlıq istiqaməti kimi formalaşır və bu sahədə Serbiya tərəfinin Azərbaycan şirkətləri ilə birgə layihələrə maraq göstərməsi praktiki imkanları daha da genişləndirir.

Serbiya–Azərbaycan strateji tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluğunu ifadə edən Prezident Aleksandar Vuçiç iki ölkənin biznes dairələri arasında birbaşa əlaqələrin gücləndirilməsinin, qarşılıqlı investisiyaların təşviqinin və konkret layihələr üzrə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Bakı ilə Belqrad arasında birbaşa aviareysin açılmasının iki ölkə arasında əlaqələrin inkişafına mühüm töhfə verdiyini bildirən A.Vuçiç turizm sahəsində əməkdaşlığın genişləndirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini, bu istiqamətdə Azərbaycan və Serbiya turizm şirkətləri arasında əlaqələrin daha da gücləndirilməsinin vacibliyini diqqətə çatdırıb.

Serbiya Prezidenti, həmçinin enerji sahəsində əməkdaşlığın dərinləşdirilməsinin önəmini vurğulayıb. Hazırda SOCAR ilə "Serbiagas" arasında yeni qaz elektrik stansiyasının inşası üzrə əməkdaşlıq perspektivlərinin nəzərdən keçirildiyini diqqətə çatdıran A.Vuçiç Azərbaycan biznes nümayəndələrini Serbiyada yeni investisiya imkanlarını araşdırmağa dəvət edib. O, xüsusilə pərakəndə ticarət, spa və dağ kurortu, eləcə də kənd təsərrüfatı məhsulları sahələrində geniş əməkdaşlıq imkanlarının mövcud olduğunu bildirib.

Serbiya Baş nazirinin birinci müavini və maliyyə naziri Sinişa Mali isə ölkəsinin investisiya mühiti, iqtisadi inkişaf prioritetləri və Azərbaycanla əməkdaşlığın genişləndirilməsi imkanları barədə danışıb. O, qarşılıqlı maraq doğuran istiqamətlər üzrə biznes təşəbbüslərinin dəstəklənməsinin vacibliyini qeyd edib.

Serbiyanın İnkişaf Agentliyinin strateji investisiyalar departamentinin direktoru Vladimir Tomiç Serbiyada xarici investorlar üçün mövcud dəstək mexanizmləri barədə məlumat verib. Bildirilib ki, Serbiya bazarı Azərbaycan şirkətləri üçün müxtəlif sahələrdə yeni əməkdaşlıq imkanları təqdim edir.

Görüş çərçivəsində şirkət və assosiasiyaların təqdimatları keçirilib, onların fəaliyyət istiqamətləri, ixrac və investisiya potensialı, Serbiya tərəfi ilə mümkün əməkdaşlıq sahələri barədə məlumat verilib. Görüş Azərbaycan–Serbiya iqtisadi əlaqələrinin daha da genişləndirilməsi, biznes dairələri arasında praktiki əməkdaşlığın təşviqi və qarşılıqlı faydalı layihələrin müəyyənləşdirilməsi baxımından əhəmiyyətli platforma kimi dəyərləndirilib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Yaxın Şərq münaqişəsi qlobal əmtəə bazarlarında təlatüm yaradıb

## *Enerji qiymətlərində 24 faizlik artım proqnozlaşdırılır*

**Yaxın Şərqdə davam edən gərginlik, Hörmüz boğazının blokadaya alınması və ABŞ/İsrail ilə İran arasında müharibənin yenidən alovlanması ehtimalı fonunda dünya birjalarında neftin qiymət artımı davam edir.**

Mayın 18-nə olan məlumata görə, Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 1,88 dollar artaraq 111,14 dollar olub. Nyu-Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 2,21 dollar artaraq 107,63 dollar təşkil edib.

Enerji bazarındakı bu dinamika təkcə neftlə bitməyib. Eyni dövrdə təbii qaz bazarında da bahalaşma qeydə alınıb. Nyu-Yorkun "NYMEX" əmtəə birjasında təbii qaza olan fyuçers kotirovkalarının qiyməti artıb. 2026-cı ilin iyun ayında çatdırmaq şərti ilə təbii qaza olan fyuçerslərin qiyməti 1 milyon BTU-ya görə (British thermal unit – Britaniya istilik vahidi) 2,28 faiz artaraq 2,96 ABŞ dolları təşkil edib.

Beynəlxalq ekspertlərin qiymətləndirmələrinə görə, regiondakı hərbi-siyasi eskalasiya davam etdikcə, enerji bazarlarında qiymət təzyiqi də güclənəcək. Bu kontekstdə Aberdin Universitetinin baş iqtisadçısı Pol Diqlin açıqlamaları xüsusilə diqqət çəkir. O, Brent neftinin bir barel qiymətinin 180 dollara qədər yüksələ biləcəyi ssenarisinin araşdırıldığını bildirir və bunun Avropa ilə Asiyada ciddi inflyasiya və iqtisadi tənəzzül riski yaratdığını qeyd edir.

Bu proqnozlar beynəlxalq institutların hesabatları ilə də üst-üstə düşür. Dünya Bankı Qrupunun son "Əmtəə Bazarlarına Baxış" hesabatına əsasən, Yaxın Şərqdə davam edən müharibənin qlobal əmtəə bazarlarında yaratdığı ciddi təlatüm fonunda enerji qiymətlərinin bu il 24 faiz artaraq, 2022-ci ildə Rusiya-Ukrayna müharibəsi başlayandan bəri ən yüksək səviyyəyə yüksələcəyi proqnozlaşdırılır. Hesabatda bildirilir ki, enerji və gübrə qiymətlərindəki kəskin bahalaşma, eləcə də bir sıra strateji metallarda rekord qiymətlərin təsiri ilə ümumi əmtəə qiymətləri 2026-cı ildə 16 faiz arta bilər.

Bu ümumi mənzərə fonunda beynəlxalq media qurumları da enerji bazarındakı riskləri daha kəskin şəkildə qiymətləndirir. "Financial Times" yazır ki, İranla bağlı vəziyyətə görə qlobal enerji böhranı yeni mərhələyə qədəm qoyur. Qurumun məlumatına görə, münaqişənin yaratdığı enerji böhranının yeni və daha təhlükəli mərhələsinə qədəm qoyduğu bir vaxtda təxminən 80 ölkə iqtisadiyyatlarını qorumaq üçün təcili tədbirlər tətbiq edib. Yayın əvvəlində Şimal yarımkürəsində kondisionerlərə və istirahət səyahətlərinə artan tələbat xam neft, benzin, dizel və reaktiv yanacaq tədarükünə əlavə təzyiq göstərəcək.

### Hörmüz boğazında boğulma

Qeyd edək ki, Yaxın Şərqdə davam edən hərbi-siyasi gərginliyin əsas



episentrlərindən biri olan Hörmüz boğazı ətrafında vəziyyət kritik olaraq qalır. Dünyanın ən mühüm enerji nəqli marşrutlarından biri hesab edilən bu strateji boğazda kommersiya gəmiçiliyi əvvəlki dövrlərlə müqayisədə ciddi şəkildə məhdudlaşıb və beynəlxalq bazarlarda narahatlıq artmaqdadır. Mövcud vəziyyətə görə, boğaz tamamilə bağlanmasa da, əvvəlki kimi sərbəst fəaliyyət göstərmir.

İranın bölgədə tətbiq etdiyi selektiv nəzarət rejimi nəticəsində bəzi yük və tanker gəmilərinin keçidi xüsusi razılaşmalar əsasında həyata keçirilir. Tehran bu addımı ABŞ və müttəfiqlərinin İrana qarşı tətbiq etdiyi iqtisadi və logistika təzyiqlərinə cavab tədbiri kimi əsaslandırır. Hazırda bəzi gəmilər boğazdan keçə bilsə də, bu göstərici müharibədən əvvəlki gündəlik orta hesabla 136 gəmi səviyyəsindən xeyli aşağıdır.

Belə olduğu halda, qlobal neft ehtiyatlarının tədricən azalması müşahidə olunur. Analitiklərin hesablamalarına görə, mövcud vəziyyət davam edərsə, may ayının sonunadək dünya bazarında təxminən 1 milyard barel xam neft itkisi qeydə alına bilər.

Regionda yaranmış qeyri-müəyyənlik dəniz daşımaları sektoruna da ciddi təsir göstərib. Beynəlxalq sığorta şirkətləri Hörmüz boğazından keçən tanker və yük gəmiləri üçün müharibə riskinə görə sığorta haqlarını əhəmiyyətli dərəcədə artırıb. Nəticədə bir sıra iri logistika və enerji şirkətləri alternativ marşrutlara, xüsusilə Afrikanın cənubundan keçən daha uzun dəniz yollarına üstünlük verməyə başlayıb. Ekspertlərin fikrincə, ABŞ və İran arasında diplomatik təmasların davam etməsinə baxmayaraq, tərəflərin Hörmüz boğazı ilə bağlı ortaq mövqeyə gəlməməsi bu strateji keçidin yaxın müddətdə də qlobal risk mərkəzlərindən biri olaraq qalacağını göstərir.

### Vaşinqton Tehrana inanmır

ABŞ və İran arasında Yaxın Şərqlə bağlı son açıqlamalar daha çox gərgin ritorika və diplomatik təmaslarla davam edir. Ümumilikdə tərəflərin hələlik ortaq razılığa gələ bilməməsi regionda onsuz da yüksək olan gərginliyin daha da artacağı ilə bağlı narahatlıqları gücləndirir. ABŞ-ın İrana qarşı irəli sürdüyü əsas tələblər Yaxın Şərqdə artan gərginlik fonunda daha da sərtləşib. Vaşinqtonun mövqeyinə görə, Tehran regionda hərbi aktivliyini məhdudlaşdırmalı, eskalasiyanı dayandırmalıdır. ABŞ həmçinin İranın regionda sabitliyi pozan addımlardan geri çəkilməsini və dəniz ticarəti üçün strateji əhəmiyyət daşıyan Hörmüz ətrafında təhlükəsizlik risklərini minimuma endirməsini tələb edir. Eyni zamanda, Vaşinqton uzunmüddətli perspektivdə İranın nüvə proqramı ilə bağlı daha sərt nəzarət mexanizmlərinə razılaşmasını və beynəlxalq monitorinq çərçivəsində fəaliyyət göstərməsini vacib sayır. ABŞ administrasiyası bildirir ki, gərginliyin azaldılması üçün Tehran ya yeni şərtlərlə diplomatik danışıqlara qayıtmalı, ya da mövcud sanksiya və təzyiq siyasəti ilə üzləşməyə davam etməlidir. Bu xəttin davamı olaraq ABŞ Maliyyə Naziri Skott Bessent də G7 ölkələrini İrana qarşı sanksiya rejiminin sərtləşdirilməsinə çağıracağını açıqlayıb. Vaşinqton hesab edir ki, Tehranın regional hərbi fəaliyyətlərini məhdudlaşdırmağın əsas yollarından biri onun maliyyə resurslarını zəiflətməkdir.

Tehran isə ABŞ-ın əvvəlki təklifini qəbul etməsə də, vasitəçilər üzərindən Vaşinqtona yenilənmiş sülh planı təqdim edib. Pakistanlı mənbənin "Reuters"ə verdiyi məlumata görə, İslamabad İranın Yaxın Şərqdə davam edən münaqişənin dayandırılması məqsədilə hazırladığı bu yenilənmiş təklifi ABŞ tərəfinə çatdırıb. Bu proses sülh danışıqlarının dalana dirəndiyi bir mərhələdə baş verib.

Mənbə bildirib ki, tərəflər arasında mövqelərin yaxınlaşdırılması getdikcə çətinləşir və "çox vaxtımız yoxdur" ifadəsi ilə vəziyyətin təcili xarakter daşıdığı vurğulanıb. Onun sözlərinə görə, həm İran, həm də ABŞ danışıqlar prosesində tez-tez tələblərini dəyişdiyindən, razılaşma imkanları daha da mürəkkəbləşir.

Ümumilikdə, Tehran tərəfinin diplomatik kanalları açıq saxlaması onun danışıqlardan tam geri çəkilmədiyini göstərir. Amma Hörmüz boğazı üzərində suverenlik mövqeyindən geri addım atılmaması gərginliyi artıran əsas amillərdən biri olaraq qalır. Tərəflər arasında diplomatik təmasların davam etməsi müsbət siqnal sayılsa da, ortaq razılaşmanın əldə olunmaması Yaxın Şərqdə yeni hərbi eskalasiya riskini gündəmdə saxlayır. Xüsusilə Hörmüz boğazı ətrafında davam edən qarşıdurma qlobal enerji bazarları üçün əsas risk faktorlarındandır.

***Musa BAĞIRLI***
***XQ***

# Vergi ödəyicilərinin sayı 1,7 milyonu ötüb

**Bu il may ayının 1-nə respublika üzrə uçotda olan 1 milyon 705 min 276 vergi ödəyicisinin 86,8 faizi fiziki şəxslər, 13,2 faizi hüquqi şəxslər və digər təşkilatlar olub.**




Dövlət Vergi Xidmətinin məlumatına görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə vergi ödəyicilərinin ümumi sayı 5,1 faiz, o cümlədən fiziki şəxslərin sayı 5 faiz, hüquqi şəxslərin sayı 6,1 faiz artıb.

May ayının 1-nə qeydiyyatda olan kommersiya qurumlarının sayı 208 min 315 təşkil edib ki, bu da əvvəlki illə müqayisədə 6,7 faiz çoxdur. Aprel ayında 1.341 vahid kommersiya qurumu dövlət qeydiyyatından keçib. Onların 91,7 faizi yerli, 8,3 faizi isə xarici investisiyalı müəssisələrdir. Kommersiya qurumlarının 88,8 faizi elektron qaydada qeydiyyata alınıb. 2026-cı ilin yanvar – aprel aylarında qeydiyyatdan keçmiş yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin e-qeydiyyatının xüsusi çəkisi 97,2 faiz təşkil edib.

2026-cı ilin may ayının 1-nə dövlət qeydiyyatında olan kommersiya hüquqi şəxslərin 92,2 faizi məhdud məsuliyyətli cəmiyyət formasında yaradılıb.

# 4 ayda ixrac: 7,9 milyon ton neft, 8,4 milyard kubmetr qaz

**Bu ilin yanvar-aprel ayları üzrə gömrük bəyannamələrinə əsasən, Azərbaycandan 10-dan çox ölkəyə 4 milyard 365 milyon 297,6 min ABŞ dolları dəyərində 7 milyon 923 min 86,7 ton xam neft və neft məhsulları ixrac edilib. Bu isə əvvəlki ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 4,33 faiz, həcm ifadəsində isə 3,42 faiz azdır. Ötən 4 ayda Azərbaycanın ümumi ixracında bitumlu süxurlardan alınmış xam neft və neft məhsullarının payı 36,75 faiz təşkil edib.**



Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, hesabat dövründə ölkəmizdən İtaliyaya 2 milyard 531 milyon 469 min dollar dəyərində 4 milyon 766 min 277,9 ton neft ixrac edilib. Bununla da İtaliya Azərbaycanın ümumi neft ixracında birinci yerdə qərarlaşıb.

4 ayda ölkəmizin neft satdığı ölkələrin siyahısında 2-ci yeri Rumıniya tutub. Hesabat dövründə bu ölkəyə 247 milyon 844,9 min dollar dəyərində 461 min 317,3 ton neft ixrac edilib. İlk üçlüyü isə Çexiya tamamlayıb. Belə ki, yanvar-aprel aylarında bu ölkə Azərbaycandan 245 milyon 721,5 min dollar dəyərində 433 min 64,4 ton neft idxal edib. Ümumilikdə isə, yanvar-aprel aylarında ölkəmiz Yunanıstan, Bolqarıstan, Portuqaliya, Xorvatiya, Almaniya, Tailand, Tunis və digər ölkələrə xam neft və xam neft məhsulları satıb.

Hesabat dövründə Azərbaycandan 8 milyard 416 milyon 328,74 min kubmetr təbii qaz ixrac edilib. Gömrük bəyannamələrinə əsasən, ölkəmizdən ixrac olunan təbii qazın dəyəri 2 milyard 535 milyon 847,49 min ABŞ dolları təşkil edib. İxrac edilən təbii qazın həcmi əvvəlki ilin 4 ayı ilə müqayisədə 3,14 faiz çox, dəyəri isə 17,28 faiz azdır. Azərbaycanın ümumi ixracında təbii qazın payı 21,35 faiz olub.

# Sənaye zonalarında istehsal 12 faiz artıb

**2026-cı ilin ilk 4 ayında ölkəmizdə 21 milyard 120,4 milyon manatlıq sənaye məhsulları istehsal edilib. Bu da ötən ilin müvafiq dövrünə nisbətən 0,3 faizlik artım deməkdir. Hesabat dövründə qeyri neft-qaz sənayesində isə məhsul istehsalı 7,2 faiz artaraq 7 milyard 92,2 milyon manata çatıb.**



Son illər ölkənin qeyri-neft sənayesinin inkişafında sənaye zonalarının xüsusi payının artması müşahidə olunur. Cari ilin birinci rübündə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyindəki sənaye zonalarının rezidentləri 883 milyon manat dəyərində məhsul istehsal ediblər. Bu isə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 12,2 faiz çoxdur.

Xatırladaq ki, ölkənin sənaye zonalarında rezidentlər üçün əlverişli biznes və investisiya mühiti yaradılıb. İnvestorların fəaliyyətinin təşviqi məqsədilə sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə bir sıra mühüm vergi güzəştlərindən yararlanırlar. Belə ki, onlar əmlak, torpaq və mənfəət vergilərindən azad edilir, həmçinin istehsal məqsədilə idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğulara 10 il müddətinə ƏDV və gömrük rüsumları üzrə azadolmalar tətbiq olunur.

***XQ***

Tofiq Rüstəmov – 90

# Görkəmli media xadimi, ustad qələm sahibi

**Dünən jurnalistlərin bütöv bir nəslinin müəllimi olmuş, çoxsaylı yetirmələrinin çalışdığı "Xalq qəzeti"nə 1990-1995-ci illərdə rəhbərlik etmiş görkəmli media xadimi Tofiq Rüstəmovun anadan olduğu gündə redaksiyamızda anım mərasimi keçirildi.**



Unudulmaz baş redaktorun 90 illik yubileyinə həsr edilmiş məclisdə Azərbaycan mətbuat tarixində adı ehtiramla çəkilən, ziyalı mövqeyi, məsuliyyəti, müdrikliyi ilə örnəyə çevrilmiş Tofiq müəllimin zəngin həyat yolu və fəaliyyətindən, yüksək insani keyfiyyətlərindən, yaradıcılığından bəhs olundu.

**"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov tanınmış alim və görkəmli ictimai xadim Tofiq Rüstəmovun redaksiyanın tarixində silinməz izlər qoyduğunu, ötən əsrin 90-cı illərinin mürəkkəb ictimai-siyasi şəraitində qəzetin fəaliyyətini xalqın maraqlarına xidmətə məharətlə yönəltdiyinini söylədi:**



– Tofiq müəllim həm də böyük jurnalist, tərcüməçi və redaktor idi. 10 ilə yaxın (1979–1988-ci illərdə) jurnalistika fakültəsinin dekanı işləyib. Tərcümə, televiziya və radio jurnalistikası kafedrasının həm yaradıcısı, həm də ilk müdiri olub.

Tofiq müəllim "Xalq qəzeti"nə rəhbərlik etdiyi illərdə mən AZƏRTAC-da baş direktor müavini idim. Bir binada sıx əməkdaşlıq şəraitində çalışırdıq. Tofiq müəllimlə çoxsaylı təmaslarımız olub. Hər söhbətimizdə ondan aldığım müsbət enerji mənə mənəvi güc verirdi. O, son dərəcə bilikli, təcrübəli və mədəni insan idi.

**Qəzetin Həmkarlar Komitəsinin sədri Ruslan Rəfizadə Tofiq Rüstəmovun gənc kadrların irəli çəkilməsində ədalətli, qayğıkeş mövqeyindən danışdı:**

– Ötən əsrin 70–80-ci illərində jurnalistika fakültəsində tələbələrin təyinatını birbaşa Mərkəzi Komitə verirdi. Bir gün Tofiq müəllim bizə bildirdi ki, "Xalq qəzeti"nin yeni baş redaktoru ondan 4–5 nəfər istedadlı kadr istəyib. O dekan kimi Mərkəzi Komitə ilə məsləhətləşib hazırladığı siyahıya mənim də adımı yazıb.

Onun bu obyektivliyi sayəsində bir neçə nəfər gənc kadr bu redaksiyaya təyinat aldı. Zaman keçdi, o bizim redaktorumuz oldu. Tofiq müəllimin rəhbərliyi altında qəzet sovet dövründən müstəqillik mərhələsinə uğurla qədəm qoydu.

**Baş redaktorun birinci müavini Hümbət Musayev mərhum professorun hansı vəzifədə və zirvədə olmasından asılı olmayaraq, hər zaman mənəviyyatını qoruyub saxladığını xüsusilə vurğuladı:**

– Tofiq müəllim paralel olaraq 3 əsas müstəvidə çox uğurlu və səmərəli fəaliyyət göstərib. Məmurluq fəaliyyətini kənara qoysaq, o, pedaqoji sahədə, jurnalistika sferasında və elmi yaradıcılıq istiqamətində böyük işlər görüb. Tofiq müəllim bu ağır yükün öhdəsindən ustadcasına gəlmişdi.

Tofiq müəllim, çalışdığı bütün sahələrdə insanlığı hər şeydən öndə tuturdu. İnsan hər zaman mənəvi dəyərləri rəhbər tutanda cəmiyyət tərəfindən də daim xoş xatirələrlə anılır, unudulmur və yaddaşlarda əbədi yaşayır.

**Baş redaktor müavini Tahir Aydınoğlu Tofiq Rüstəmovun peşəkarlığı əsas meyar kimi uca tutduğunu və bacarıqlı gənclərə xüsusi qayğı göstərdiyini söylədi:**

– Tofiq müəllim tələbələrə atalıq qayğısı göstərirdi, onların uğurlarına sevinirdi. Məhz onun dəstəyi və zəmanəti ilə mən birbaşa AzTV-də işə qəbul olundum. Hazırladığım verilişləri və layihələri izləyir, çox bəyənirdi. Sonra mən "Xalq qəzeti"nə gəldim.

20 Yanvar hadisələrindən sonra redaksiyada rəhbərlik dəyişəndə kollektiv Tofiq müəllimin namizədliyi üzərində dayandı. BDU-ya rektor təklifi alsa da o, tələbələrinin dəvətini qəbul edib "Xalq qəzeti"nə baş redaktor gəldi. O bu redaksiyanı peşəkar jurnalistikanın zirvəsi hesab edirdi.

**Qəzetin məsul katibi İlqar Rüstəmov isə Tofiq müəllimin onun taleyindəki müstəsna rolundan və çoxsaylı gənc jurnalistə arxa-dayaq olmasından danışdı:**

– Tofiq müəllim mənim xatirimdə həmişə ustad olaraq qalıb. Hələ tələbəlik illərindən ondan çox şey öyrənmişdim. Sonradan tale elə gətirdi ki, Tofiq müəllimlə birlikdə işlədim. O, işçilərinə öz yetirməsi, doğma övladı kimi yanaşırdı, redaksiya bizim üçün bütöv bir ailə idi.

Tofiq müəllim təkcə yazmağı, redaktə etməyi öyrətmirdi, həm də bizə yüksək peşə davranışı qaydalarını, sosial məsuliyyət hissini aşılayırdı. Tofiq müəllimin əsl həyat dərsləri bizə uğurlar qazandırıb.

**Qəzetin əməkdaşı Əli Nəcəfxanlı Tofiq Rüstəmovun tələbələr ilə doğma münasibətindən söz açdı:**

– 1978-ci ildə jurnalistika fakültəsinə qəbul olunmuşdum. Növbəti ildə isə Tofiq müəllim bizim dekanımız oldu. Qiyabi şöbədə oxuyur və Sumqayıtda işləyirdim. O, qiyabi oxuyan tələbələrin çətinliklərini həssaslıqla duyur, bacardığı köməyi əsirgəmirdi. Onun qayğıkeşliyi yaddaşımda silinməz iz qoyub.

**Qəzetin əməkdaşı Məsaim Abdullayev onun tələbəsi olmaqdan qürur duyduğunu bildirdi:**

– Ölkənin jurnalist cameəsində Tofiq Rüstəmov qədər sevilən, adı və xeyirxah əməlləri unudulmayan çox az insan görmüşəm. O, son dərəcə nəcib, yüksək əxlaqlı bir ziyalı olaraq hamı tərəfindən birmənalı qəbul edilən şəxsiyyət idi.

Onun sadəliyi, mərdliyi, alicənablığı, xeyirxahlığı, kübarlığı barədə söhbətləri bir yerə toplasalar, bəlkə də qalaq-qalaq kitablar yaranar. Hər şeyi qocaldan zaman onun fiziki yoxluğunu bizlərə unutdura bilmir.

***Mərasimdə iştirak edən BDU yeni media kafedrasının dosenti, Tofiq Rüstəmovun həyat və yaradıcılıq yolunu uğurla davam etdirən qızı Sevinc Məmmədova qədirbilənliyə və xoş xatirələrə görə təşəkkürünü bildirdi və ona ünvanlanan sualları cavablandırdı.***

**– Tofiq Rüstəmovu kamil bir şəxsiyyət kimi oxucularımıza, indiki nəslə necə təqdim edərdiniz?**

– Tofiq Rüstəmov çox gənc yaşlarında elmi, dünyagörüşü, savadı ilə seçilmiş, uğur qazanmışdı. Babam Hacı Tağı hərtərəfli ziyalı idi. Dövrünün nadir kitab və jurnallarından, hətta 20-30-cu illərin latın, ərəb əlifbası ilə yazılmış kitablardan ibarət zəngin kitabxanası vardı. Rus, ərəb və türk dillərini bilir, Sabiri, Hadini əzbərdən deyirdi.

Atamın elmi, ədəbiyyatı sevdirən, mütaliəyə maraq yaradan belə bir mühitdə böyüməsinin jurnalist kimi peşəkarlaşmasında, mehriban, qayğıkeş, gözəl dost, məsləhətçi və səmimi insan kimi formalaşmasında rolu əvəzsizdir. Mənim yaddaşımda atam mülayim, qayğıkeş, mərd insan kimi qalıb.

**– Azərbaycan Dövlət Universitetinin jurnalistika şöbəsindən başlayan yol radio və televiziya məkanında formalaşan məktəbə çevrildi. Ədəbi redaktə mövzusu isə Tofiq müəllimin yaradıcılığında əsas ana xəttdir.**

– Tofiq müəllim jurnalistikanın bütün sahələrində özünü sınamışdı. Redaktor, tərcüməçi, publisist, pedaqoq kimi peşəkarlığı və zəngin təcrübəsi ilə seçilmişdi. Radioda işlədiyi dövrlə bağlı "Radiojurnalistikanın əsasları", Azərbaycan və rus dillərində "Efirdə addımlar" araşdırma və məqalələri nəşr olunmuşdu. Radiojurnalistikanın formalaşdığı bir vaxtda bu materiallar gələcək elmi araşdırmalar üçün dəyərli mənbələr idi.

İşlədiyi hər yerdə – istər radio, istərsə də qəzetdə redaktəyə xüsusi həssaslıqla yanaşırdı. Bu baxımdan, ədəbi redaktə Tofiq müəllimin yaradıcılığının əsas ana xəttidir. Jurnalistika fakültəsində tədris olunan "Ədəbi redaktə" kursunun proqramı əsasında yazılan "Ədəbi redaktənin əsasları", "Ədəbi redaktə nəzəriyyəsi və təcrübəsi" adlı dərs vəsaitləri də bu yanaşmanın nəticəsi idi.

**– O, həm də alim idi …**

– Çalışdığı sahələrdə qazandığı təcrübəni ümumiləşdirərək kitab və elmi məqalələrdə əks etdirirdi. Eyni zamanda jurnalistika nəzəriyyəsi və təcrübəsi, mətbuat tarixinə aid araşdırmalar aparır, elmi və publisistik məqalələr yazır, tərcümələr edir, pedaqoji fəaliyyətlə məşğul olurdu.

Hələ tələbəlik illərindən Ordubadi yaradıcılığına olan marağı 1970-ci ildə filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün "M.S.Ordubadinin jurnalistlik fəaliyyəti" mövzusunda dissertasiya, "Alovlarda bərkiyən qələm", M.S.Ordubadiyə həsr olunan foto-albom və s. tədqiqatlarla nəticələnmişdi.

**– Sizcə, o dövrün jurnalistika təhsilində tərcüməçi kadrların hazırlığına önəm verilməsinin səbəbi nə idi?**

– 80-ci illərdə Azərbaycan dilində keyfiyyətli tərcümə məsələlərinə, elmi və bədii ədəbiyyatın nəşrinin artırılmasına xüsusi diqqət var idi. Tərcümə sənətkarlığı, tərcümə nəzəriyyəsi və s. ixtisas dərslərində Tofiq müəllim tələbələrə bu sahənin incəliklərini öyrədir, tərcümənin əsasları ilə bağlı elmi məqalələr yazır, yeni əsərləri, jurnalistikaya aid nəzəri materialları təhlil edirdi. O, mətni, sadəcə, başqa dilə köçürmür, müəllifin üslubunu və əsərin ruhunu özünəməxsus sənətkarlıqla canlandırmağa çalışırdı.

Lev Ginzburqun böyük əks-səda yaradan "O dünyada görüşlər" əsərinin tərcüməsi də məhz bu yanaşmanın nəticəsi idi. Bundan əlavə, o, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında səhnələşdirilən F.Dürrenmattın "Böyük Romul" komediyası, Sumqayıt və Lənkəran Dövlət Akademik Milli Dram teatrlarında səhnələşdirilən B.Caqarovun "Prokuror" pyesinin tərcüməçisi kimi də tanınmışdı. Onun tərcümələri arasında dekabrist Bestujev-Marlinskinin "Molla Nur" povestini ayrıca qeyd etmək istəyirəm. Əsər 20 il ərzində ərsəyə gələn bir araşdırma idi.

**– Jurnalist, redaktor, tərcüməçi, alim və pedaqoq Tofiq Rüstəmov özünü hansı sahədə daha dolğun ifadə edirdi?**

– Onun fəaliyyətini bir sahə ilə məhdudlaşdırmaq çətindir. Fikrimcə, atam ən çox müəllim, pedaqoq idi. Sadəcə, bilik vermək deyil, düşüncə formalaşdırmaq və həqiqəti gələcək nəslə ötürmək amalı ilə yaşayırdı. İllərlə eyni fənləri tədris etməsinə baxmayaraq, hər dərsə xüsusi hazırlaşır, mövzuya aid qeydlər aparır, yeni nümunələr seçirdi. Atamın pedaqoji yanaşması bizə örnəkdir. Onun tələbələrə arzusu gəncliyin qədrini bilmək, qələmin hörmətini uca tutmaq və peşə şərəfini daim qorumaq idi.

**– Bir müsahibəsində ona ünvanlanan "Jurnalist nəyi bilməlidir?" sualına Tofiq müəllim qısa cavab vermişdi: "Jurnalist nəyi bilməməlidir?.."**

– Onun fikrincə, əsl jurnalist geniş dünyagörüşlü, yüksək mədəniyyətli, araşdırma, təhlil bacarığı olan şəxs idi. Davranış, ünsiyyət və nitq mədəniyyətini xüsusi vurgulayırdı. Özü də bu prinsiplərə bağlı, şəxsiyyəti ilə bu dəyərlərin canlı nümunəsi idi.

***Mehparə ƏLİYEVA***
***XQ***

# Jurnalistlərin unudulmaz müəllimi

**Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində görkəmli media xadimi, jurnalistika nəzəriyyəçisi və pedaqoqu, professor Tofiq Rüstəmovun anadan olmasının 90 illik yubileyinə həsr olunmuş mərasim keçirilib.**




Fakültənin professor-müəllim heyətinin və mərhum yubiliyarın ölkə mediasında məsul vəzifələrdə çalışan yetirmələrinin iştirak etdiyi məclisin aparıcısı, yeni media kafedrasının müdiri, professor Qulu Məhərrəmli özünün də müəllimi və elmi hamisi olmuş Tofiq Rüstəmovu Azərbaycan professional jurnalistikasının görkəmli nümayəndəsi, teleradio nəzəriyyəçisi, ali jurnalistika təhsili təşkilatçısı və yetkin redaktor, eləcə də nüfuzlu ictimai-siyasi xadim kimi səciyyələndirib.

Yubiliyar haqqında hazırlanmış videoçarxda bildirilib ki, Rüstəmov Tofiq Tağı oğlu 1936-cı ildə Quba şəhərində anadan olub, burada orta təhsil alıb. 1953–1958-ci illərdə BDU-da ali jurnalist ixtisasına yiyələnib. Əmək fəaliyyətinə keçmiş İttifaqın nüfuzlu "Uçitelskaya qazeta" nəşrində respublikamızı təmsil edən xüsusi müxbir kimi başlayıb. Sonrakı 10 ildə milli teleradioda müxtəlif vəzifələrdə çalışıb, tərcüməçilikdən baş redaktoradək yüksəlib.

Elmi-pedaqoji fəaliyyətini məzunu olduğu BDU-da jurnalistika fakültəsində davam etdirən Tofiq Rüstəmov namizədlik dissertasiyası müdafiə edib, teleradio, tərcümə nəzəriyyəsi və təcrübəsinə dair tədqiqatlar aparıb. Bu araşdırmalara görə dosent və professor elmi adlarına layiq görülüb. BDU-da teleradio jurnalistikası kafedrasının yaradıcısı və ilk müdiri olub, fakültə dekanı seçilib.




Azərbaycanda Əməkdar jurnalist fəxri adına ilk layiq görülənlərdən biri də Tofiq Rüstəmov olub. O, BDU partiya komitəsinin katibi və Azərbaycan KP MK ideologiya şöbəsi müdirinin I müavini, "Xalq qəzeti"nin baş redaktoru kimi məsul vəzifələrdə uğurla çalışıb. Tələbələrinin sevimli müəllimi jurnalistika fakültəsində pedaqoji fəaliyyətini 62 yaşında dünyasını dəyişənədək davam etdirib.

Tofiq Rüstəmovun ömrünün məhsuldar dövründə vəfat etməsi milli jurnalistikamızın ağır itkisi olub. Onun işıqlı xatirəsi xalqımızın ən layiqli ziyalılarından biri kimi tanıyanların qəlbində bu gün də sevgi-sayğı ilə yaşayır.

Mərasimdə Tofiq Rüstəmovla birlikdə çalışmış, ali jurnalist kadrları hazırlığına çoxillik töhfələr vermiş kafedra müdiri, professor Cahangir Məmmədli, keçmiş dekan, professor Akif Rüstəmov, digər müəllimlər, fakültənin məzunlarından Vasif Quliyev, Tahir Aydınoğlu, Tofiq Abbasov, Aybəniz Məmmədəliyeva, Namiq Qədimoğlu, Lətif Babayev, publisist Şəfəq Əlixanlı və digər çıxış edənlər Tofiq Rüstəmovun milli jurnalistika məktəbinin formalaşmasında önəmli rol oynadığını bildiriblər.

Qeyd olunub ki, Tofiq Rüstəmov təkcə peşəkar jurnalist və alim kimi deyil, həm də yüksək mənəvi keyfiyyətləri, tələbələrinə daim qayğı ilə yanaşmış müəllim kimi yadda qalıb. Onun jurnalistika sahəsindəki zəngin təcrübəsinin, elmi araşdırmalarının və pedaqoji fəaliyyətinin gənc jurnalistlərin yetişməsində mühüm əhəmiyyət daşıdığı vurğulanıb.

Professorun tələbələri və həmkarları onunla bağlı xatirələrini də səsləndiriblər. Bildirilib ki, Tofiq Rüstəmov tələbələrinə jurnalistikanın yalnız informasiya vasitəsi deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edən mühüm sahə olduğunu aşılayıb.

Sonda professorun övladları Abbas Rüstəmov və Sevinc Məmmədova mərasimin təşkilinə və xoş sözlərə görə razılıq ediblər.

***XQ***

# Bizi gülər üzlə qarşıladı...

## *Quba məzarlığının ən işıqlı məkanında uyuyan müəllimimizin əziz xatirəsinə*

**...Auditoriyaya daxil olub bizimlə salamlaşanda çöhrəsindəki təbəssüm ürək oxşayardı. Onun doğma və isti baxışları göz yaddaşımıza əbədi həkk olunub.**




Ziyalı insan, işıqlı insan. Bir də var dəyər yaradan insan. Bizə görə, dəyər yaradanın fərqi və üstünlüyü sənət yollarını yetirmələrinin davam etdirməsidir. Adı kimi əməli-saleh ziyalı siması yüzlərlə yetirməsinin, jurnalistin, deməli, söz adamının hafizəsində yaşayan Ustadımız Tofiq Rüstəmovdan bəhs edirik. Yəqin müəllimimizin 90 illiyi ilə bağlı oxşar hissləri 40-45 il bundan əvvəl jurnalistika fakültəsinin tələbələri olmaları ilə qürurlanan həmkarlarımız da keçirir.

...Rəqəmlərin paradı diqqətimizi çəkir: müəllimimizin 90 illik yubileyi universitetin jurnalistika fakültəsinə qəbul olunmağımızın 40 illiyi ilə üst-üstə düşür. Təsadüf sayılmaz. Axı "Son iyirmi ildə fakültəmizdə 1020-ci qrup qədər istedadlı qrup olmayıb" sözlərini müəllimimiz və dekanımız Tofiq Rüstəmov 1-ci kursun 1-ci semestri başa çatanda söyləmişdi. Ustadımız bizimlə fəxr edirdi və düşünürük ki, çöhrəsindəki təbəssümün bir səbəbi də bu idi...

Azərbaycan mətbuatının tanınmış simalarından biri – tərcüməçi, jurnalist, professor, əsl ziyalı Tofiq Rüstəmov sözə məsuliyyətlə yanaşan, publisistikanı düşüncə və mövqeyin platforması kimi dəyərləndirən peşəkar idi. Hərtərəfli zəngin yaradıcılığı ilə milli mətbuat tariximizdə özünəməxsus iz qoyan Tofiq Rüstəmov bu incə, yaradıcı peşənin nəzəriyyəsi ilə təcrübəsini şəxsi nümunəsində ən yüksək səviyyədə bir araya gətirib. 1979-1988-ci illərdə BDU-nun jurnalistika fakültəsinin dekanı vəzifəsində çalışan professor Tofiq Rüstəmov uzun illər ədəbi redaktənin nəzəriyyəsi və təcrübəsi sahəsində araşdırmalar aparıb və "Ədəbi redaktənin əsasları" (Bakı, 1975), "Ədəbi redaktə nəzəriyyəsi və təcrübəsi" (Bakı, 1981) dərs vəsaitlərini hazırlayıb. Jurnalistika fakültəsində tərcümə nəzəriyyəsi və praktikası üzrə kursun yaradıcısı, ilk dəfə "Azərbaycanda tərcümə sənəti ənənələri" kursu daxil edilən "Tərcümə nəzəriyyəsi və praktikası" proqramının müəllifi olub.

...Mübaliğəsiz deyə bilərik ki, Tofiq Rüstəmovun milli jurnalistikanın inkişafında əvəzsiz xidmətləri olub. Şəxsi taleyinə gəldikdə isə... İctimai-siyasi təlatümlərlə müşayiət olunan keçən əsrin 90-cı illərində üzləşdiyi ədalətsizlik, öz "şinelindən" çıxmış bəzi mənsəbpərəstlərin haqsızlığı onsuz da kövrək ürəyinin ağrısını bir az da artırmışdı. Tofiq müəllimin gərgin işə və ədalətsizliyə dözməyən ürəyi 1998-ci ilin Ümumxalq Hüzn Günü – Qara Yanvarda döyünməkdən dayandı.

...Quba məzarlığının ən işıqlı guşəsindəki qara mərmərdən üzümüzə həmin təbəssümlü qayğıkeş baxışlar zillənmişdi. Bu unudulmaz məhrəm baxışların qarşısında özümüzü 40 il əvvəlki kimi auditoriyada hiss edirdik. O vaxt olduğu kimi, yenə də üz-üzə, göz-gözə dayanmışdıq.

Tofiq Rüstəmov biz tələbələri üçün hər vaxt dəyər olan böyük sənətkardır. Rahat uyu, Ustad.

***İmran BƏDİRXANLI***
***XQ***

# Şuşada əfsunlu səslər bayramı

**Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə 14-15 may tarixlərində Şuşada keçirilən “Xarıbülbül” IX Beynəlxalq Musiqi Festivalının Çıdır düzündəki açılış konserti uzun illər unutmayacağım dərin təəssüratlar yaratdı. Yəqin, təqdim edilən möhtəşəm musiqilərin, mahir ifaçıların şaqraq səslərinin ovsunundan idi, bir anlıq düşündüm: Şuşa öz mistikası, cazibəsi ilə, bəlkə də, dünyada yeganə şəhərdir ki, onun çəkisini, mənəvi miqyasını sözlərdən daha dolğun, daha sərrast şəkildə məhz səslər ifadə edə bilir.**



Bu izaholunmaz duyğuların ovqatı altında 5 il öncə mayın 12-də azad Şuşada keçirilən “Xarıbülbül” festivalının açılışında cənab Prezidentin dediyi, mənim də tez-tez xatırladığım bir fikir yenidən yadıma düşdü: “Dünyanın çox gözəl şəhərlərini gəzmişəm, amma Şuşaya bənzər şəhər görməmişəm!”

Bu il bənzərsiz şəhərimizə - mədəniyyət paytaxtımız Şuşaya ABŞ, Yaponiya, Türkiyə, Qazaxıstan, Özbəkistan və Türkmənistandan da incəsənət nümayəndələri, musiqi və rəqs kollektivləri gəlmişdilər. Düşünməyə və qürurlanmağa min bir səbəb vardı açılış konsertində. Yapon Kiyoşi Ohiranın sazda “Ruhani” çalması, aşıq Samirə və aşıq Əli ilə birlikdə oxuması, Qazaxıstanın “Turan” Etno-Folklor qrupunun qədim musiqi alətlərində “Laçın” mahnısını ifa etməsi ecazkar mənzərə yaratmışdı.

Son illər sosial şəbəkələrdə məşhurlaşan, sonralar ölkəmizdə və xarici ölkələrdə keçirilən bir sıra rəsmi tədbirlərin iştirakçısı olan Ağdam rayonu Gülablı kənd Uşaq Musiqi Məktəbinin kollektivinin - səs müəllimi Habil Məmmədovun və tələbələrinin ifasında səslənən, yurd sevgisi, nisgil və əzəmətin ahəngini yaradan məşhur “Qarabağ” mahnısını Cıdır düzündə dinləmək bir başqa aləm idi. Səsin itib-batmadığının, ilahi ədalətə əminliyin təntənəsiydi bu ifa!

* * *

Violonçel ifaçısı, beynəlxalq müsabiqələr laureatı Camal Əliyevi ilk dəfə Ankarada dinləmişdim. Onu dünyanın 33 məşhur musiqiçisindən biri sayırlar – elə konsertdə də belə təqdim olundu. O, Xalq artisti Fərhad Bədəlbəylinin “Şuşa” əsərini ifa etdi. Kövrək, hüzn və nisgil dolu əsərin ovqatı tamaşaçıları öz tilsiminə salmışdı. Maestronun ifanı bəyəndiyi və ürəkdən alqışladığı da diqqətdən yayınmadı.

Yeri gəlmişkən, dəfələrlə müşahidə etmişəm, Fərhad Bədəlbəyli həmişə musiqiçiləri ürəkdən alqışlayır. Söhbətlərində də musiqiçinin əsas qazancının tamaşaçı, dinləyici alqışı olduğunu söyləyir və bizim tamaşaçılarımızın soyuqluğundan gileylənir. Maestronun gileyini ilk dəfə eşidəndən sonra bu barədə düşünməyə, çözələyib bunun səbəbini tapmağa çalışmışdım. Bu laqeydliyin kökü haradadır? Niyə biz ifaçıları ürəkdən, coşqu ilə alqışlamağı bacarmırıq? Bu suallar məndə uzun müddət cavabsız qalan bir narahatlığa çevrilmişdi.

* * *

Xalq artisti, Şuşadan millət vəkili Polad Bülbüloğlunun beynəlxalq festivallarda, xüsusilə də Şuşada keçirilən tədbirlərdə ifalarının dərin mənası, bir başqa anlamı var. Polad müəllim bu torpağın köklü sakini kimi dünyanın müxtəlif ölkələrindən gəlmiş qonaqları öz musiqisi ilə salamlayır, onlara “xoş gəldin” deyir.

Bu yerdə bir məqamı qeyd edim: deməli, Bülbülün ata yurdunda - Şuşadakı ev-muzeyinin həyətində bir ağac var. Uşaq vaxtı Bülbül o ağacın budaqlarına çıxıb oxuyarmış. Zaman-zaman əfsanələşən belə xatirələr yaddaşlardan heç vaxt silinmir. Bu gün Şuşada o köklü nəslin ənənəsini davam etdirən Polad Bülbüloğlunun varlığı həm də bu torpaqların kimə məxsusluğunun möhürüdür, neçə qərinəlik tarixin önəmli parçasına çevrilən bir ağacın dərinliklərə işləyən köklərinin və şaxələnən qanadlarının simvoludur. Mən Polad müəllimə - böyük sənətkarımıza möhkəm cansağlığı arzulayıram. Arzu edirəm ki, bir şuşalı, bir qalalı kimi o bundan sonra da uzun illər belə tədbirlərdə öz şuxluğu, şən ifaları ilə tamaşaçıları heyran qoysun.

* * *

Xeyli vaxtdır görünməyən Xalq artisti Tünzalə Ağayeva həmişəki kimi bu dəfə də öz fərqli ifa tərzi ilə seçildi, Xalq artisti Yusif Eyvazovun çıxışı məmnunluq və qürur doğurdu, Əməkdar artistlər - Azər Zadə, Elnarə Məmmədova, Elvin Hoca Qəniyev, Təyyar Bayramovun ifaları dinləyənlərin qəlbini oxşadı.

Sevindirici haldır ki, bu gün bizim istedadlı həmvətənlərimiz dünyanın müxtəlif ölkələrinin nüfuzlu musiqi təsisatlarında layiqincə təmsil olunurlar. “Xarıbülbül” Beynəlxalq Musiqi festivalında onları da görmək, dinləmək xoş idi. Sankt-Peterburq Dövlət Akademik Mariya Teatrının solisti Həmid Abdulov, Düsseldorfda fəaliyyət göstərən “Reyndə Alman Operası” teatrının solisti Mara Hüseynova, eləcə də İsmayıl Zeynalov, Müşfiq Quliyev, Riad Məmmədov öz ifaları ilə festivalın ruhuna yeni çalarlar əlavə etdilər. Türkiyədən Uğur İşılakın ifaları da tədbirə rəng qatdı.

Özbəkistanın “Şodlıq”, Türkmənistanın “Qalkınış” rəqs ansambllarının çıxışları çox yaddaqalan oldu. Özbək rəqqasənin tamaşaçıların alqışları ilə qarşılanan başgicəlləndirici dairəvi rəqsi isə heyrətamiz idi.

Belə rəngarəng, yaddaqalan konsert proqramının ərsəyə gəlməsində əməyi olan hər kəs, şübhəsiz, böyük alqışa və təşəkkürə layiqdir. Azərbaycan Dövlət Rəqs Ansamblının, Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin, Azərbaycan Dövlət Xor Kapellasının, Bakı Xoreoqrafiya Akademiyasının tələbələrinin təqdimatları, Əməkdar artist Eteri Cəfərovanın Xalq artisti Polad Bülbüloğlunun çıxışına rəng qatan rəqsi də xüsusi qeyd olunmalıdır.

Festivalın ilk günü daha bir tədbirlə yadda qaldı - Qazaxıstanın “Turan” Etno-Folklor qrupu Xan qızı Natəvanın sarayının qarşısında maraqlı konsert proqramı ilə çıxış etdi.

Təbii ki, tədbirin aparıcılarını da unutmaq olmaz. Konsertin aparıcıları - Leyla Quliyeva və Tural Əsədovun xüsusi şövqlə, ecazkar və təsirli intonasiya ilə çıxışçıları təqdim etmələri çox diqqətçəkən idi.

Qarabağ Universitetinin İncəsənət fakültəsinin müəllim-tələbə heyətinin “Xarıbülbül” Musiqi Festivalında ayrıca konsert proqramı ilə çıxış etməsi isə xüsusi məna daşıyırdı.

Hələ konsert başlamazdan öncə çoxdan tanıdığım amerikalı musiqiçi Cefri Verbokla səmimi görüşümüz oldu (yeri gəlmişkən, festivalın ilk günü Cefri Şuşa rayonunda xüsusi nümayəndəliyin binasinda “Şuşa, sevgilim” adlı sənədli filmini təqdim etdi). Yapon ifaçı konsertdə saz çalanda gözüm yenə Cefrini axtardı.

Bizim amerikalıya tar, yapona saz çalmağı öyrədəcək gücdə möhtəşəm mədəniyyətimiz var.

* * *

Festivalın ikinci günü də rəngarəng proqramlarla yadda qaldı. Mayın 15-də Xan qızı Natəvanın sarayının qarşısında keçirilən “Romans və mahnı səhəri” adlı ilk konsertdə gənc musiqiçilərin ifasında görkəmli Azərbaycan bəstəkarlarının - Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Arif Məlikov, Cahangir Cahangirov, Tofiq Quliyev, Oqtay Kazımi, Süleyman Ələsgərov və Vasif Adıgözəlovun əsərlərindən nümunələr səsləndirildi. Günün ikinci yarısında isə Azərbaycan, Özbəkistan və Türkmənistan Rəqs ansambllarının iştirakı ilə “Cıdır düzündə rəqs” və Xalq artisti Səkinə İsmayılovanın öz tələbələri ilə birlikdə təqdim etdiyi konsert proqramları nümayiş olundu.

* * *

Təqdimatdan çox şey asılıdır. Planlaşdırılan hər işin ilk uğuru onun təqdimatından başlayır. Bu mənada, ilk təqdimat kimi festivalın məlumat kitabçası da olduqca diqqətçəkən idi. Kitabçada 125 il öncə – hələ 1901-ci ildə Şuşa şəhərində böyük yazıçı-dramaturq, teatr xadimi Əbdürrəhim bəy Haqverdiyevin təşkilatçılığı ilə ilk dəfə “Şərq konserti”nin keçirildiyi vurğulanır, görkəmli mütəfəkkir, pedaqoq, dövrünün tanınmış jurnalisti Əhməd bəy Ağayevin o vaxt “Kaspi” qəzetində yazdığı, “Şərq konserti”ni təqdir edən məqaləsindən sitat gətirilir, eyni zamanda, bu ilin Azərbaycanın bir sıra tanınmış sənətkarlarının - Aşıq Dirili Qurbanın, Aşıq Ələsgərin, Cabbar Qaryağdıoğlunun, Xan Şuşinskinin, Şəmsi Bədəlbəylinin, Cahangir Cahangirovun yubileylərinə təsadüf etdiyi göstərilirdi. “Xarıbülbül” IX Beynəlxalq Musiqi Festivalının təşkilatçılarının incə zövqə malik olduqlarını göstərən bu nüans tədbirin hər addımında hiss olunurdu. Bu məqamlar Şuşaya gəlmiş xarici qonaqların ölkəmizdən gözəl təəssüratlarla və zəngin xatirələrlə qayıdacaqlarına möhkəm əminlik yaradırdı. Əminik yaradırdı ki, indiki informasiya bolluğunda Şuşanın sehri, Cıdır düzünün sirli cazibəsi, musiqimizin şahanəliyi bundan sonra onların yaddaşında uzun illər dipdiri qalacaq və Şuşanın əbədiliyinə şahidlik edəcək.

***Rəşad MƏCİD,***
***Mətbuat Şurasının sədri***

# Ədəbiyyat Muzeyi 1 gündə 3 mindən çox ziyarətçi qəbul edib



**Hər il olduğu kimi, bu il də Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində Beynəlxalq Muzeylər Günü münasibətilə “Açıq qapı” günü keçirilib.**

Ədəbiyyat Muzeyindən verilən məlumata görə, gün ərzində bu elm və mədəniyyət ocağını çoxsaylı orta məktəb şagirdləri, müxtəlif ali məktəblərdən olan müəllim və tələbə heyəti, ölkədə müvəqqəti məskunlaşan əcnəbilər, eləcə də Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində ölkəmizə səfər edən qonaqlar ziyarət ediblər. Onlara Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri, muzeydə yer alan eksponatlar, mühüm ədəbi faktlar barədə ətraflı məlumat verilib. Gün ərzində muzeyə gələnlərin sayı 3278 nəfər olub.

Aksiya vətəndaşların Azərbaycanın milli-mədəni irsi ilə tanışlığına və cəmiyyətin mədəni maarifləndirilməsində muzeylərin rolunun dəstəklənməsinə yönəlib.

***Q.YUSİFOĞLU***
***XQ***

# “Kral Lir” yenidən Bakı səhnəsində



**Bu günlərdə Azərbaycan Akademik Milli Dram Teatrında tamaşaçılar növbəti dəfə Şekspir dühası ilə üz-üzə qalaraq Kral Lirin iztirablarını izlədilər. Həyatın əxlaqi tarazlığının pozulması fonunda baş verən hadisələr seyirçiyə estetik təmizlənmə ab-havası yaşatdı.**

Gürcü rejissoru David Sakvarelidzenin quruluşunda Şekspirin “Kral Lirin faciəsi” əsəri yeni interpretasiyada təqdim olundu və bu ikihissəli post-apokaliptik faciədə hökmranlığın zirvəsindən enmiş insanı həyatla təkbətək qalan vəziyyətdə gördük. Sözsüz, bu yeni təqdimatda əsərin tərcüməçisi və yeni səhnə variantının müəllifi, yazıçı Kamran Nəzirlinin də xüsusi əməyi var. Tamaşanın eskplikasiyası (məzmunun açılması) üzərində işləyən rejissor və yeni səhnə variantının müəllifi dramın janr xüsusiyyətlərinə yeniliklər əlavə ediblər.

Görkəmli aktyor, Xalq artisti Nurəddin Mehdixanlının anadan olmasının 70 illiyinə həsr edilmiş benefis-tamaşa Akademik Teatrın tarixində və ümumən teatr mədəniyyətimizdə bir hadisədir desəm, mübaliğəyə yol vermiş olmaram.

Nurəddin Mehdixanlı Kral Lirin insani faciəsini bütün çalarları ilə canlandırır. Yerlə-göylə əlləşən kralın içində qopan fırtınalar aktyorun möhtəşəm ifasında uğurlu səhnə təcəssümü tapır. Səhnədə şəxsiyyət ikiləşməsinin müxtəlif təzahürləri ilə üzləşirik: öz faciəsi ilə barışmayan, üsyankar Kral və ilahi sükutla üz-üzə qalmış çarəsiz fateh... Mətnin energetikası və plastikası ilə iç-içə olan aktyor Kral Lirə çevrilir. Növbəti bir sənət möcüzəsi!

O, öz krallığını qızları Qonerilya və Reqana arasında bölür, ən sevimli qızı Kordeliya isə həqiqəti söylədiyi üçün mirasdan məhrum edilir. Qonerilya və Reqana isə atalarını qocalmış, gücdən düşmüş zənn edirlər. Qızları tərəfindən biganəliklə qarşılaşan Kral Lirin bədbəxt qocaya çevrilməsi prosesi səhnədə o qədər dinamik surətdə təqdim olunur ki, nəfəs çəkməyə belə ehtiyat edirsən.

Əməkdar artist Münəvvər Əliyevanın Qonerilyası obrazın stixiyasını mükəmməlcəsinə mənimsəyib. Biz səhnədə nankor bir övlad görürük.

İstedadlı aktrisa İlahə Həsənovanın Reqanası da var-dövlət əsiri olan naxələf övlad kimi son dərəcə inandırıcıdır. Onun səhnə hərəkətləri xarakterin açılmasına xidmət edir.

Kordeliya ən həssas obrazdır. O, atası tərəfindən atılmış qızdır. Onun hiss və həyəcanlarını gənc aktrisa Rəbbilə Ələkbərzadə bacarıqla canlandırır. Aktrisanın təbii oyun tərzi tamaşaçıda məmnunluq doğurur.

Sevimli aktyorumuz, Xalq artisti Sabir Məmmədovun ifasında Qraf Qloster Şekspir estetikasını tam mənada özündə əks etdirir. Qraf həqiqəti üzə çıxardığı üçün amansızcasına cəzalandırılır, gözləri çıxarılır. Amma Kral Lirin sözləri ilə desək, dünyadakı həqiqətləri görmək üçün insana təkcə göz gərək deyil. Sabir Məmmədov Qraf Qlosterin xarakterini açmaq üçün ona xüsusi yeriş tapıb və obraz aktyor tapıntıları ilə ətə-qana dolub. Aktyorun “əlvida!” deyərək səhnədən zala tullanması baş verənlərə etirazı kimi yadda qalır.

Edqarın daxilində baş verən təlatümlər geniş potensiala malik aktyor Elnar Qarayevin səhnə plastikasında uğurlu həllini tapır. Əməkdar artist Elşən Rüstəmov Qraf Kent obrazını özünəməxsus çalarlarla təqdim edir. Əməkdar artist Anar Heybətovun Hersoq Kornuolu da heybətli, qorxunc və vahiməlidir. Balaca Kordeliyanı Aylin Həşimova canlandırır. Bu qızcığazın vur-tut 10-12 yaşı ancaq olar, səhnədə sözü yoxdur, amma atası ilə qucaqlaşması dərin təəssürat oyadır.

Tamaşada aktyorlardan Tural İbrahimov (Edmund), Elsevər Kərimov (Təlxək), Elçin Nurəliyev (Hersoq albanı), Əliulla Vəliyev (Fransa Kralı), Rəvan Səmədov (Burqundiya hersoqu), Vüsal Mustafayev (Osvald) və digərləri iştirak edirlər.

Görkəmli gürcü rejissoru David Sakvarelidzenin əsərə yanaşma tərzi tamamilə yenidir və bu fərqlilik hər epizodda görünür. Tamaşanın ikinci rejissoru Anar Babalı, quruluşçu rəssamı Vüsal Rəhim, işıq üzrə rəssamı Rəfael Vaqifoğlu, səhnə döyüşü və plastik həll üzrə rejissoru Bəhruz Vaqifoğludur.

***Kənan HACI,***
***yazıçı-dramaturq***

# Sumqayıtda şəhərsalma mövzusunda görüş






**Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) ilə bağlı Sumqayıt Dövlət Universitetində geniş məlumatlandırma görüşü keçirilib.**

Sumqayıt Şəhər İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər sektorunun müdiri Fərman Kazımov müasir və dayanıqlı şəhərsalma nümunələri məkanı sayılan gənclik şəhərinin yaradılması tarixindən, 77 il ərzində keçdiyi inkişaf mərhələlərindən danışıb. O, Sumqayıtda son illərin şəhərsalma sahəsindəki yeniliklər haqda məlumat verib və WUF13 tədbirinin vacibliyi vurğulanıb.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin nümayəndəsi Ramiz İdrisoğlu ölkəmizdə əldə olunan şəhərsalma nailiyyətlərindən danışaraq, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı quruculuq işlərini xüsusi qeyd edib. O bildirib ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yalnız bərpa deyil, eyni zamanda, müasir standartlara uyğun yeni yaşayış məkanları formalaşdırılır. Artıq 8 şəhərin baş planı, eləcə də 101 kənd və qəsəbənin şəhərsalma əsaslandırılması təsdiqlənib.

WUF13 Azərbaycan Əməliyyat Şirkətinin kommunikasiya üzrə meneceri Emin Hüseynzadə sessiyanın əsas mövzusu və ideyaları barədə ətraflı məlumat verib. O, maraqlananları foruma dəvət edərək bildirib ki, iştirakçılar tədbirə həm əyani, həm də onlayn formada qoşula bilərlər.

Qeyd edək ki, daha öncə mötəbər beynəlxalq tədbirlə bağlı təşkil olunan şəhər festivalları çərçivəsində Sumqayıtdakı “Göyərçin” parkında da interaktiv fəaliyyətlər, maarifləndirici oyunlar, təqdimatlar və ictimai müzakirələr təşkil olunub. Müxtəlif yaş qruplarını əhatə edən tədbirlər sayəsində sakinlər inklüziv şəhər mühiti, innovativ urbanizasiya həlləri kimi aktual mövzular və gələcəyin yaşayış məkanları ilə bağlı maraqlı bilgilər qazanıblar.

***Ə.ƏLİYEV***
***XQ***

# Böyük Britaniya niyə "dağılır"?

**Ötən həftə Britaniyanın "Unherd" nəşrində işıq üzü görən "Böyük Britaniyanın dağılmasını heç nə dayandıra bilməz" başlıqlı məqalədə müəllif Aris Russinos yazır: "Britaniya yavaş-yavaş, lakin həqiqətən dövlətin süqutuna doğru irəliləyir. İngilis xalqı ilə Vestminsterin təmsil etdiyi hakimiyyət orqanları arasındakı uçurum günü-gündən dərinləşir və Starmerin iki illik baş nazirliyi bu prosesi daha da ağırlaşdırır".**



"Unherd" bu fikirdə olan yeganə mətbuat orqanı deyil. Məsələn, İngiltərənin başqa bir nəşri – "The i Paper" də yazır ki, "Britaniya hökuməti ölkənin idarəetmə sükanını itirib". "Britaniyada on ildə altı baş nazir dəyişib və hazırkı baş nazir Starmer də vəzifəsini itirmək üzrədir. Siyasətçilər və seçicilər arasında dərin bir uçurum yaranıb. Görünən odur ki, ölkə sadəcə, xaosa yuvarlanır". Krallıqda baş verən son hadisələr, həqiqətən, yaxşı bir şey vəd etmir.

Dünya ölkələrinin aparıcı nəşrləri hökumət mənbələrinə istinadən xəbər verirlər ki, Britaniyanın Baş naziri Kir Starmer də vəzifəsindən istefa vermək qərarına gəlib. Mənbələr bildirirlər ki, Starmer hazırkı siyasi reallıqları yaxşı başa düşür və ölkədəki "mövcud xaosun" belə davam edə bilməyəcəyini anlayır. "Daily Mail" qəzetinin köşə yazarı Den Hojes yazır ki, hökumət Starmerin partiyasından olan nazirlər arasında istefa dalğası ilə sarsıldığından, baş nazir "qaçılmaz olanı qəbul etməli olacağını" anlamağa başlayıb.

Ekspertlər xüsusi vurğulayırlar ki, ölkədə gedən proseslər fonunda Starmerin getmə ehtimalı həqiqətən yüksəkdir. Bu onu göstərir ki, Böyük Britaniyada baş nazirin tez-tez dəyişməsi artıq təəccüblü deyil və ölkənin siyasi sistemində dərin böhran olduğunun göstəricisidir. Bəs, dünyanın qocaman ölkələrindən birində böhranın dərinləşməsi deyəndə, nələr nəzərdə tutulur?

Xatırladaq ki, bu il mayın 7-də keçirilən yerli hökumət seçkilərindən sonra Böyük Britaniyada siyasi böhran baş verdi. Seçki prosesi nəticəsində Leyborist Partiyası ilk dəfə Uels Parlamentində nəzarəti itirdi. Starmer seçkilərdəki məğlubiyyətə görə məsuliyyəti öz üzərinə götürdü, lakin leyboristlərin lideri baş nazir vəzifəsindən istefa verməkdən imtina etdi. Buna baxmayaraq, yerli seçkilərdə leyboristlərin məğlubiyyətindən sonra deputatların da əksəriyyəti Starmeri istefa verməyə çağırıblar. Hətta səhiyyə naziri Ues Stritinq də daxil olmaqla bir neçə məmur baş nazirə etiraz olaraq istefa verib.

Maraqlıdır, bəs ölkəni Starmerin istefasına çağırışlarla çalxalamağa gətirib çıxaran nədir? Xatırlayırsınızsa, 2 ildən az bir müddət əvvəl Kir Starmer ölkəni populizmdən qurtaracağına söz verərək Britaniyanın Baş naziri seçilmişdi. Leyboristlərin lideri Starmerin məqsədi Fransa prezidenti Emmanuel Makron və Almaniya kansleri Fridrix Merts kimi, balanslı və ağıllı siyasətin, demaqoqların boş vədlərindən daha dəyərli olduğunu sübut etmək idi.

Lakin ötən həftə Britaniya baş nazirinin bu istəkləri çox acınacaqlı uğursuzluğa düçar oldu. Mayın 7-də İngiltərədə yerli şura seçkilərində, Şotlandiya və Uels parlamentlərində Leyborist Partiyasının məğlubiyyəti, onun parlament fraksiyasında qarışıqlığa səbəb oldu. Bir çox politoloqlar qeyd edirlər ki, Starmer indi baş nazir vəzifəsi üçün ən azı ciddi bir namizədin ortaya çıxması ilə üzləşib və onun istefası Böyük Britaniyanın maraqları naminə çox vacib addım olardı.

Makron, Merts və Starmer kimi "hörmətli" siyasətçilər üçün rəy sorğularının acınacaqlı nəticələrinə nəzər salsaq, görərik ki, Avropa sosial demokratiyaları idarəolunmaz bir hala gəlib. Bir tərəfdən aşağı iqtisadi artım, yüksək vergilər və dövlət borcu, digər tərəfdən isə dövlət xərclərinin artırılması tələbləri arasında qalan çaşqın mərkəzçilər nə dəyişiklik edə, nə də həm sağ, həm də sol tərəfdən gələn populist çağırışları dəf edə bilirlər. Bu, 6 ildə 5 hökumət başçısının dəyişdiyi Brexitdən sonrakı Britaniyada özünü daha aydın göstərir.

İngiltərənin "The Economist" qəzeti yazır ki, "Britaniya baş nazirləri demək olar ki, "Çelsi" futbol klubunun məşqçiləri kimi tez-tez gəlib-gedirlər. Bu fonda Baş nazirin iqamətgahında rəsmi siçan tutan Larri pişiyi daha çox sabitlik simvolu kimi görünür".

Son illər ölkənin iqtisadi problemləri həqiqətən Baş nazirlər üçün başağrısına çevrilib. Belə ki, son 20 ildə Böyük Britaniyada real əməkhaqqı çox çətinliklə artır. Buna əsas səbəblərdən biri kimi Brexit göstərilir. Araşdırmalar göstərir ki, Avropa Birliyindən və onun 18 trilyon dollarlıq vahid bazarından çıxmaq Böyük Britaniyanın adambaşına düşən ÜDM-in 4-8 faiz azalmasına səbəb olub. Yerli sakinlər arasında narazılıq yaratmaqdan qorxan hökumətlər məhsuldarlıq artımının xroniki hala çevrilməsi probleminin qarşısını ala bilməyiblər. 2008-2023-cü illər arasında ABŞ-da işləyənlərin 1 saatlıq məhsuldarlığı 21 faiz artdığı halda, Böyük Britaniyada bu, cəmi 7 faiz təşkil edib.

Siyasi problemlər Starmerin vəziyyətini daha da ağırlaşdırıb. Nəşrlərdən biri yazır: "Baş nazir nüfuz və düşüncə aydınlığına malik olmalıdır. Lakin Starmerin heç birinə sahib olmadığı ortadadır. O, öz konsepsiyasını formalaşdırmalıdır, amma sanki onda belə bir şey yoxdur". Həqiqətən, XXI əsr siyasəti o qədər mürəkkəbdir ki, seçicilər seçdikləri baş nazirlərin düzgün insanları təyin etmək, faktları ölçmək və ağlabatan qərarlar qəbul etmək üçün intuisiyaya malik olduğuna əminlik istəyirlər. Lakin ingilis seçicilər artıq Kir Starmeri çox yaxşı tanıyırlar. Bu ay keçirilən seçkilərdən sonra "YouGov"un apardığı sorğu göstərib ki, respondentlərin yalnız 29 faizi hazırkı baş nazirin vəzifədə qalmasını istəyir. Leyborist partiyasından olan deputatlar panikaya düşüblər və nizamsız bir dəstəyə bənzəyirlər.

Ötən şənbə günü Londonun mərkəzində yürüşə çıxan 10 minlərlə etirazçının, ifrat sağçı fəal Tommi Robinsonun ardınca, "Starmerə lənət olsun!" şüarları səsləndirməsi isə vəziyyətin getdikcə gərginləşdiyini nümayiş etdirir. "Krallığı birləşdirək" şüarı ilə keçən mitinqində təxminən 50 min nəfər iştirak edib. 4 min polis əməkdaşı isə bu mitinqçilərin Fələstin tərəfdarı olan etirazçıların paralel yürüşü ilə toqquşmaların qarşısını almaq üçün "steril" kordon saxlayıblar.

Polis Yuston, Kinqs-Kross və Sent-Pankras dəmiryolu stansiyalarında real vaxt rejimində üztanıma kameralarından istifadə edərək bir sıra həbslər həyata keçirib. Paytaxt polisi əməliyyatı son illərdə həyata keçirilən ən böyük ictimai-təhlükəsizlik tədbirlərindən biri kimi qiymətləndirib və buna təxminən 4,5 milyon funt sterlinq vəsait xərcləndiyini bildirib.

Xüsusi geyimdə olan polislərlə yanaşı, zirehli maşınlar, atlar, itlər, dronlar və helikopterlər də qaydaların qorunmasına cəlb edilib. Nümayişçilər əllərində Britaniya bayraqları Kinqsvaydan Uaythol küçəsilə Parlament meydanına doğru yürüş edərkən Starmerin əleyhinə şüarlar səslədiriblər. Mitinq iştirakçıları arasında xristian simvolikaları daşıyanlar da olub: taxta xaçlar daşıyan bir çox insanlar "Məsih kraldır" şüarları səsləndirib, digərləri isə "İsa yolu göstərir" sözləri yazılmış plakatlar tutublar.

Günün sonuna qədər 31 nəfər həbs olunub. Polis rəqəmin "yüksək görünə biləcəyini" etiraf etmiş, lakin hər iki etiraz mitinqinin "ciddi hadisələr olmadan" keçdiyini vurğulayıb.

Bütün bunlara nəzərən, Starmerin vəzifədə qalması ilə bağlı risklər getdikcə artır. Növbəti böhrana və ya ondan sonra yaranacaq hər hansı bir vəziyyətə qədər onun rəqiblərinə qarşı öz mövqeyini qoruya bilib-bilməməsi aydın olacaq. Belə olarsa, bir çox deputatların iradəsinə zidd olaraq hakimiyyəti əlində saxlayan baş nazir kimi, Starmer daha solçu kurs tutmalı olacaq. Leyboristlərin liderləri başa düşürlər ki, onların partiyası və ölkəsi inkişafa ehtiyac duyur. Bu gün siyasətçilər üçün milli inkişaf kursunu seçmək və davam etdirmək daha vacibdir. Liderlik yarışması bu tələblərə ən yaxşı cavab verən namizədləri müəyyənləşdirməyə yalnız kömək edə bilərdi.

"The Economist" qəzeti yazır: Hazırda Britaniya iki yolla üzləşib: yenilənmə şansı və ya aşağıya doğru çəkib aparan spiral. Starmerin yerinə kim gəlir gəlsin, parlament çoxluğunu, daha 3 il hakimiyyətdə qalmağı və sadiq siçan tutan pişiyi miras alacaq. Ölkənin problemlərini həll etmək olar. Britaniya aktivləri olduqca ucuzdur. Seçicilər dəyişiklik istəyirlər. Leyboristlər daxili mübarizə bataqlığına düşə bilərlər, amma bu, onların sonu olacaq".

Ekspertlər isə yazır ki, alternativ qaranlıq görünür. Bu həftə sonu London küçələrində "İslam işğalına" müqavimət çağırışı edən fəal Tommi Robinsonu dəstəkləmək üçün böyük izdihamın olacağı gözlənilir. Britaniyanın tolerant və çoxmədəniyyətli cəmiyyət modeli kimi nüfuzu zəifləməyə başlayıb. "Fələstini azad et" şüarı altında antisemitizmdən tutmuş, "Britaniya dəyərlərini xilas et" şüarı altında müsəlmanlarla toqquşmalara qədər, xurafat hadisələri daha tez-tez baş verir. Əgər mərkəzçilər uğursuzluğa düçar olsa, demaqoqlar və şarlatanlar növbəti ümumi seçkilərdə qalib gələcəklər. O zaman Britaniya həqiqətən idarəolunmaz hala gələcək.

***Hazırladı:***
***İlqar RÜSTƏMOV***
***XQ***

**Bolnisi rayonunda fəaliyyət göstərən Qafqaz Hüquq və İnteqrasiya Mərkəzində 19 May – Atatürkü Anma, Gənclər və İdman Günü münasibətilə anım tədbiri keçirilib. Tədbir çərçivəsində təşkil olumuş "1919, 19 Mayıs" adlı foto və rəsm sərgisi nümayiş etdirilib. Sərgidə rəssamlar Qəşəm Süleymanov və Xəyalə İsmayılovanın Mustafa Kamal Atatürk, Türkiyənin istiqlal mübarizəsi, milli ruh və qardaşlıq mövzularını əks etdirən rəsm əsərləri sərgilənib.**

# Bolnisidə Atatürk anılıb



Tədbir Azərbaycan, Gürcüstan və Türkiyə Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin, eləcə də Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürk və onun silahdaşlarının əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Daha sonra "1919, 19 Mayıs" adlı qısametrajlı sənədli film nümayiş etdirilib. Filmdə 1919-cu ilin 19 may tarixinin Türkiyə tarixindəki əhəmiyyəti, Atatürkün Samsuna çıxışı və Türkiyənin milli azadlıq mübarizəsinin başlanğıcı haqqında ətraflı məlumat verilib.

Tədbirdə çıxış edən Qafqaz Hüquq və İnteqrasiya Mərkəzinin direktoru Rezo Həsənov 19 May tarixinin Türk dünyası üçün önəmindən danışaraq, Türkiyə ilə Gürcüstan arasındakı dostluq və strateji tərəfdaşlıq münasibətlərinin əhəmiyyətini qeyd edib.

Filologiya elmləri doktoru, professor Şurəddin Məmmədli 1919-cu ilin 19 may tarixindən, Türkiyənin keçdiyi çətin və şərəfli mübarizə yolundan bəhs edib. O, Mustafa Kamal Atatürkün liderliyi ilə başlanan istiqlal hərəkatının yalnız Türkiyə üçün deyil, bütün Türk dünyası üçün mühüm tarixi dönüş nöqtəsi olduğunu vurğulayıb. Professor, eyni zamanda Gürcüstan və Türkiyə arasında formalaşmış tarixi və mədəni əlaqələr haqqında da ətraflı məlumat verib.

Çıxış edənlərdən sabiq deputat Ramiz Bəkirov, UİD Gürcüstan təşkilatının üzvü Balabəy Allahyarov, Kəpənəkçi ictimai məktəbinin müəllimi Çingizxan Yaqubov, Abdallı ictimai məktəbindən Söhrab müəllim, Dəllər ictimai məktəbinin əməkdaşı Natəvan Mehdiyeva, eləcə də rəssamlar Qəşəm Süleymanov və Xəyalə Mustafayeva 19 Mayın türk gəncliyi üçün əhəmiyyətindən, Atatürkün ideyalarının bu gün də aktuallığını qorumasından, Azərbaycan–Türkiyə qardaşlığından və gənclərin milli-mənəvi dəyərlər ruhunda formalaşdırılmasının vacibliyindən danışıblar.



Tədbir çərçivəsində mərkəzin könüllülərindən Sona Namazova "Cümhuriyyət" şeirini səsləndirib, Şarabanı Nənəcanova isə 19 Mayın gənclər üçün daşıdığı mənəvi dəyəri vurğulayıb.

***Paşa ƏMİRCANOV***
***XQ***


## "Quba konserv-2" ASC səhmdarlarının nəzərinə!

Səhmdarların növbəti ümumi yığıncağı 30 iyun 2026-cı il saat 11-00-da Quba şəhəri, Vaqif küçəsi 139 nömrəli ünvanda "Quba konserv-2" ASC-də keçiriləcəkdir.

**Gündəlikdəki məsələ:**

**1.** Cəmiyyətin illik idarəetmə hesabatının, balansının, mənfəət və zərər hesabatlarının təsdiqi.

Səhmdar ümumi yığıncaqda iştirak hüququnu bilavasitə özü və ya nümayəndəsi vasitəsilə həyata keçirə bilər. Bu zaman səhmdarın nümayəndəsi qanunvericiliklə müəyyən edilmiş etibarnaməyə malik olmalıdır.

Ümumi yığıncaqda iştirak edən səhmdar və ya nümayəndəsi şəxsiyyətini təsdiq edən sənədin əslini (nümayəndə olduqda isə etibarnaməsinin notarial təsdiqlənmiş surətini) təqdim etməlidir.

***Direktor: T.BAYRAMOV***


# ABŞ – Çin dialoqu qlobal mediada

## *Tərəflər bir sıra məsələlərdə konsensusa gəliblər*

**ABŞ Prezidenti Donald Trampın Çinə səfəri beynəlxalq mediada geniş rezonans doğurub. Həm ABŞ, həm də Çin mediası səfəri müxtəlif prizmalardan təqdim edirlər. Amerika mənbələri əsasən geosiyasi risklər, iqtisadi balans üzərində fokuslanırsa, Çin mediası səfəri tarixi dönüş nöqtəsi və strateji sabitləşmə kimi qələmə verir.**

**"The Wall Street Journal"** qeyd edib ki, görüşlərin gündəliyindəki əsas mövzu Çin bazarının ABŞ şirkətləri üçün açılması, kənd təsərrüfatı məhsullarının idxalı və yeni investisiya mexanizmləri olub. Nəşrin məlumatına görə, Vaşinqton Pekindən daha çox Amerika məhsulu almasını istəyir.

**"The Washington Post"** sammiti ABŞ və Çinin bərabər supergüc nümayişi adlandırıb. Qəzet yazıb ki, Pekin görüşün simvolikasından istifadə edərək Çinin artıq Vaşinqtonla eyni səviyyədə qlobal güc olduğunu göstərib. Nəşr, eyni zamanda "G-2" ritorikasının Asiya müttəfiqlərində narahatlıq yaratdığını vurğulayıb.

**"Reuters"** qeyd edib ki, ABŞ maliyyə naziri Skott Bessent Çinə səfəri zamanı böyük həcmdə "Boeing" təyyarələrinin alınması barədə razılaşma gözlədiklərini bildirib. Agentlik yazıb ki, Vaşinqton Çinlə ticarət balansını ixracın artırılması hesabına dəyişmək istəyir.

**"Associated Press"** yazıb ki, tərəflər münasibətləri sabitləşdirmək barədə danışsalar da, Tayvan, İran və texnologiya müharibəsi kimi əsas ziddiyyətlər hələ də qalmaqdadır. Agentliyin məlumatına görə, görüşlərdə yumşaq diplomatik atmosfer yaradılıb, lakin strateji fikir ayrılıqları aradan qalxmayıb.

**"CNN"** və digər media platformalarında əsas diqqət Trampın Çin investisiyalarına açıq mesajlar verməsinə yönəlib. ABŞ mediasında bunun Amerika daxilində siyasi mübahisələr doğura biləcəyi vurğulanır.

Çinin rəsmi mediası səfəri "tarixi və simvolik hadisə" adlandırıb.

**"Sinxua"** agentliyi yazıb ki, Pekində keçirilən yüksək səviyyəli görüşdə ABŞ və Çin dünyanın ən böyük iki iqtisadi gücü kimi təqdim olunub. Liderlər qlobal problemlərin həllində birgə məsuliyyət daşıdıqlarını və dialoqu davam etdirməyin vacibliyini qeyd ediblər.

**"Global Times"** yazıb ki, Vaşinqton və Pekin arasında strateji rəqabət davam etsə də, tərəflər idarə olunan əməkdaşlıq modelinə yaxınlaşır. Qəzetə görə, iqtisadi sabitlik və ticarət balansı iki ölkə arasında əsas gündəm olaraq qalır.

**"CCTV"** və digər dövlət resurslarında Trampın Pekində yüksək səviyyəli qarşılanması, Tyan Tan məbədinə səfəri və Çjunnanhay iqamətgahındakı görüşlər xüsusi vurğulanıb.



**"Zaobao"** yazıb ki, Tramp və Si Cinpin İran məsələsində oxşar mövqe nümayiş etdiriblər və Hörmüz boğazında sabitliyin qorunmasını müzakirə ediblər. Çin mediası xüsusilə Trampın "çox yaxşı ticarət razılaşmaları əldə etdik" açıqlamasını ön plana çıxarıb.

Çin dilində yayımlanan **"Voice of America Chinese"** qeyd edib ki, Tramp Çjunnanhayda keçirilən görüşlər zamanı ABŞ və Çin arasında İran məsələsində ciddi yaxınlaşma olub.

Yeri gəlmişkən, Ağ Ev Donald Trampın Çinə səfəri çərçivəsində bir sıra strateji və iqtisadi məsələlər üzrə ümumi razılığa gəlindiyi barədə məlumat yayıb. Məlumata əsasən, liderlər ABŞ–Çin münasibətlərinin ədalət və qarşılıqlı fayda prinsipləri əsasında inkişaf etməli olduğunu vurğulayıblar. Tramp Si Cinpini payızda Vaşinqtona səfərə dəvət edib. Eyni zamanda, iki ölkənin "G20" və "APEC" sammitlərinə ev sahibliyi prosesində qarşılıqlı dəstək verəcəyi bildirilib. Görüşdə İranın nüvə silahına sahib olmaması ilə bağlı ortaq mövqe də ifadə olunub. Şimali Koreyanın nüvəsizləşdirilməsi hədəfi də hər iki lider tərəfindən bir daha təsdiqlənib. Səfər çərçivəsində ABŞ–Çin Ticarət Şurası və ABŞ–Çin İnvestisiya Şurası yaradılıb. Bu institutların məqsədi ikitərəfli iqtisadi münasibətləri daha səmərəli şəkildə idarə etməkdir. Pekin nadir torpaq elementləri və kritik minerallarla bağlı təchizat problemini də həll etməyə razılaşıb. Çin, həmçinin 200 ədəd "Boeing" təyyarəsinin alınmasını təsdiqləyib.

İki ölkə liderinin görüşü çərçivəsində 2026–2028-ci illər üçün hər il ən azı 17 milyard dollarlıq ABŞ kənd təsərrüfatı məhsullarının alınacağı barədə razılıq əldə olunub. ABŞ-ın mal əti məhsulları üçün Çin bazarına girişi yenidən bərpa olunub. Eyni zamanda, ABŞ-a quş ətinin idxalı üzrə məhdudiyyətlər də yumşaldılıb.

***Hazırladı:***
***N.BEYDİYEVA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 87 (31056) 19 may 2026-cı il, çərşənbə axşamı

## İDMAN

## U17 cüdo millimiz Avropa qalibidir




**Polşanın Bielsko-Biala şəhərində keçirilən cüdo üzrə yeniyetmələr arasında Avropa Kuboku başa çatıb.**

Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, son yarış günündə milli komandamız aktivinə daha 5 medal yazdırıb. Cüdoçularımız 2 gümüş və 3 bürünc mükafat qazanıblar. Sadiq Məmmədov (73 kq) və Ayxan Həsənli (81 kq) yarışı ikinci pillədə tamamlayaraq gümüş medala sahib çıxıblar. Yusuf Nəzər (73 kq), Yaqub Məmmədov (81 kq) və Nurəddin Əliyev (90 kq) isə bürünc medal əldə ediblər.

Xatırladaq ki, ilk yarış günündə İbrahim Talıbov (55 kq), Könül Eyvazlı (48 kq) qızıl, İlkin Qarayev (66 kq), Zəhra Quliyeva (40 kq) gümüş, Nihad Ağayev (50 kq), Rza Xəlilli (55 kq), Mehman Əsgərov (60 kq) və Pərvin Sevxanlı (44 kq) bürünc medala yiyələniblər. Azərbaycan yığması turniri 2 qızıl, 4 gümüş və 7 bürünc medalla başa vuraraq ümumi komanda hesabında birinci yeri tutub.

## Samokovda 3 qızıl, 1 gümüş və 3 bürünc




**Bolqarıstanın Samokov şəhərində keçirilən U17 Avropa çempionatına yekun vurulub.**

Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, sərbəst güləş üzrə millimiz uğurlu çıxış edərək 3 qızıl, 1 gümüş və 3 bürünc medal qazanıb. Yekunda 156 xal toplayan yığmamız çempion olan Rusiyadan cəmi 7 xal geri qalmaqla komanda hesabında Avropa 2-cisi olub. Gürcüstan 124 xalla ilk "3-lüy"ü qapayıb.

Xatırladaq ki, böyük məşqçi Əsgərxan Novruzov, məşqçilər Vahid Məmmədov, Yaşar Əliyev və Allahverdi Vəliyevin rəhbərliyi altında Hüseyn Rzazadə (48 kq), İbrahim Həsənov (51 kq) və Nihad Süleymanlı (80 kq) Avropa çempionu olub. Rəşid Nazarov (65 kq) gümüş, Tunar Həsənov (45 kq), Abbas Şəfiyev (55 kq) və Hakim Tağıyev (110 kq) isə bürünc medal qazanıb.

## Türkdilli ölkələrin şahmat çempionatı



**Qazaxıstanın Astana şəhərində türkdilli ölkələrin şahmat çempionatının bağlanış mərasimi keçirilib.**

Mərasimdə türkdilli ölkələr arasında kişi və qadın komandaların çempionatı, eləcə də 16 yaşadək yeniyetmələrin olimpiadasının yekun nəticəsi açıqlanıb.

Azərbaycan Şahmat Federasiyasından verilən məlumata görə, şahmatçılarımız yarışı 2 qızıl və 1 bürünc medalla başa vurublar.

Mükafatlandırma mərasimində həm də löhvələr üzrə yüksək nəticə göstərən şahmatçılar elan olunub. Təmsilçilərimizdən Gövhər Beydullayeva, Xanım Balacayeva, Gülnar Məmmədova, Xaqan Əhməd, Paşam Əlizadə, Murad İbrahimli qızıl, Əhməd Əhmədzadə gümüş, Misrətdin İskəndərov və Şiroğlan Talıbov isə bürünc medala layiq görülüblər.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Memarlıq tariximizdən*

# İçərişəhər - orta əsrlər Azərbaycan şəhəri

**Bakının qədim ruhunu yaşadan İçərişəhər əsrlərin yaddaşını qoruyan müqəddəs məkanlardan biridir. Buraya qədəm qoyan hər kəs sanki zamanın içi ilə yol gedir. Dar küçələr, daş divarlar, eyvanlardan sallanan güllər, karvansaralar, məscidlər və qala divarları insanı orta əsrlərin sehrli dünyasına aparır. İçərişəhərin hər daşında bir tarix, hər küçəsində bir ömür yaşayır. Elə buna görə də yolumuzu yenidən bu qədim məkandan saldıq.**



1985-ci ildə Dövlət Tarix-Memarlıq Qoruğu elan edilən İçərişəhərin üç əsas darvazası var - Şamaxı darvazası, Salyan darvazası və dəniz sahilinə açılan darvaza. Əsas girişlərdən biri Qoşa Qala qapısıdır ki, buna Şamaxı darvazası deyilir. Qoşa Qala qapısından içəri daxil olan kimi qarşımızda geniş bir meydan açılır. Meydanın sol tərəfində XVIII əsrin memarlıq abidəsi olan Bakı xanlarının iqamətgahının qalıqları var. Onun bizim dövrümüzə gəlib çatmış tağ formalı giriş qapısı üzərində iqamətgahın tikilmə tarixini əks etdirən kitabə var.

İçərişəhərin dolanbac küçələri ilə addımlayarkən qədim evlərin birinin eyvanında maraqlı mənzərə diqqətimizi çəkdi. Ahıl bir kişi eyvanda idman velosipedində oturub asta-asta məşq edirdi. Günəş şüaları daş divarlara düşür, əsrlərin şahidi olan küçələrdə sakitlik hökm sürürdü. Ağsaqqalın nurani siması, sakit baxışları və təmkinli davranışı sanki bu qədim şəhərin özü ilə vəhdət təşkil edirdi.




Aşağıdan salam verdik. O da gülümsəyərək əl salladı. İçərişəhər haqqında yazı hazırladığımızı deyəndə mehribanlıqla bizi evinə dəvət etdi.

**Özünü Həsənov Hamlet Həbib oğlu kimi təqdim edən ağsaqqal bildirdi ki, əslən İrəvan şəhərindəndir və 1978-ci ildən İçərişəhərdə yaşayır:**

– "1939-cu ildə İrəvanda anadan olmuşam. Evimiz Təpəbaşı məscidinin yaxınlığında yerləşirdi. Uşaqlığım orada keçib. 1948-ci ildə azərbaycanlıların deportasiyası zamanı ailəmizlə birlikdə Azərbaycana köçürüldük. Beyləqan rayonunda məskunlaşdıq".

Uzun illər Beyləqanın Bahar qəsəbəsində rus dili və ədəbiyyatı müəllimi işləyən həmsöhbətimiz sonralar müxtəlif mətbuat orqanlarında publisistik yazılarla çıxış etdiyini bildirdi:

– "1992–2014-cü illərdə T.İsmayılov adına Uşaq və Gənclər Sarayında foto laboratoriyanın müdiri işləmişəm, dövlət tədbirlərində fotomüxbir kimi fəaliyyət göstərmişəm. Ulu öndər Heydər Əliyevin uşaq və gənclərlə bağlı tədbirlərdə çəkdiyim fotolar uzun illər qəzet və jurnallarda dərc olunub".

İndi gəlin əsas mövzumuza qayıdaq deyən Hamlet dayının İçərişəhərdən danışarkən gözlərində sanki bir işıq yaranırdı: "Bu şəhər mənə o qədər doğmadır ki, elə bilirəm burada doğulmuşam. Dünyanın heç bir gözəl guşəsi İçərişəhəri əvəz edə bilməz. Burada insan daşlarla belə ünsiyyət qurur".

Doğrudan da, qala darvazasından içəri ayaq qoyanda sanki başqa bir aləmə – orta əsrlər şəhərinə düşürsən. Burada yaşadığım uzun illərdə İçərişəhərin tarixi ilə daim maraqlanmışam. Ərazisi 22 hektar olan qədim şəhər bütövlükdə heyrətamiz bir şəhərsalma mədəniyyəti nümunəsidir.

Burada küçələrin dar və dolanbac olması da əbəs yerə deyil. Bu ona görə belədir ki, düşmən süvariləri küçə və dalanlara girə bilməsinlər. Çünki belə dar yerdə atların sürətlə hərəkət etməsi və idarə olunması mümkün deyil.

Nabələd adam burada tez bir zamanda aza bilər. Yolu səhv saldınsa, bir nöqtə ətrafında fırlana-fırlana qalırsan. Bir də görürsən ki, yenə əvvəlki yerə gəlib çıxmısan. Bu şəhərin altında ayrıca bir dünya var imiş. Deyilənlərə görə, İçərişəhərdəki ovdanların gizli yolları Maştağaya qədər gedib çıxırmış. Ovdanlar əsasən süxur və kəhriz sularını toplamaq və saxlamaq üçün yeraltı qurğular olub. Onlar torpaqda qazılmış, yaxud bərk süxurlarda oyulmuş pillələrlə düşülən maili quyulardır. Quyunun qurtaracağında kəhriz sularının toplandığı çarhovuz olur. Ovdanların və içməli su quyularının tikilməsi Azərbaycanda nəcib və xeyirxah iş sayılarmış. Belə ovdanlar əsasən İçərişəhərdə Şirvanşahlar sarayının və keçmiş gömrükxananın yaxınlığında olub. Təəssüf ki, bu ovdanlar dövrümüzədək qalmayıb.

İçərişəhərdən çoxlu yeraltı yollar keçir. Vaxtilə bu yollardan birinin hətcəkdə də arxeoloqlar və tədqiqatçılar İçərişəhərin gizlində qalan daha neçə tarixi sirrini aşkarlayacaqlar. Çünki İçərişəhər qədim memarlıq nümunələri, həm də dərin tarixi qatları və açılmamış sirləri ilə seçilən nadir məkanlardan biridir.

Artıq axşam düşməsinə baxmayaraq, küçələrdə canlılıq hiss olunur, qədim şəhərin işıqları isə xüsusi gözəllik yaradırdı. Türk dilində danışan bir turist diqqətimizi çəkdi. Turistə yaxınlaşıb təəssüratlarını soruşduq. **Türkiyənin İstanbul şəhərindən gələn turist Mehmet Arslan** İçərişəhərin tarixi atmosferindən və insanların qonaqpərvərliyindən çox təsirləndiyini bildirdi. Qeyd etdi ki, Bakıya artıq ikinci dəfədir gəlir və hər səfərində məhz İçərişəhərdə qalmağa çalışır: "Çünki Bakının əsl ruhu burada yaşayır. Səhər qədim küçələrdə gəzmək, samovar çayı içmək, daş divarların arasında Azərbaycan musiqisini eşitmək tamam başqa hissdir.

İçərişəhərin ən böyük fərqi qədimliklə həyatın iç-içə olmasıdır. Bir




tərəfdə əsrlərlə yaşı olan qala divarı görürsən, digər tərəfdə insanlar gündəlik həyatını yaşayır. Bu, çox nadir hissdir.

Həqiqətən də, İçərişəhər bir gün belə turistsiz olmur. İnsanları bura çəkən yalnız qədim memarlıq deyil. Burada tarix yaşayır, nəfəs alır. Divarlar danışır, küçələr keçmişin səsini insanlara çatdırır.

ta 20-30 kilometr uzaqlıqda yerləşən Mərdəkana gedib çıxdığı da deyilirdi. Şəhərdə məşhur hamamlar da olub. Onlardan biri Ağa Mikayıl hamamıdır ki, ona xalq arasında Məşədi İbad hamamı deyilir. Salyan darvazası önündəki Qasım bəy hamamı da öz gözəl quruluşu ilə görənləri heyran edir.

Ağsaqqal sözlərinə onu da əlavə etdi ki, İçərişəhər tarixən ayrı-ayrı məhəllələrdən ibarət olub: Ağşalvarlılar, Arabaçılar, Hamamçılar, Seyidlər. Son üçü adından məlumdur. Ağşalvarlılar isə deyilənə görə, nəsillikcə dənizçiliklə məşğul olanların məskunlaşdığı yerə verilmiş addır.

İçərişəhəri xalq arasında həm də "Qala" və ya sadəcə "Qədim şəhər" adlandırırlar. Bir sözlə, Bakının ən qədim hissəsi olan İçərişəhərin tarixi haqqında nə qədər danışsaq da bitməyəcək.

Bəlkə də İçərişəhərin əsrlərə söykənən tarixində hələ də sirli qalan neçə-neçə möcüzə yaşayır. Bu qədim məkan əsrlər boyu müxtəlif sivilizasiyaların izlərini qoruyub saxlayıb və aparılan arxeoloji araşdırmalar burada keçmişə aid yeni faktların üzə çıxmasına səbəb olub. İnanırıq ki, gələ-

Bu qədim şəhər həm də müasir şəhərsalma baxımından mühüm nümunə hesab olunur. Bu baxımdan 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan olunması və BMT-nin Dünya Şəhərsalma Forumu - WUF13-ün Bakıda keçirilməsi təsadüfi deyil.

İçərişəhər əsrlər əvvəl formalaşmış şəhər modelinin bu gün də yaşadığını dünyaya göstərir. Burada tarixi irsin qorunması ilə müasir həyat bir-birini tamamlayır. Küçələrin quruluşu, yaşayış məhəllələrinin planı, ictimai məkanların təşkili bu gün urbanistlər üçün mühüm araşdırma nümunəsidir.

*Nurəngiz ADİLQIZI*
*XQ*

## HAVA

## Aranda yağış və dolu, dağlarda qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında gün ərzində fasilələrlə yağış yağacağı proqnozlaşdırılır. Gündüz bəzi şəhərətrafı ərazilərdə qısamüddətli intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər duman müşahidə ediləcək. Cənub-qərb küləyi səhər şimal-qərb küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 15-18, gündüz 19-23 dərəcə isti olacaq. Atmosfer təzyiqi 751 millimetr civə sütunundan 755 civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 13-18, gündüz 20-25, dağlarda gecə 5-10, gündüz 12-17, bəzi yerlərdə 20-24 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*



## ALLAH RƏHMƏT ELƏSİN!

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədr müavini Əvəz Qocayevə əzizi

**QURBAN BABAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dillər Universitetinin rektorluğu, professor-müəllim heyəti və həmkarlar ittifaqı komitəsi universitetin kadrlar şöbəsinin müdiri Məhəmməd İsmayılova anası

**SƏADƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimliyə əzizi

**ZAKİR ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Tibb Universiteti uşaq stomatologiyası kafedrasının müdiri professor Rəna Əliyeva və kollektivi kafedranın əməkdaşı Fəridə Yaqubovaya anası

**NƏRGİZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3211
SİFARİŞ 656
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00